# TƏHSİL

AYLIQ JURNAL

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN ORQANI *№ 01 (76)* YANVAR 2017


## 20 Yanvar Ümumxalq Hüzn Günüdür





**Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.**

*Heydər Əliyev*

# Bu sayımızda




*20 Yanvar Ümumxalq Hüzn Günüdür*

Səh.6-7

*20 Yanvar faciəsindən 27 il ötür*

Səh.18-22








*Mobil Təhsil haqqında nə bilirik?*

Səh.28-33

Təhsil Şurasının beynəlxalq layihəsi böyük maraq doğurur

Səh.49-53







Eşitmə problemli məktəblilərin idrak fəaliyyətinin inkişafında didaktiv oyunların rolu

Səh.54-58

Dünyada təhsil

Səh.68-72







Xocalı soyqırımı bədii əsərlərdə

Səh.81-84



# TƏHSİL

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı



*Redaksiya heyəti:*

İsa Həbibbəyli
Abel Məhərrəmov
Urxan Ələkbərov
Ədalət Muradov
Vaqif Şadlinski
Əjdər Ağayev
Mustafa Babanlı
Gülçöhrə Məmmədova
Nurlana Əliyeva
Maarifə Hacıyeva

*Baş redaktor:*
*Nizami Mirzə*



*Redaksiyanın ünvanı:*
AZ 1073, Bakı-73, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 7-ci mərtəbə

*Bizim rekvizitlər:*
Beynəlxalq Bankın Yasamal filialı
Kodu: 805562
M/h: AZ03NABZ01350100000000002944
VÖEN: 9900001881,
SWİFT: İBA ZAZ2X
Müəssisənin adı: "TƏHSİL" jurnalı
VÖEN 1303135891
HESAB-№:
AZ20İBAZ38060019443152701216 AZN

Jurnal 2007-ci ildə Ədliyyə Nazirliyində qeydə alınıb. "Təhsil" jurnalının kompüter mərkəzində yığılıb və "Azərbaycan" nəşriyyatına çap olunur. Ayda bir dəfə çıxır.

Redaksiyaya daxil olan əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Telefonlar: 537-17-89; 510-19-95; 537-17-69;
Mob: (050) 612-32-21
(077) 612-32-21

E-mail: tehsil-2007@mail.ru

Sifariş: 270
Tiraj: 1050





# Dünya azərbaycanlılarına

**Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə ya-





şayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi - Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 24 dekabr 2016-cı il*



# Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının YUNESKO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Vaqifin yaradıcılığı daim tədqiq obyektinə çevrilmiş, əsərləri kütləvi tirajla nəşr edilmiş və yubileyi keçirilmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 yanvar 2017-ci il*

# Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Əliyeva Zərrin Tahir qızı – Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi

İbrahimov Murad Aydın oğlu – Bakı şəhər Tofiq Quliyev adına 12 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Hacıyev Mahir Yaqub oğlu – Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Məmmədov Elçin Nəriman oğlu – Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 yanvar 2017-ci il*

# İlham Əliyev Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbinin binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib



Yanvarın 11-də Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə burada görülən işlərlə bağlı ətraflı məlumat verildi.

Qeyd edildi ki, Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbi 1939-cu ildən fəaliyyət göstərir. 600 şagird yerlik məktəbdə beşi elektron lövhəli olmaqla 32 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, iki kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet və idman zalı fəaliyyət göstərəcək. Məktəbdə 42 kompüter quraşdırılıb və internetə qoşulub.




Məktəbin kitabxana fondunda 6900 dərslik və 4603 bədii ədəbiyyat olmaqla 11503 kitab var. Məktəbdə 460 şagirdin təhsili ilə 59 müəllim məşğul olur.

Prezident İlham Əliyev məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış oldu.

Sonra dövlətimizin başçısı məktəbin pedaqoji kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Prezident İlham Əliyev mərasimdə çıxış etdi.

Sonda xatirə şəkili çəkdirildi.



# Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.

AZƏRTAC xəbər verir ki, Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.



Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin

bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.



Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.



Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

***

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

***

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

***

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.



# Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Binə qəsəbəsində yeni tikilən körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olub

**Dekabrın 26-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Xəzər rayonunun Binə qəsəbəsində yeni istifadəyə verilən 343 nömrəli körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olub.**



AZƏRTAC xəbər verir ki, körpələr evi-uşaq bağçasının binasının tikintisinə Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində 2015-ci ildə başlanılıb. Tikinti işləri bu ilin avqust ayında tam yekunlaşıb.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi, məktəbəqədər təhsil müəssisəsində yaradılan şəraitlə tanış oldu.

Azərbaycanın birinci xanımına körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verildi. Bildirildi ki, yaşayış evlərinin sıx yerləşdiyi qəsəbənin bu hissəsində əvvəllər uşaq bağçası olmayıb. İkimərtəbəli körpələr evi-uşaq bağçası 140 uşaq yerlikdir və 7 qrupdan ibarətdir. Müəssisə uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin etmək üçün lazımi inventarla təchiz edilib.

Heydər Əliyev Fondunun prezidenti körpələr evi-uşaq bağçasının balaca sakinləri ilə görüşdü, onlarla söhbət etdi, xatirə şəkli çəkdirdi.

Burada müxtəlif yaş qrupları üçün məşğələ və yataq otaqları, idman və musiqi zalları, yeməkxana yaradılıb. Körpələr evi-uşaq bağçasında balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq, həmçinin onların bacarıq və istedadlarını aşkara çıxarmaq üçün hərtərəfli şərait yaradılıb.

Uşaqların maraqları nəzərə alınaraq bağçanın gözoxşayan həyəti, xüsusi istirahət guşələri var. Bağça müasir yanğından mühafizə və videomüşahidə sistemləri ilə təchiz edilib.

Xatırladaq ki, 2014-cü ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı zamanı Fondun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyətin monitorinqinin nəticələri açıqlanıb. İlkin mərhələdə bu monitorinqin paytaxtı əhatə etdiyi, gələcəkdə onun bütün ölkədə aparılacağı bildirilib, yeni uşaq bağçalarının inşasına ehtiyacın olduğu müəyyənləşib. Binə qəsəbəsində inşa edilən körpələr evi-uşaq bağçası da bu istiqamətdə atılan addımlardan biridir.

Körpələr evi-uşaq bağçası ilə tanış olan Mehriban Əliyeva müəssisənin işinə uğurlar arzuladı.





# Valideyn himayəsindən məhrum olan və uşaq evlərini bitirən gənclər üçün Masazırda yaşayış binası istifadəyə verilib



## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak edib

Dekabrın 26-da Abşeron rayonunun Masazır qəsəbəsində valideyn himayəsindən məhrum olan və uşaq evlərini bitirən gənclərin yerləşdirilməsi üçün 120 mənzildən ibarət daha bir binanın açılışı olub.

Mərasimdə iştirak edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 120 mənzillik başqa bir binanın da təməlini qoyub.

Heydər Əliyev Fondunun təşəbbüsünə qoşulan Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin həyata keçirdiyi böyük sosial əhəmiyyətli layihələrdən biri yetkinlik yaşına çatdıqdan sonra internat evlərini tərk edən kimsəsiz məzunların yerləşdirilməsi üçün yaşayış binasının tikilməsidir. Uşaq evlərinin məzunu olan gənclər üçün Masazır qəsəbəsində salınan yaşayış massivində 2014-cü ilin dekabrında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə ilk 13 mərtəbəli, 120 mənzilli binanın açılışı olub. Geniş infrastruktur işlərinin görüldüyü ərazidə bu il daha bir bina tikilərək istifadəyə tam hazır vəziyyətə gətirilib.

Birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, iki blokdan ibarət binadakı mənzillərin hamısı yüksək səviyyədə təmir olunub, mebel və digər inventarla, o cümlədən mətbəx avadanlığı və yataq dəstləri ilə təchiz edilib. Binada körpələr evi, mərasim və digər tədbirlər üçün zallar yaradılıb.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Uşaq evlərindən məzun olan gənclərin mənzillə təmin edilməsi və onların məşğulluğunun artırılması Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxsaylı layihələr sırasında mühüm yer tutur. Bununla da Azərbaycanın birinci xanımı Mehriban Əliyeva cəmiyyətdə çoxdan bəri mövcud olan narahatlığa son qoyur. Çoxdandır həllini gözləyən uşaq evlərindən məzun olan gənclərin sonrakı taleyi ilə bağlı ictimai narahatlıq məhz Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə aradan qaldırılır.

Ötən illərdə paytaxtın müxtəlif yerlərində Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilən bu cür mənzillər Azərbaycan vətəndaşına, onun problemlərinin həllinə yönələn möhtəşəm layihə olmaqla yanaşı, həm də birinci xanımın sosial müdafiəyə daha çox ehtiyacı olan insanlara, xüsusilə də uşaq evlərindən çıxmış gənclərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Bu fikir yeni mənzilin sahibləri olan qızlarla görüşdə də dilə gətirildi. Qızlar Azərbaycanın birinci xanımına gördüyü işlərə, hər zaman onlara dəstək verdiyinə görə təşəkkür etdilər. Bu mənzillərin onlar üçün Yeni il ərəfəsində ən gözəl hədiyyə olduğunu dedilər.

Mehriban Əliyeva da onları yeni mənzillərə görə və qarşıdan gələn bayramlar münasibətilə təbrik etdi.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ərazidə sayca üçüncü 120 mənzilli, 13 mərtəbəli binanın təməlini qoydu.

İnşa olunacaq binanın birinci mərtəbəsində uşaq bağçasının yerləşdirilməsi nəzərdə tutulub. Böyük sosial əhəmiyyəti olan bu layihənin icrası nəticəsində uşaq evlərini bitirən gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün binada trenajor, stolüstü tennis və internet zalları fəaliyyət göstərir. Qeyd edilən xidmət sahələrində də məzunların özləri çalışır ki, bu da onların işlə təmin olunmasında mühüm rol oynayır.

**AZƏRTAC**





# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 479 nömrəli qərarının icrası barədə

## *Azərbaycan Respublikası təhsil nazirinin əmri*

"Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 479 nömrəli qərarının icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini əsas tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 479 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin (əlavə olunur).

**2.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) Hüquq şöbəsi (S.Kazımov) ilə birlikdə:

2.1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 mart 1994-cü il tarixli 187 nömrəli əmri ilə təsdiq edilmiş "Məktəb sənədlərinin aparılması və saxlanması haqqında Təlimat"ın və Təhsil Nazirliyi Kollegiyasının 2014-cü il 6 noyabr tarixli 13 nömrəli qərarı ilə təsdiq edilmiş "Uşaqların (şagirdlərin) ümumi təhsil müəssisələrinə





qəbulu və yerdəyişməsi Qaydaları"nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 479 nömrəli qərarına uyğunlaşdırılmasını təmin etsin.

2.2. Ümumi orta və tam orta təhsil haqqında fərqlənmə attestatlarının verilməsi qaydasının layihəsini hazırlayıb rəhbərliyə təqdim etsin.

2.3. Təhsil haqqında dövlət sənədlərinin yeni nümunələrinin doldurulması ilə bağlı yerli təhsili idarəetmə orqanlarına müvafiq məzmunlu təlimati məktub hazırlasın.

**3.** Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Nazirlik tabeliyindəki ümumi təhsil müəssisələrinin direktorları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 479 nömrəli qərarı ilə yeni redaksiyada təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"nın məzmun və mahiyyətinin ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərinə çatdırılmasını və valideynlərin bu barədə məlumatlandırılması üçün müvafiq maarifləndirmə işləri aparılmasını təmin etsinlər.

**4.** Statistika və proqnozlaşdıma şöbəsi (R.Nəcəfli) 2016-2017-ci dərs ilinin sonuna yeni ümumi orta təhsil haqqında və tam orta təhsil haqqında attestatlara ehtiyacı müəyyənləşdirmək üçün zəruri məlumatları bir ay müddətində hazırlayıb rəhbərliyə təqdim etsin.

**5.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov), Daxili nəzarət şöbəsi (K.Quliyev) və Maliyyə şöbəsi (R.Orucov) əmrin 4-cü bəndinin icrası üzrə təqdim olunacaq məlumatlar əsasında yeni ümumi orta təhsil haqqında attestat və tam orta təhsil haqqında attestatların sifarişi və çapı ilə əlaqədar zəruri tədbirləri həyata keçirsinlər.

**6.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını, Nazirliyin internet saytında yerləşdirilməsini və çoxaldılaraq yerlərə çatdırılmasını təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**
*26 dekabr 2016-cı il*

# 20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün qeyd edilməsi barədə

## *Azərbaycan Respublikası təhsil nazirinin əmri*

20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün təhsil müəssisələrində qeyd edilməsi məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

**2.** Tədbirlər planına müvafiq olaraq, ali, orta ixtisas, ilk peşə, ümumi və məktəbdənkənar təhsil müəssisələrində 09-20 yanvar 2017-ci il tarixlərində Azərbaycanın azadlığı uğrunda mübarizədə həlak olmuş şəhidlərin xatirəsinə həsr olunmuş geniş tədbirlər həyata keçirilsin.

**3.** İnformasiya şöbəsi (E.Əliyev) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının təhsil naziri**
*9 yanvar 2017-ci il*

# Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun hesabat tədbiri keçirilib

**Dekabrın 24-də Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun (TİPİİ) illik hesabat tədbiri keçirilib.**

Tədbirdə təhsil nazirinin müavini Ceyhun Bayramov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, millət vəkilləri, təhsil ekspertləri iştirak edib.

Tədbir TİPİİ-nin son bir ildə fəaliyyətindən bəhs edən tanıtım videosu ilə başlayıb. Sonra institutun direktor əvəzi Vəfa Yaqublunun hesabat məruzəsi dinlənilib.

Təhsil nazirinin müavini Ceyhun Bayramov çıxış edərək TİPİİ-də son bir ildə görülmüş işləri müsbət qiymətləndirib və diqqəti növbəti təqvim ili üçün qarşıda duran vəzifələrə yönəldib.






Məktəbəhazırlıq qruplarında işləyən müəllimlər üçün hazırlanmış elektron metodik tövsiyə tədbir iştirakçılarına təqdim edilib.

İl ərzində müəllimlərin peşəkar dəstəyinə töhfə vermiş təcrübəli mütəxəssis Fəridə Əliyeva TİPİİ adından Fəxri fərmanla təltif edilib.

Sonda "Peşəyə giriş" seminarının müdavimləri ilə xatirə şəkli çəkilib.

***www.edu.gov.az***





# “Elektron Təhsil” müsabiqəsinin qalibləri mükafatlandırılıb

Dekabrın 29-da Təhsil Nazirliyində “Elektron Təhsil” Respublika müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə təhsil nazirinin müavini Ceyhun Bayramov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, nazirliyin müvafiq şöbə və struktur bölmələrinin rəhbərləri, müsabiqənin təşkilində iştirak edən qurumların nümayəndələri, müsabiqə qalibləri və KİV təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Ceyhun Bayramov bildirib ki, 2010-cu ildən etibarən keçirilən “Elektron Təhsil” Respublika müsabiqəsinə ümumilikdə 6000-dən artıq layihə təqdim edilib.

Nazir müavini qeyd edib ki, müsabiqənin keçirilməsində əsas məqsəd elektron tədris resurslarının, internet texnologiyalarının tədris prosesinə tətbiqini fəallaşdırmaq, təhsil ictimaiyyətini məlumatlandırmaq, tədris məqsədləri üçün internetdən istifadənin yeni üsullarını öyrənmək, tədris prosesində informasiya texnologiyalarından fəal istifadə edən müəllimləri həvəsləndirməkdən ibarətdir.

Müsabiqədə əsasən ümumi təhsil müəssisələrinin pedaqoji heyəti, pedaqoji kadrların ixtisasartırma və yenidənhazırlanması ilə məşğul olan qurumların metodist mütəxəssisləri, şagirdlər iştirak ediblər.

Müsabiqə 3 istiqamət və 6 nominasiya üzrə təşkil olunub. Müsabiqənin I mərhələsinə ümumilikdə 1313 layihə təqdim olunub. Qəbul olunmuş 1220 layihə II mərhələdə müəyyən olunmuş meyarlar üzrə qiymətləndirilmək məqsədilə Ekspert Komissiyasına təqdim edilib. 7 nəfərdən ibarət Ekspert Komissiyası bu mərhələyə keçən layihələrin qiymətləndirilməsində müsabiqənin saytında verilən qiymətləndirmə meyarlarını əsas götürüb. Qiymətləndirmə 0-10 bal əsasında aparılıb. Bununla da 325 layihə III mərhələyə keçib.

III mərhələdə qalib namizədlər Təşkilat Komitəsi qarşısında öz işlərini təqdim ediblər. Müsabiqənin yekununda 23 qalib və 24 fərqlənən iş müəyyən edilib.

Müsabiqə “AzEduNet”, “Ultra”, “Təhsildə İnnovativ Texnologiyalar”, Əlavə Təhsil Mərkəzi, “Edumedia Azərbaycan” və “Nar” operatoru tərəfindən dəstəklənir.

Qaliblərə diplom, noutbuk, planşet, printer və digər xüsusi mükafatlar təqdim olunub.

***www.edu.gov.az***

## Təhsil naziri Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirini qəbul edib

Yanvarın 10-da təhsil naziri Mikayıl Cabbarov Çin Xalq Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vey Cinxuanı qəbul edib.

Görüş zamanı ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin hazırkı vəziyyəti və “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın müəyyən etdiyi hədəflərə uyğun əməkdaşlıq perspektivləri müzakirə olunub, təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

## Təhsil naziri Ərəb Gözdən Əlillər Federasiyasının sədrini qəbul edib

Yanvarın 18-də təhsil naziri Mikayıl Cabbarov Ərəb Gözdən Əlillər Federasiyasının sədri, Ərəb İnsan Hüquqları Cəmiyyətinin prezidenti Xalid bin Əli Əl-Nueymini qəbul edib.

Görüş zamanı Azərbaycanda gözdən əlillər üçün həyata keçirilən təhsil siyasətinə dair fikir mübadiləsi aparılıb, həmçinin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın müəyyən etdiyi hədəflərə uyğun əməkdaşlıq perspektivləri müzakirə olunub.

## Rumıniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Təhsil Nazirliyində olub

Yanvarın 10-da təhsil naziri Mikayıl Cabbarov Rumıniyanın Azərbaycan Respublikasına yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dan İankunu qəbul edib.

Görüşdə Azərbaycan və Rumıniya arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və inkişafı, o cümlədən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın müəyyən etdiyi hədəflərə uyğun olaraq, gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

***www.edu.gov.az***





# "AMEA-nın professoru" elmi adı təsis edilib

**AMEA Rəyasət Heyətinin iclasında "AMEA-nın professoru" elmi adının təsis edilməsi ilə bağlı müzakirələr aparılıb.**

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə alimlərin elmi, elmi-təşkilati və elmi-pedaqoji fəaliyyətinin layiqincə qiymətləndirilməsi, onların əməyinin stimullaşdırılmasının son illər Akademiyada aparılan çoxşaxəli islahatların tərkib hissəsi olduğunu bildirib. Akademik bu istiqamətdə bir sıra tədbirlərin həyata keçirildiyini, yeni fəxri ad, diplom və mükafatların təsis edildiyini vurğulayıb.

AMEA rəhbəri "Akademik professor" elmi adının təsis edilməsinin beynəlxalq təcrübəyə əsaslandığını və yüksək elmi nailiyyətlər əldə etmiş alimlərin əməyinin stimullaşdırılması məqsədi daşıdığını söyləyib.

İclasda milli və beynəlxalq səviyyədə mühüm nailiyyətlər əldə etmiş, uzun illər ərzində AMEA-nın əsas funksiya və vəzifələrinin həyata keçirilməsində xüsusi xidmətlər göstərmiş Azərbaycan alimlərinin əməyinin qiymətləndirilməsi məqsədilə "AMEA-nın professoru" elmi adının təsis edilməsi haqqında qərar qəbul edilib. Elmi adın Əsasnaməsinin hazırlanması üçün İşçi qrupu yaradılıb.

*İctimaiyyətlə əlaqələr şöbəsi*





# Fransa nümayəndə heyəti Fransız-Azərbaycan Universitetində olub

**Yanvarın 11-də Fransa Respublikasının nümayəndə heyəti Fransız-Azərbaycan Universitetində (UFAZ) olub.**



Təhsil naziri Mikayıl Cabbarov, Fransa Respublikasının Xarici İşlər və Beynəlxalq İnkişaf Nazirliyinin İnkişaf və Frankofoniya məsələləri üzrə Dövlət katibi Jan-Mari Lö Quen, Strasburq Universitetinin prezidenti Mişel Deneken, Ren 1 Universitetinin prezidenti David Alis Fransız-Azərbaycan Universitetində tələbələrlə görüşüb.



Görüş çərçivəsində, həmçinin Strasburq Universitetinin prezidenti Mişel Deneken, Ren 1 Universitetinin prezidenti David Alis və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru Mustafa Babanlının iştirakı ilə universitetlərarası əməkdaşlığa dair anlaşma sənədləri imzalanıb.

Sonra təhsil naziri Mikayıl Cabbarov, Fransa Respublikasının Xarici İşlər və Beynəlxalq İnkişaf Nazirliyinin İnkişaf və Frankofoniya məsələləri üzrə Dövlət katibi Jan-Mari Lö Quen media üçün brifinq keçirib.

2016-2017-ci tədris ilində tələbə qəbul edən UFAZ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Fransua Ollandın birgə təşəbbüsü ilə yaradılıb.

ADNSU ilə Fransanın Strasburq Universiteti arasında imzalanan beynəlxalq tərəfdaşlıq anlaşması əsasında fəaliyyət göstərən UFAZ-da hazırda 141 nəfər tələbə təhsil alır. Universitetdə kimya mühəndisliyi, kompüter elmləri, geofizika mühəndisliyi və neft-qaz mühəndisliyi ixtisasları tədris olunur.

# “Təfəkkür” və “Qafqaz” Universitetlərinin fəaliyyətinin dayandırılması barədə məlumat



## Təhsil Nazirliyinin Mətbuat xidmətinin məlumatı




**“Qafqaz” Universitetinin rəhbərliyi yanvarın 16-da təsisçinin qərarı ilə universitetin ləğvetmə prosesinə başlanıldığı və ləğvetmə komissiyasının yaradıldığı barədə Təhsil Nazirliyini məlumatlandırmış, bununla bağlı qış imtahan sessiyasının başa çatmasından sonra tələbələrin digər ali təhsil müəssisələrinə köçürülməsinə köməklik göstərilməsini xahiş etmişdir.**

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyi tələbə kontingentinin digər ali təhsil müəssisələrinə yerləşdirilməsini təşkil etmək məqsədilə İşçi qrupunun yaradılması barədə qərar qəbul etmişdir.

İşçi qrupuna universitetdə təhsil alan tələbələrin ölkənin ən aparıcı ali məktəblərinə köçürülməsi ilə bağlı təkliflər hazırlayıb nazirliyin rəhbərliyinə təqdim edilməsi və digər təşkilati tədbirlərin görülməsi tapşırılmışdır.

Tələbələrin ixtisasları, habelə tədris dili nəzərə alınmaqla müvafiq ali təhsil müəssisələrində qısa zamanda maneəsiz yerləşdirlməsi üçün lazımi şərait yaradılacaq, keyfiyyətli təhsil almaq hüquqları və təhsilləri ilə bağlı maliyyə şərtlərinin sabit qalacağı təmin olunacaqdır. Universitetin hazırkı tələbə kontingentinin malik olduğu bilik və akademik nailiyyətlərinin bundan sonra yüksələn istiqamətdə olması üçün bütün imkanlardan istifadə olunacaqdır.

Tədris prosesinin bütövlüyünün qorunması məqsədi ilə universitet rəhbərliyinin Təhsil Nazirliyinə etdiyi müraciət imkanlar çərçivəsində nəzərə alınacaqdır.

Tələbələrdən universitetdə fəaliyyət göstərən İşçi qrupla əlaqə saxlanılması xahiş olunur.

## Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetinin fəaliyyətinin dayandırılması barədə qərar qəbul edilib

**Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universiteti 2016-cı il oktyabr ayının 11-də Təhsil Nazirliyinə müraciət edərək, Universitetin Təsisçilər Şurasının maliyyə vəziyyətində yaranmış problemlərlə əlaqədar fəaliyyətinin dayandırılması barədə qərarın qəbul edildiyini bildirib.**

Göstərilənləri, habelə universitetin 5 illik akkreditasiya müddətinin 2016-cı ildə bitdiyini nəzərə alaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyi “Təfəkkür” Universitetinin akkreditasiyasının keçirilməməsi, 2017-2018-ci tədris ili üçün tələbə qəbulunun proqnozlaşdırılmaması və tələbə kontingentinin digər ali təhsil müəssisələrinə yerləşdirilməsini təşkil etmək məqsədilə İşçi qrupunun yaradılması barədə qərar qəbul edib.

İşçi qrupuna universitetdə təhsil alan tələbələrin digər ali təhsil müəssisələrinə köçürülməsi ilə bağlı təkliflər hazırlayıb nazirliyin rəhbərliyinə təqdim edilməsi və digər təşkilati tədbirlərin görülməsi tapşırılıb.

Tələbələrə ixtisasları, habelə qəbul imtahanlarında topladıqları balları nəzərə alınmaqla müvafiq ali təhsil müəssisələrində maneəsiz yerləşdirilməsi üçün lazımi şərait yaradılacaqdır. Eyni zamanda köçürüləcək universitetlərdə onlar üçün təhsil haqqının artımına yol verilməyəcəkdir.

Tələbələrdən qış imtahan sessiyasının başa çatmasından sonra universitetdə fəaliyyət göstərəcək İşçi qrupla əlaqə saxlanılması xahiş olunur.

# Faciə qurbanlarının xatirəsi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində də anılıb




**Yanvarın 18-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbir keçirilib. ADNSU-nun rektoru, professor Mustafa Babanlı, prorektorlar, professor-müəllim heyətinin iştirak etdiyi tədbir universitetin şəhid olmuş 3 tələbəsinin - Rahim Babayevin, Canpolad Orucovun və Ağabəy Novruzbəylinin barelyefləri önündə başlanıb. Onların vaxtı ilə oxuduqları fakültələrin önündə qoyulan barelyefləri önünə qərənfillər düzülüb, şəhidlərin xatirəsi yad edilib.**

Şəhidlərin ailə üzvləri və yaxınlarının iştirak etdiyi anım tədbirində çıxış edən rektor, professor M.Babanlı 27 il əvvəl baş verən hadisələrdən danışıb. ADNSU-nun şəhid olan tələbələrinin həmin günlərdə göstərdiyi şücaəti qeyd edən və ali məktəbin onların qəhrəmanlığını daim qürurla xatırladığını vurğulayan rektor M.Babanlı şəhidlərin yaxınlarına və ailə üzvlərinə anım tədbirində iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Tədbirdə iştirak edən şəhid yaxınları da öz ürək sözlərini deyib, onların doğmalarına göstərilən bu cür diqqətdən razı qaldıqlarını bildiriblər. Tədbir iştirakçıları 20 Yanvar hadisələrini və həmin gün şəhid olan qəhrəman oğulları bir daha yad edib, bu təqvim gününün Azərbaycanın tarixində matəm izi ilə yanaşı, həm də şanlı bir iz qoyduğunu qeyd ediblər. Onlar faciə günü yaşadıqları anları xatırlayıb və torpaqlarımızın düşməndən azad olunacağı, şəhidlərin qanının yerdə qalmayacağı günün gələcəyinə inandıqlarını bildiriblər.

***Mətbuat xidməti***

## Fakt və rəqəmlər

Qanlı Yanvar hadisələri zamanı Bakı şəhərində 131 nəfər həlak olub, ümumi nəticəyə görə isə bu hadisələrdə yaralananların sayı 800, həbs olunanların və itkin düşənlərin sayı isə 1000 nəfərdən çox oub.

Eyni zamanda 200 ev və mənzil talan edilərək yandırılıb, 80 avtomaşın, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edilib. Faciə SSRİ Daxili İşlər və Müdafiə nazirliklərinin və Dövlət Təhlükəsizlik Komitəsinin təşktlatçılığı ilə müdafiə naziri Yazovun komandanlığı altında törədilib.



# 20 Yanvar – xalqımızın müstəqillik yolunda apardığı mübarizənin bünövrəsi

> ***«... O gecə tökülən qanlar müqəddəs qanlardır».***
>
> ***Heydər ƏLİYEV***

**...20 Yanvar günü! Yaddan çıxan deyilsən,**
**Gülləbaran edildi o gün Bakı, bu Vətən!**
**Əsdi Bakının üstdən acı ölüm rüzgarı,**
**Al qana boyandılar Vətənin övladları.**
**O gecə şəhid getdi neçə oğul, neçə qız,**
**Bir Tanrı şahid oldu, bir də göydə Ay, ulduz.**
**...Qəbirlər yan-yanadır, qəbirlər yaxın-yaxın,**
**Ziyarətə gəlirlər bura hey axın-axın.**
**Hər məzarın önündə ata-ana və bacı,**
**Yas saxlayırlar onlar, ağlayıb acı-acı.**
**Əbədiyyət məskəni, Şəhidlər xiyabanı,**
**Almısan qucağına neçə igid aslanı.**
**Şəhidlər ölməyirlər, göyə uçur ruhları,**
**Əsrlər keçsə belə, kim unudar onları?!**

*20 Yanvar Azərbaycan xalqının azadlığı və ərazi bütövlüyü uğrunda şanlı mübarizə tarixinə qəhrəmanlıq salnaməsi kimi daxil olmuşdur. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən ermənilər hələ XX əsrdə yaranmış tarixi şəraitdən yararlanaraq dünyaya meydan oxuyan hegemon SSRİ hökumətinin dəstəyi ilə 3 dəfə açıq şəkildə azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş Sovet rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna öz etirazlarını bildirən geniş xalq kütləsinə qarşı sovet ordusunun – işğalçı ordunun şəhərə yeridilməsi Azərbaycanda ağlasığmaz faciəyə - 20 Yanvar qırğınına səbəb oldu.*

1980-ci illərin axırlarında Azərbaycanda milli azadlıq hərəkatı geniş vüsət almışdı. Ölkəmizdə ictimai-siyasi vəziyyətin belə kəskin xarakter almasının əsas səbəblərindən biri də məhz təcavüzkar Ermənistanın Azərbaycana qarşı növbəti dəfə nümayişkaranə şəkildə ərazi iddiaları ilə çıxış etməsi, yəni uydurma «Dağlıq Qarbağ problemi»nin növbəti dəfə qabardılıb ortaya çıxarılması olmuşdur. Həmişə olduğu kimi, SSRİ rəhbərliyindəki havadarlarına arxalanan bədnam qonşularımızın ərazilərimizə torpaq iddiaları və dinc əhaliyə qarşı azğın cinayətləri haqlı olaraq xalq kütlələrinin hiddətinə səbəb olmuşdur. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan sərhədinin sökülməsi SSRİ rəhbərliyinin canına vəlvələ saldı. Rəhbərlik təcili tədbirlər görmək qərarına gəldi. Ona görə də SSRİ Dövlət Təhlükəsizlik Komitəsi Azərbaycanda xalq hərəkatının yatırılmasına münbit şərait yaratmaq məqsədilə Bakıda, Sumqayıtda, Lənkəranda, Neftçalada və Azərbaycanın digər bölgələrində ciddi təxribatlar törədərək ermənilərin və rusların birgə talanını təşkil etməyə müvəffəq oldu. Milli azadlıq hərəkatına qoşulmuş xalqa «ekstremistlər» damğası vurmağa çalışan M.Qorbaçov qatı cinayətə rəvac verdi – əlini bu dinc xalqın qanına buladı. Beləliklə, Bakıda qan axıdıldı – millət qanı. Belə ki 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, daha dəqiqi, saat 19:27-də əvvəlcə Azərbaycan televiziyasının enerji bloku partladıldı ki, törədiləcək cinayət barədə xalqa heç bir məlumat verilməsin. 20 Yanvar faciəsini araşdıran Dövlət Komissiyası tərəfindən həmin partlayışın SSRİ DTK-nın «Alfa» qrupu tərəfindən planlaşdırılması və həyata keçirilməsi sübuta yetirilmişdir. SSRİ rəhbərliyi tərəfindən 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələrinin yeridilməsinə başlansa da, yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycanın səriştəsiz rəhbərliyinin nümayəndələri respublika əhalisini Bakıda fövqəladə vəziyyətin tətbiq edilməyəcəyi və ümumiyyətlə, belə tədbirlərin həyata keçirilməyəcəyi barədə xalqımızı əmin etmişdi. Lakin azərbaycanlıların qanına susamış




ermənipərəst M.Qorbaçov 1990-cı il yanvarın 19-da SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini namərdcəsinə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamışdır. 20 Yanvar faciəsini isə SSRİ Müdafiə Nazirliyinin, DİN və DTK-nın «A» təxribat qrupları törətmişlər. Həmin qruplar – xüsusi səfərbər edilmiş hərbi birləşmələr və zirehli texnika xalqımıza qarşı misli görünməmiş bir amansızlıq nümayiş etdirmişlər. Nəticədə torpaqlarının və hüquqlarının müdafiəsi uğrunda mübarizəyə qalxmış insanlarımız qətlə yetirilmişlər. Pulemyotlardan və avtomatlardan atəşə tutulmuş 123 kişi, 5 qadın, 4 uşaq dünyasını dəyişmişdir. Bütövlükdə, 132 soydaşımızın həyatına son qoyulmuşdur. Həmin faciədə azərbaycanlılarla yanaşı, Bakıda yaşayan 6 rus, 3 tatar, 3 yəhudi həlak olmuşdur. Həlak olanların arasında 4 milis işçisi, 1 həkim də olmuşdur. 700 nəfərdən çox yaralananın 25 nəfəri qadın, 20 nəfəri isə uşaq olmuşdur.

Bəs kim idi dinc, əliyalın əhaliyə qarşı divan tutanlar? Bəlli olmuşdur ki, Azərbaycana yeridilmiş ordu hissələrinin tərkibinə M.Qorbaçovun bir vaxtlar rəhbərlik etdiyi Stavropoldan, eləcə də Krasnodardan, Rostovdan istefada olan saqqallı erməni əsgər və zabitləri, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni əsilli kursantlar. Onsuz da Azərbaycan xalqının qanına yerikləyən erməni faşistlərinə və digərlərinə «döyüş tapşırıqları»na uğurla əməl etmək

# 20 Yanvar faciəsindən 27 il ötür

üçün qabaqcadan hərtərəfli psixoloji hazırlıq da keçirilmişdir. Ona görə də bu seçmə qoşun növləri küçələrə çıxmış əliyalın əhalini ağlasığmaz bir qəddarlıqla qətlə yetirmişlər. Müstəqil «ŞİT» təşkilatının ekspertləri müəyyən etmişlər ki, ağlını itirmiş silahlılar qısa məsafədən Y.Meyeroviçə 21, D.Xandəmirova 10-dan çox, R.Rüstəmova 23 güllə vurmuşdur. Ümumiyyətlə, ölənlər arasında 5 millətin nümayəndəsi, 20-dən çox qadın və uşaq olub. Faşist cəlladlar yaralılara təcili yardım göstərməyə gedən təcili yardım maşınını və o maşının içində olan iki nəfəri də qanına qəltan etmişdilər. O dövrün statistikası müəyyən etmişdi ki, bir gün ərzində 137 nəfər qətlə yetirilmiş, 100-dən çox soydaşımız müxtəlif dərəcədə bədən xəsarəti almış, 800-dən artıq azərbaycanlı qanunsuz həbs olunmuşdur. Vəhşiləşmiş əsgər və zabitlər tankların və başqa zirehli maşınların «lyuk»larından başlarını çıxararaq, təkcə şəhərin küçələrində dayanmış əhalini qətlə yetirməklə kifayətlənmir, həm də evləri atəşə tutur, işıq gələn evlərə güllə yağışı yağdırırdılar. Belə ki məktəbli G.Bessantina öz evində, otağının içində namərdlərin gülləsinə tuş gəlmiş, həyatı qırılmışdır. Bəs məktəbli Larisa Məmmədova? O da atasının idarə etdiyi avtobusda oturub evlərinə gedərkən faşist gülləsi ondan yan keçmir, sürücü atası isə yaralanır.

20 Yanvar günündə canından artıq sevdiyi müdrik xalqının səsinə hamıdan əvvəl səs verən Heydər Əliyev heç bir təhlükə və təzyiqə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək baş vermiş qanlı faciə ilə əlaqədar xalqımıza başsağlığı vermiş, başda M.Qorbaçov olmaqla Bakıda törədilmiş terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbiçiləri cinayətkar adlandırmış, qoşunların Bakıdan çıxarılmasını tələb etmişdir.

Dinc sakinlərə qarşı təsvirəgəlməz vəhşiliyin törədilməsi Cenevrə Konvensiyasının «İnsan hüquqları haqqında Ümumi bəyannamə»nin 2,3,5,9 və 17-ci maddələrinin, «Hərbi münaqişələr və fövqəladə hallar zamanı qadın və uşaqların müdafiəsi haqqında» Konvensiyanın, «Soyqırımı cinayətlərinin qarşısının alınması və cəzalandırılması» Konvensiyasının da tələblərinə tamamilə ziddir. Amma xalqımıza qarşı törətdiyi cinayətlərə yeni don geyindirmək istəyən sabiq SSRİ prezidenti 1995-ci ilin aprel ayında qardaş Türkiyə Respublikasında səfərdə olarkən 1990-cı il Yanvar qırğınından bəhs etmiş, Bakıda fövqəladə vəziyyət elan etməyi və oraya qoşun göndərməyi özünün siyasi həyatında ən böyük səhvi kimi dəyərləndirərək, günahını etiraf etmişdir. Azərbaycan xalqı isə öz qürurunu itirməmiş, azadlıq yolunda öz iradəsini dünyaya göstərmişdir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımıza qarşı törədilmiş qatı cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilmələri xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilməmiş, SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalqımızı daha da mətinləşdirmiş, onların mübarizliyini daha da artırmışdır.

Qanlı 20 Yanvar faciəsindən bizi 27 il ayırsa da, həmin müdhiş gecə bizdən ildən-ilə uzaqlaşsa da, xalqımızın mübarizə tarixinə yazılmış üzüntülü qətliamı öz gözləri ilə görüb canlı şahid olanlar bu gün də o dəhşətləri ürəkağrısı ilə xatırlayır, o gecə haqqında sonsuz kədərlə söhbət açırlar. Mən də Bakının Yasamal rayonunda yaşayan iki soydaşımızın fikirlərini oxuculara təqdim edirəm. Onlardan biri **Şakir Mirzəyev** 27 il əvvəl 20 Yanvar gecəsində şəhərə Biləcəri istiqamətindən daxil olmuş rus ordu tankları və zirehləri texnikasının küçələrə çıxmış dinc əhaliyə qarşı yağdırdıqları güllələrdən yalnız təsadüf nəticəsində sağ çıxmışdır. Müsahibimin dediklərindən:



- Bəli, 20 Yanvar faciəsi xalqımızın hünər və rəşadət tarixinə qızıl hərflərlə yazılmışdır. O gecəni ömrüm boyu unuda bilmirəm. Mənim üçün o qanlı gecəni unutmaq həm də ona görə çətindir ki, vaxtilə Sovet ordusu kimi ürəkdən bağlandığımız bir orduda xidmət etmişdim. Özü

də uzaq Almaniyada. O vaxt buna sevinirdim. Axı 15 respublikanı birləşdirən bir dövlətimiz var idi - Sovet dövləti. Bir şanlı ordumuz var idi – Sovet ordusu. Mən də  o ordunun əsgəri olaraq borcumu Almaniyada yerinə yetirmişəm. Canla-başla. Nümunəvi əsgər idim. Sevinirdim ki, mənə məhz Almaniyada xidmət göstərmək vəzifəsi etibar olunub. İki il hərbi orduda qulluq etdim. Xeyli tərifnamə qazandım. Ailəmə yaxşı qulluq etdiyimə görə təşəkkür məktubu da ünvanlanmışdı hərbi komandanlıq tərəfindən. Üstəlik, saqqızımzı oğurlayıb mənə «Sverx-sroçnı» kimi qalıb orduda xidmət etmək barədə təklif olunmuşdu. Əsgər borcumu şərəflə yerinə yetirdiyimə görə mənə ikihəftəlik məzuniyyət də verilmişdi. Məzuniyyət zamanı fikrimi ailəmə də bildirdim. Xəstə anam razı olmadı. Axı atam erkən vəfat etdiyindən 5 bacımı yaşatmaq, yola vermək mənim öhdəmə düşmüşdü. Ona görə də hərbi xidməti başa vurub Vətənə qayıtdım. Yoldaşlarım arasında öyünürdüm ki, Almaniyada sovet əsgəri borcumu layiqincə yerinə yetirmişəm. Əfsus ki məhz həmin sovet ordusu 1990-cı il yanvarın 20-də əliyalın xalqımın üstünə şığıdı, Bakı sakinlərini qanına qəltan etdi. Amma düşmən gülləsi yağış kimi ətrafa yağsa da, mənə dəymədi. Əvəzində mən idarə etdiyim «UAZ» markalı maşınımda 20 Yanvar metrostansiyasının ətrafındakı ağacların altında, indiki «Azərsu» binasının ətrafında yerə sərilərək imdad gözləyən onlarla yaralını maşına qoyub xəstəxanalara daşıyırdım. Ən çox da «Semaşko» xəstəxanasına. Bir neçə dəfə beləcə yaralıları maşına yerləşdirib, xəstəxanalara çatdırdım. Həmin gecə keçirdiyim stresslər, yaralıların ölüm-dirimlə çarpışmalarını görmək, zarıltılarını eşitmək çox ağır idi. Özümdə güc toplayıb qaranlıqda inildəyən yaralıları maşına qoyub həkimlərə təhvil vermək ondan da ağır idi.  Döş qəfəsindən qanı axan bir gənci maşına qoyanda ürəyim tab gətirməyib bayıldım, lakin iradəmi toplayıb xəstəni xəstəxanaya çatdıra bildim. Çətinlik onda idi ki, şəhərdə, eləcə də xəstəxanalarda işıqları söndürmüşdülər. Həkimlər şam işığında əməliyyat aparırdılar. Sonradan öyrəndim ki, həkimlər o yaralının həyatını xilas edə bilməyiblər. Həmin gecə çox sayda belə faktla üzləşdim. Bir neçə nəfəri yaralı bilib xəstəxanaya çatdıranda, bəlli oldu ki, onlar artıq sağ deyillər.

Onu da qeyd edim ki, quduzlaşmış hərbçilər yaşadığımız Şərifzadə küçəsindəki evləri, küçədə gördükləri hər kəsi qətlə yetirirdilər. Qonşumuz, anamın yaxın rəfiqəsi Mina xala da qapılarının ağzındaca qatı vəhşilər tərəfindən ayağından yaralandı. Uzun müddət yarası sağalmadı. Ayağını həkimlər amputasiya etmək istədilər. Yaşlı qadın razılıq vermədi, sonra da dünyasını dəyişdi.

Arxada qalan 27 il həmin hadisələrin bir çox şahidləri kimi mənim də sağlamlığıma balta çaldı. Ölməsəm də, ölümdən betər oldum. Uzun illərdir ki, o gecədə aldığım ciddi sarsıntıdan xeyli xəstəlik yol yoldaşım olub. Şəkərli diabetdən, yüksək qan təzyiqindən, qaraciyər serrozundan əziyyət çəkirəm. İkinci qrup əliləm. Amma ondan təsəlli tapıram ki, mənim vaxtilə qibtə etdiyim sovet ordusunun hərbi birləşmələrinin 20 Yanvar gecəsində nümayiş etdirdiyi amansız qəddarlıqlar xalqımızın azadlıq arzusunu boğa bilmədi.



İkinci müsahibim uzun illər Dövlət Bankında inkassator işləmiş, hazırda təqaüddə olan **Əhməd Bağırovdur.**

- 20 Yanvar faciəsi keçmiş Sovet imperiyasının xalqımıza qarşı törətdiyi ölçüyəgəlməz vəhşi cinayəti kimi dünya tarixinə düşmüşdür. Mən də o məşum gecənin təşviş və həyəcanını, sarsıntılarını indi də vücudumda və şüurumda daşıyıram. Mən də dünyanın tərəqqipərvər və sivil insanları kimi başda SSRİ-nin sabiq prezidenti M.Qorbaçov olmaqla bu faciəni törədənləri lənətləyirəm. Bəli, vaxtilə mənim də xidmət etdiyim sovet silahlı qüvvələrinin başdan-ayağa döyüş tankları və zirehli texnikası ilə silahlanmış ordu birləşmələri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə respublikamızın paytaxtına və regionlarımıza basqın edib qanlı cinayətlər törətdilər, əliyalın xalqımı-



zın dinc vətəndaşları küçələrdə, hətta, öz evlərində qətlə yetirildilər. 132 Azərbaycan vətəndaşının həyatına son qoyuldu. Bakının küçələrində yaralı və şəhidlərin müqəddəs qanı axıdıldı. Ertəsi gün bütün şəhidlər Təzəpir məscidində yuyularaq kəfənlənmiş və tabutlara qoyularaq soydaşlarımızın çiyinlərində müqəddəs Şəhidlər xiyabanına tərəf istiqamət götürdülər. O gün Bakı Kərbəla faciəsi yaşadı. Kərbəlada İmam Hüseynlə birlikdə 72 şəhid vardısa, Bakıda qətlə yetirilən şəhidlərin sayı 132 nəfər idi. Bu 132 şəhidi dəfn etmək üçün 132 qəbir qazmaq lazım idi. Mən yaxşı bilirəm ki, meyit yumaq, qəbir qazmaq böyük savab sayılır. O ki ola şəhid qəbri qazmaq. Al qərənfillərlə örtülmüş tabutlar Şəhidlər xiyabanına yetişdi, növbə onları qəbirlərə yerləşdirməyə çatdı. Mən özümü cəld qəbir qazanlara çatdırdım. Qəbirlər böyük sürətlə sıra ilə qazılırdı. 27 il əvvəlki yanvar soyuq və sazaqlı gəlmişdi. Bir yaşlı kişi o cür soyuq havada qan-tər içində qəbir qazırdı. Ona yaxınlaşıb beli mənə verməsini xahiş edəndə, yaşlı sanki təhqir olunurmuş kimi, "orada bel çoxdur, götür birini, sən də başqa bir qəbir qaz", - söylədi. Doğrusu, pərt olsam da, səhvimi anlayıb özüm bir bel götürüb işə başladım. Mən bir qəbiri qazıb qurtarır, başqasına keçirdim. Nəfəs dərmədən artıq beşinci qəbri qazırdım ki, bir gənc qan-tər içində olduğumu görüb, beli məndən almaq istədi, mən də işə başlayanda, qəbir qazan o yaşlı kişinin sözlərini cavan oğlana söylədim: Orada bel çoxdur, birini götür, özün başqa bir qəbir qaz. Cavan da dinməzcə gedib bir bel götürərək təzə qəbir qazmağa başladı.

Qəbirlər hazır olduqca şəhidlər də bir-bir hazır qəbirlərə qoyulur, ruhlarına dualar oxunur və torpağa tapşırılırdı. Mən 4-5 saat ərzində 10 qəbir qazdım. Adını bilmədiyim yaşlı kişidən neçə qəbir qazdığını soruşanda, «beşini qazdım» söylədi. Sözünə davam etdi: «Bu şəhidlərin qanı yerdə qalmayacaq. Cinayətkarlar cəzalarını alacaqlar. Qorbaçovlar, Bakatinlər, Yazovlar elə bildilər ki, Bakıda bu qanlı cinayəti törətməklə xalqımızı susduracaqlar. Əsla yox! Gördüyünüz bu izdiham, müdrik və qədirbilən xalqımızın birliyinin, möhtəşəm cəsarət və hünərinin canlı təzahürüdür. Heydər Əliyevin dediyi kimi, «Bu həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalq üçün böyük itkidir, faciədir. Eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq nümunəsidir. O gecə tökülən qanlar müqəddəs qanlardır».

Şəhidlər uğrunda vuruşduqları müqəddəs torpağa – Azərbaycan torpağına qarışdılar. Yeri gəlmişkən, bir məqamı da qeyd etməyə dəyər. Mən də o dəhşətli günlərin canlı şahidlərindən biri kimi Dağüstü parkda şəhidlər üçün qəbir qazarkən torpağın altında insan sümüklərini öz gözlərimlə gördüm. Sən demə, 1918-ci ilin martında Bakıda bolşeviklərin dəstəyi ilə erməni-daşnak dəstələri tərəfindən İsmailiyyə binasına yığılaraq yandırılan azərbaycanlıların cəsədləri məhz bu ərazidə basdırılıbmış. Sovet dövləti həmin soyqırımı unutdurmaq üçün qəbirlərin üstündə gəzinti meydançası saldırmış və burada Kirovun heykəlini ucaltmışdı. Göründüyü kimi, qoca tarix təkrarlanır: 1990-cı ilin yanvarında soyqırımı qurbanlarının ruhları azadlıq, müstəqillik uğrunda şəhid olan həmvətənlərimizin ruhları ilə birləşdi və bu məkan xalqımızın əbədi və müqəddəs ziyarətgahına çevrildi. Allah şəhidlərimizə rəhmət eləsin!

Bəli, nə qədər ki Azərbaycan xalqı var, Şəhidlər xiyabanı da müqəddəs ziyarətgah kimi qorunub-saxlanacaq.

Hazırda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi ilə erməni işğalı altında olan əzəli və əbədi Azərbaycan torpaqlarının azad edilməsi istiqamətində uğurlu siyasət aparılır. Prezidentin söylədiyi kimi, Azərbaycanın güclü ordusu var və bu ordu hər zaman torpaqlarımızı yağılardan azad etməyə qadirdir. Bunu keçən ilin aprel döyüşləri də bir daha təsdiqlədi.

**İdris HACIZADƏ**



*Təhsil Nazirliyində müvafiq istiqamətlər üzrə həyata keçirilmiş tədbirlərin qısa xülasəsi*

# 2016-cı ilin təhsil xronikası

**Təhsil Nazirliyi 2016-cı ilin təhsil sistemində müasir idarəetmə modelinin tətbiqi, keyfiyyətin yüksəldilməsi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, şəffaflığın təmin edilməsi və digər müvafiq istiqamətlər üzrə həyata keçirilmiş islahat və tədbirlərin qısa xülasəsini ictimaiyyətə təqdim edir.**




• Yeni tədris ilindən ölkənin bütün rayon və şəhərlərinin ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların dövlət hesabına məktəbəhazırlıq təhsilinə başlanılıb. 2016-2017-ci tədris ili üçün respublika üzrə məktəbəhazırlıq qruplarına cəlb olunan uşaqların sayı 76 min nəfərdən artıqdır.

• Respublika fənn olimpiadalarının birinci mərhələsində iştirak edən şagirdlərin sayı xeyli artıb və iştirakçıların sayı 27 500 nəfər olub. Qaliblər arasında paytaxtla müqayisədə bölgə məktəbliləri üstünlük təşkil edib, 260 şagird olimpiadanın qalibi adına layiq görülüb.

• Qazaxıstanın Almatı şəhərində məktəblilərin Jautıkov adına XII Beynəlxalq fizika, riyaziyyat və informatika fənn olimpiadası keçirilib. Məktəblilərimiz fizika fənni üzrə 2 gümüş, 1 bürünc, riyaziyyat fənni üzrə 2 bürünc və informatika fənni üzrə 2 bürünc medal olmaqla 7 medal əldə ediblər.

• “Sabahın alimləri” V Respublika müsabiqəsi keçirilib. 8 nominasiya üzrə seçilən qaliblər ABŞ-ın Arizona ştatının Finiks şəhərində təşkil olunan Intel ISEF – Intel Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edib. Azərbaycanlı məktəblilər –Nərmin Aydarova və Arzu Məmmədova fizika, materialşünaslıq kateqoriyası üzrə IV yerə, Nigar və Mədət Sərdarlılar isə Qətərin Elm və İşlətmələr Fondunun xüsusi mükafatına layiq görülüblər.

• Təhsil Nazirliyi tanınmış alimlərin iştirakı ilə “Novruz mühazirələri”ni reallaşdırıb. Mühazirələrdə elm və təhsilin müxtəlif sahələri ilə bağlı fərqli yanaşmalar ortaya qoyulub, iştirakçıları maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb.

• 2016-cı ildə “Elmdən Təhsilə” adlı məqsədli proqramla bağlı Təhsil Nazirliyi ilə AMEA arasında əldə olunmuş razılaşmaya əsasən, AMEA-da çalışan tanınmış alimlər tərəfindən dərslər tədris edilib.

• Təhsil Nazirliyinə və tabe qurumlara müraciət edən və-

# Təhsil Nazirliyində müvafiq istiqamətlər üzrə həyata keçirilmiş tədbirlərin qısa xülasəsi



təndaşların vəzifəli şəxslər tərəfindən qəbulunun asanlaşdırılması, qəbula yazılma prosesinin təkmilləşdirilməsi, müraciətlərə baxılmasının sürətləndirilməsi və keyfiyyətinin yüksəldilməsi, eyni zamanda məlumatların ümumiləşdirilməsi üçün Vahid Qəbul Portalı yaradılıb.

• 2016-cı ildə bütün rayon, şəhər təhsil şöbə və idarələrinin saytları hazırlanaraq istifadəyə verilib. Bununla bağlı təhsil şöbələri tərəfindən müəyyən edilmiş şəxslərə saytın və sosial şəbəkələrdəki səhifələrinin idarəolunmasına dair təlim keçirilib.

• Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Startap məktəbi fəaliyyətə başlayıb. Bu, yaradıcı gənclərin öz ideyalarını layihələndirib kommersiya yönümlü biznes strukturuna çevirə bilməsi məqsədlərinə xidmət edir.

• Təhsil Nazirliyi ümumi təhsil müəssisələrinin direktorları və gələcəkdə bu vəzifədə çalışmaq arzusu olan pedaqoji kadrlar üçün təlimlər təşkil edib. Gəncə şəhəri, Göygöl, Samux, Goranboy və Daşkəsən rayonları üzrə fəaliyyət göstərən ümumi təhsil müəssisələrində çalışan pedaqoji işçiləri əhatə edən təlimlərin məqsədi müasir idarəetmə bilik və bacarığına yiyələnmiş, informasiya texnologiyalarına bələd, ölkəmizin təhsil və sosial inkişafına töhfə verə biləcək məktəb direktorlarını yetişdirmək və təkmilləşdirmək olub.

• Məktəb direktorlarının işə qəbulu ilə bağlı yeni qaydalara uyğun olaraq, 4 mərhələdən ibarət müsabiqə keçirilib. Əvvəlcədən müəyyənləşdirilmiş 597 vakant yerə 2260 nəfər müraciət edib. İmtahanda iştirak edən 1591 nəfərdən 516-sı müsahibə mərhələsinə buraxılıb. Onlardan 208 nəfəri ölkənin şəhər və rayonlarındakı vakant məktəb direktoru vəzifəsinə işə qəbul olunub.

• Respublikanın ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş qaydada müəllimlərin işə qəbulu üzrə müsabiqə keçirilib. Müsabiqənin nəticəsinə əsasən ümumilikdə 2365 nəfər müəllim adını qazanıb. Onlardan 1800 nəfəri kənd məktəblərində həvəsləndirmə yerləri tətbiq olunan vakant yerləri seçib.

• Ötən il ölkə üzrə 29 yeni məktəb, o cümlədən Təhsil Nazirliyinin sifarişi ilə 7 məktəb istifadəyə verilib. 101 məktəbdə əsaslı və 384 məktəbdə isə cari təmir işləri aparılıb. 10 təhsil müəssisəsinin tikintisi isə davam edir.

• Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi ilə oğlanlar üçün ailə tipli kiçik qrup evi tikilib və 6 internat məktəbi əsaslı təmir olunub.

• Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu 2016"da təhsil müəssisələrinin əməkdaşları və idmançıları Namiq Əsədov, Tural Sadıqlı, Elman Abışov, Raidə Aslanova, Rəqsanə Rəcəbli, Lalə Pirumova yüksək nəticə göstəriblər.

• Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə təşkil olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsi keçirilib.

• Təhsil naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Elmi və Texnoloji Əməkdaşlıq üzrə Daimi Komitəsinin (COMSTECH) Baş Assambleyasının Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində keçirilən 15-ci görüşündə iştirak edib.

• Təhsil Nazirliyi və Asan Radio “ASAN məktəb” layihəsinə start verib. Layihənin məqsədi vətəndaşlara təhsildə baş verən yeniliklər barədə məlumat vermək və təhsilin bütün sahələri ilə bağlı dinləyicilərin suallarının Təhsil Nazirliyinin məsul əməkdaşları tərəfindən



## *Təhsil Nazirliyində müvafiq istiqamətlər üzrə həyata keçirilmiş tədbirlərin qısa xülasəsi*

cavablandırılmasını təmin etməkdən ibarətdir.

• 2016-2017-ci tədris ilindən ölkənin 5 şəhər və 36 rayonu üzrə 124 məktəbdə təhsil təmayüllər üzrə təşkil olunub.

• Təhsil Nazirliyi tərəfindən 8 interaktiv və 20-dən artıq informativ elektron xidmət göstərilir.

• Respublikanın ümumi təhsil müəssisələrində və peşə liseylərində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin bir rayondan (şəhərdən) digərinə dəyişdirilməsi üzrə müsabiqə çərçivəsində test imtahanları və müsahibə mərhələsi keçirilib. İmtahanın nəticəsinə görə, 243 nəfər iş yerini dəyişmək hüququ qazanıb.

• Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi və idman federasiyalarının iştirakı ilə geniş tərkibli iclas keçirilib. İclasda idman obyektləri və qurğularından idmanın inkişafı üçün daha səmərəli istifadə etmək, təhsil və idman qurumları arasında əməkdaşlığı daha da gücləndirmək, həmçinin respublikada idmanın inkişaf istiqamətləri və ehtiyaclarının ödənilməsi ilə bağlı qərarlar qəbul edilib.

• IDEA İctimai Birliyinin təşəbbüsü, Təhsil Nazirliyi, "ASAN Könüllüləri" Təşkilatının dəstəyi ilə "Hər kağızı bir yarpağa dəyişək" layihəsi keçirilib. Layihədə Bakı və Sumqayıt şəhərlərindəki təhsil müəssisələrinin şagird və tələbələri iştirak edib.

• 2016-cı ilin fevral ayından start götürən əsaslı şəkildə təkmilləşdirilmiş I və V sinif, eləcə də yeni yaradılmış IX sinif dərslik layihələrinə dair ictimai rəy öyrənilib. Dərslik layihələrinə dair rəy və təkliflər Təhsil Nazirliyinin e-resurs.edu.az saytı və derslik@edu.gov.az elektron poçtu vasitəsilə qəbul edilib. Ümumilikdə I, V və IX siniflər üzrə 77 dərslik layihəsi sayta yüklənib. Həmin dərslik layihələrinə dair 1544 rəy və təklif daxil olub. Daxil olan rəylərin 91 faizi IX sinif, 6 faizi V sinif, 3 faizi isə I sinif dərslik layihələrinə aiddir.

• 2016- cı ildə ümumtəhsil məktəblərinin I, II, III, IV, V, VII və IX sinifləri üçün 261 adda 6 623 135 nüsxə dərslik və müəllim üçün metodik vəsait çap edilib.

• Təhsil Nazirliyi tərəfindən hazırlanmış yeni www.e-derslik.edu.az elektron dərslik portalında yerləşdirilən elektron kitabların sayı 143-dən 156-ya çatdırılıb.

• Bakıda keçirilmiş "Formula 1" Avropa Qran Prisinin təşkilinə 42 ali təhsil müəssisəsi və 28 kolleci təmsil edən 3500-dən artıq tələbə-könüllü cəlb olunub.

• Ölkə üzrə IX və XI siniflərin buraxılış imtahanlarında müsbət dinamika müşahidə olunub. IX siniflər üzrə imtahanlarda 104476 nəfər məzun iştirak edib. Məzunların 70262 nəfəri və ya 67,3 faizi bütün fənlərdən müsbət qiymət alıb. Bu göstərici ötən ilki göstəricidən 2,7 faiz daha yaxşıdır. XI siniflər üzrə imtahanlarda 84589 nəfər məzun iştirak edib. Bu məzunların 54704 nəfəri və ya 64,7 faizi bütün fənlərdən müsbət qiymət alıb.

• Təhsil Nazirliyinin təşəbbüsü ilə "Maarifçi" Tələbə Kredit Fondu yaradılıb. Fond dövlət ali təhsil müəssisələri tərəfindən təsis olunub. Fondun əsas missiyası təhsil haqqını ödəməkdə çətinlik çəkən aztəminatlı ailələrdən olan tələbələrə uzunmüddətli güzəştli kreditlər verilməsi vasitəsilə onlara ali təhsil almaqda bərabər imkanların yaradılmasıdır. İlk kreditlər fondun meyarlarına cavab verən 22 nəfərə təqdim olunub və onlarla müqavilə imzalanıb. İkinci elan sessiyasında isə 12 universitetdən 121 tələbə müraciət edib və 80 təhsil krediti müqaviləsi imzalanıb.

• Honq Konqda keçirilən məktəblilərin 57-ci Beynəlxalq Riyaziyyat Olimpiadasında azərbaycanlı şagirdlər 1 bürünc, 4 həvəsləndirici sertifikata layiq görülüb.

• Gürcüstanın paytaxtı Tbilisi şəhərində məktəblilərin 48-ci

# Təhsil Nazirliyində müvafiq istiqamətlər üzrə həyata keçirilmiş tədbirlərin qısa xülasəsi



Beynəlxalq Kimya Olimpiadası keçirilib. Elm yarışmasında hər il olduğu kimi, azərbaycanlı məktəblilər də iştirak edib. Azərbaycanı təmsil edən komanda (4 şagird və 2 nəfər rəhbər) 1 gümüş, 3 bürünc medal qazanıb.

• Yerli təhsili idarəetmə qurumlarında ictimaiyyətlə əlaqələrin tənzimlənməsi və yaxşılaşdırılması üçün 9 rayonun (Abşeron, Ağstafa, Şəmkir, Şabran, Samux, Qax, İmişli, Daşkəsən, Göygöl) təhsil şöbəsində İctimaiyyətlə əlaqələr üzrə məsul şəxslər təyin olunub.

• "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində yay məktəbi təşkil olunub. Layihəyə uyğun olaraq Bakı, Lənkəran, Quba, Gəncə və Şəki şəhərlərində məktəblilər üçün hər biri iki gün olmaqla yay məktəbləri keçirilib. Yay məktəblərində sözügedən bölgələrin akademik göstəriciləri zəif olan məktəblərindən 200-ə yaxın şagird iştirak edib.

• Fransız-Azərbaycan Universitetində (UFAZ) tədrisə başlanılıb. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirilən mərkəzləşdirilmiş qəbul imtahanında I qrup üzrə 500 və daha çox bal toplayan abituriyentlərdən 303 nəfər qəbul imtahanında iştirak etmək üçün qeydiyyatdan keçib. Onlardan 120 nəfəri dövlət sifarişi, 40 nəfəri isə ödənişli əsaslarla UFAZ-ın tələbəsi olmaq imkanı qazanıb.

• 700-dən çox tələbə arasından yüksək akademik göstəricilərə və müsahibə nəticələrinə əsasən seçilmiş 10 nəfər SABAH tələbəsi Böyük Britaniyanın London şəhərində keçirilən yay məktəbində iştirak edib.

• 2016-2017-ci tədris ili üçün I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında 78545 abituriyent iştirak edib. Ümumilikdə, 200-dən artıq bal toplayan abituriyentlərin mütləq sayı artıb. 2016-2017-ci tədris ili üçün qəbul imtahanlarının nəticələrində müsbət dinamika müşahidə edilir.

• Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi təhsilin idarəedilməsinin təkmilləşdirilməsi, valideynlərin ümumi təhsil müəssisələrinin həyatında daha yaxından iştirakı məqsədilə "Məktəblinin dostu" pilot layihəsinə başlayıb.

• Təhsilalanların ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi elektron qaydada həyata keçirilib. Bu məqsədlə Təhsil Nazirliyi tərəfindən elektron proqram təminatı tətbiq olunmaqla Dövlət İmtahan Mərkəzi ilə birgə fəaliyyət çərçivəsində transfer.edu.az elektron portalı yaradılıb. Bu, tələbə köçürülməsində şəffaflığın, rahatlığın və sadələşmiş prosedurun yaradılmasına xidmət edir. Ümumi müraciət edənlərin sayı 241 nəfər olub ki, onlardan 83 nəfərə müsbət cavab verilib. Orta-ixtisas təhsili müəssisələri tələbələrinin də bu portal vasitəsilə köçürülməsi nəzərdə tutulub.

• Macarıstan ali məktəblərində 2016-2017-ci tədris ili üzrə təhsil almaq üçün azərbaycanlı tələbələrin seçimi yekunlaşıb. "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında 2015-2017-ci illər üzrə İş Proqramı" çərçivəsində təşkil olunmuş seçimləri Azərbaycan Respublikası Təhsil Nazirliyi Macarıstan tərəfi ilə birgə aparıb. Seçimlərin nəticələrinə əsasən, 182 nəfər Macarıstan ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

• Çin Xalq Respublikası ali təhsil müəssisələrində 2016-2017-ci tədris ili üzrə təhsil almaq üçün azərbaycanlı tələbələrin seçimi başa çatıb. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2016-2019-cu illər üçün təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" çərçivəsində aparılmış seçimlərin





nəticələrinə əsasən, 17 tələbə bu ölkənin müxtəlif universitetlərində təhsil almaq hüququ qazanıb.

- Təhsil Nazirliyi ilə "ASAN xidmət" arasındakı əməkdaşlıq çərçivəsində hazırlanmış "ASAN peşə" layihəsi Bakı və Gəncə şəhərlərində reallaşdırılıb. Layihə çərçivəsində 4286 nəfər ilk peşə-ixtisas təhsili müəssisələrinə qəbul olunub. Qəbul olunanlardan 733 nəfərinin əsas fənlər üzrə ümumi müvəffəqiyyət göstəricisi "4"-dən yuxarı olub.
- 9 nömrəli Bakı Peşə Liseyinin bazasında IT STEP Akademiyası yaradılıb.
- Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramı çərçivəsində tələbələr üçün Şəki şəhərində təşkil olunmuş "Bir" Könüllülük Akademiyası uğurla başa çatıb. Bakı, Sumqayıt, Gəncə, Şəki, Lənkəran və Mingəçevir şəhərlərində fəaliyyət göstərən 18 ali təhsil müəssisəsindən seçilmiş 60 nəfər tələbə-könüllü akademiyada iştirak edib, yeni bilik və bacarıqlar qazanıblar.
- Azərbaycan Respublikası ərazisində tanınan və ekvivalentliyi müəyyən edilmiş (nostrifikasiya olunmuş) xarici dövlətlərin ali təhsil müəssisələrinin diplomlarını almış şəxslər barədə məlumat bazası istifadəyə verilib.
- "ADA" Universitetində BP-nin maliyyə dəstəyi ilə "Big Data" Elmi-Tədqiqat və Təlim Mərkəzi yaradılıb.
- Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda (TİPİİ) ingilis dili müəllimləri üçün Təlim-resurs mərkəzi istifadəyə verilib.
- Community.az portalı "Məktəb icmaları" layihəsi çərçivəsində "İdeya-2017" adlı müsabiqə keçirilib.
- Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan tarixi" adlı III ümumrespublika bilik yarışı keçirilib.
- Mili Olimpiya Komitəsində (MOK) "Olympic Moves" məktəblilərin kütləvi idman proqramının yeni mövsümünə start verilib.
- Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Bayraq yürüşü" keçirilib. Minlərlə yürüşçü "Azneft" meydanı yaxınlığından Dövlət Bayrağı Meydanınadək yürüş edib.
- Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin təşkilatçılığı ilə "Təhsilin keyfiyyətinin təminatında akkreditasiyanın rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.
- Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin ərazi maliyyə hesablaşma mərkəzləri yaradılıb. Ərazi maliyyə hesablaşma mərkəzlərinin yaradılmasının məqsədi təhsil sahəsində maliyyə və inzibati resursların idarə edilməsinin təkmilləşdirilməsi və mərkəzləşdirilmiş maliyyələşdirilməyə mərhələlərlə keçirilməsindən ibarətdir.
- "BİR" Tələbə-Könüllü Proqramının təşkilatçılığı ilə Beynəlxalq Könüllülər Gününə həsr olunmuş Azərbaycan Tələbə-Könüllülərinin 2-ci Forumu keçirilib.
- 2016-cı ildə ölkənin 26 şəhər və rayonunun dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi keçirilib. Diaqnostik qiymətləndirmədə 36 min nəfər müəllim iştirak edib.
- "Məktəb direktorunun bir iş günü" layihəsi çərçivəsində qabaqcıl ümumi təhsil müəssisələri rəhbərlərinin tanıdılması davam etdirilib.
- "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" təqaüdçülərini tanıdan "Uğur formulu" layihəsi 2016-cı ildə də davam etdirilib.



# Mobil Təhsil texnologiyaları: imkanlar, perspektivlər



İlham ƏHMƏDOV,
*ADPU " İKT Mərkəzi"nin direktoru, dosent*

**Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" (bundan sonra – Strateji Yol Xəritəsi) hazırlanmışdır. Bu sənəddə qeyd edilən tədbirlərin reallaşması ölkədə təhsilin, informasiya cəmiyyətinin, insan kapitalının, elmtutumlu iqtisadiyyatın inkişafına güclü impuls verə bilər.**

Bu sənəddə qeyd edildiyi kimi, İKT bacarıqlarının inkişafı və təhsil sistemində İKT-dən istifadə insanların həyat keyfiyyətini və iqtisadiyyatın məhsuldarlığını yüksəltməklə qlobal miqyasda Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin daha da artmasına zəmin yaradır. Təhsil sistemində İKT-dən səmərəli istifadənin təmin edilməsi üçün təhsil informasiya sisteminin formalaşdırılması müsbət nəticələr verəcəkdir. Ümumilikdə, təhsil informasiya sistemi dedikdə, əlaqəli, qarşılıqlı istifadə edilə bilən və təhsil müəssisələrində tədrisin səmərəli təşkili ilə onların daha effektiv idarə edilməsinin dəstəklənməsinə kömək edən komponentlərin məcmusu başa düşülür. Sistemin məqsədi təhsil müəssisələri arasındakı rabitə əlaqəsinin asanlaşdırılmasından, elektron hökumət üçün uyğunluğun təmin edilməsindən, sənədləşmələr zamanı kağız daşıyıcılardan mümkün qədər imtina edilərək, informasiya mübadiləsinin avtomatlaşdırılmasından ibarətdir. Bununla yanaşı, təhsil informasiya sistemi vasitəsilə təhsil müəssisələrinə qəbul, tədris materiallarının mövcudluğu və idarəedilməsi üzrə prosedurlar da daha keyfiyyətlə idarə olunur. Azərbaycanda təhsil informasiya sisteminin tətbiqi ilə müxtəlif tərəflər arasında fəaliyyətlərin daha mükəmməl əlaqələndirilməsi mümkün olacaqdır.

"Azəbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair strateji yol xəritəsi"ndə qeyd edilir ki, Azərbaycanda rəqəmsal təhsil konsepsiyası hazırlanacaq. Rəqəmsal təhsil sahəsində atılacaq addımlardan biri də bütün məktəblərin elektron təhsillə əhatə olunmasıdır. Bunun üçün artıq ilkin işlərin görülməsi başa çatıb. Növbə bu sistemi bütün məktəblərdə vahid mərkəzdən idarə olunmaqla tətbiq etməkdədir. Rəqəmsal təhsilin ali təhsil sistemində reallaşması isə xarici ölkələrdəki onlayn pulsuz kursların təşkil edilməsi formasında həyata keçiriləcəkdir. Bundan başqa, yol xəritəsində bildirilir ki, təhsil sahəsində texnoloji dəstəyi təmin etmək məqsədilə təhsil müəssisələrinin aparıcı şəxsləri təhsil texnologiyaları haqqında davamlı məlumatlandırılacaq, təhsil texno-





loqlarının inkişafı üçün tədbirlər dəstəklənəcək və bu fəaliyyətlər çərçivəsində təkmilləşdirmə kursları təşkil ediləcək. Bu mənada təhsil işçilərinin maarifləndirilməsi üçün pedaqoji nəşrlərdə seriya məqalələrin dərci məqsədəuyğun olardı. Bu məqalə elektron təhsilin son nailiyyətlərindən hesab edilən Mobil Təhsil texnologiyalarına həsr edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində də elektron dərslərin təşkili, təhsil təyinatlı elektron resursların hazırlanması, şagirdlərin planşetlərlə təmin edilməsi kimi məsələlər öz əksini tapmışdır. Bu məsələlərin ölkəmizdə həlli mobil təhsilin yaradılması və inkişafına dəstək verə bilər.

**Mobil Təhsil (MT) təhsilin müasir inkişafının yeni mərhələsidir.**

MT çevik, əlyetərli, fərdi təhsili dəstəkləyən texnologiyaların köməyi ilə həyata keçirilir. Öyrənənlərin mobil telefon və müxtəlif mobil qurğulardan kütləvi istifadə imkanlarından təhsil məqsədləri üçün səmərəli istifadə edilə bilər. Bu amillər Mobil Təhsilin dünyada çox geniş yayılmasına səbəb olmuşdur. YUNESKO-nun "Təhsil hamı üçün" proqramının məqsədlərində qeyd edildiyi kimi MT bütün dünyada uşaqların, gənclərin, yaşlıların inkişafına dəstək verən keyfiyyətli təhsil xidmətləri təqdim edə bilər.

<u>Mobil Təhsilin mahiyyəti və əhatə dairəsi.</u> MT mobil texnologiyaların öyrədici imkanlarına əsaslanır. Bu metod əsasən konkret (əvvəlcədən nəzərdə tutulmuş) məkanda olmaq imkanı olmayan öyrəncilərə mümkün, əlyetərli resurslardan istifadə edərək öyrənmə imkanı yaradır. Mobil təhsildən təhsilin müxtəlif pillələrində istifadə edilə bilər. MT öyrənənlərə şəraiti asanlıqla dəyişdirməyə, eyni zamanda sanki bir neçə təhsil müəssisəsində təhsil almağa imkan verir. MT yeni tip universitet və təlim metodlarının yaradılmasını nəzərdə tutur. Çünki, ənənəvi sinif şəraitindəki dərsdə qarşılıqlı ünsiyyət imkanları məhduddur.

MT təhsil paradiqmasını dəyişir. Bu zaman təhsilin funksiyası məktəbdənkənar mühitə keçir, mövcud tədris proqramlarının qüsurlarının ləğvinə yönəlir. MT təhsilin həyat və praktik fəaliyyətlə əlaqələndirilməsinə xidmət edir. MT-in məktəb, universitet və digərləri stasionar tipli təhsil müəssəsi ilə əlaqəsi azdır. Bu vəziyyət ənənəvi təhsil sistemi ilə MT arasında ziddiyyət yaradır. Belə ki, ənənəvi təhsil tədris proqramı və şagirdlərin fərdi nailiyyətlərinə əsaslandığı halda, MT şagirdlərin təhsil maraqlarına, yaranan müxtəlif tələb və ehtiyaclara əsaslanır.

**MT qurğuları və şəbəkələri.**

MT aşağıdakı qurğular vasitəsi ilə həyata keçirilir:

1. Mobil telefon.
2. Fərdi audio qurğular (mp3, mp4 player).
3. Daşına bilən yüngül fərdi kompüterlər (məs.: planşet tipli fərdi kompüterlər, netbooklar, kiçik notebooklar).

Belə mobil qurğuların mütəmadi olaraq sayı artmaqdadır. Bura elektron oyunlar, rəqəmsal diktafonlar, elektron kitab və lüğətlər, həmçinin məhdud imkanlı (fiziki qüsurlu) şagirdlər üçün əlavə vasitələr daxildir. Bu qurğular çoxfunksiyalı olub, şifahi nitqi, audio, video materialların axtarışlarını, səslənməsini, oxunuşunu, yazılışını, hesablamaların aparılmasını, müxtəlif oyunları və digər imkanları dəstəkləyirlər. MT məqsədləri üçün belə qurğuların seçilməsi şagirdin yaşayışından, yerləşdiyi məkandan, təlim məqsədlərindən və s. amillərdən asılıdır. Gənc nəsl və yeniyetmələr mobil telefonlar və fərdi pleyerlərdən istifadə edirlər. Tələbələr isə daha çox kompakt fərdi kompüterlərdən, smartfonlardan, notebooklardan istifadə edirlər. Bu qurğuları öz aralarında birləşdirən, İnternetə qoşan şəbəkə imkanları da vacibdir.

Simsiz birləşmə imkan verir ki, uşaqlar hərəkətdə olarkən belə bir-birləri ilə əlaqələrini itirməsinlər. GPS (peyk naviqasiya sistemi) şagirdin yerini dəqiqləşdirməyə imkan verir. Bunun vasitəsi ilə informasiya mübadiləsi aparmaq mümkündür.

**Tədris metodikası və MT**

MT xüsusi kompüter siniflərinin yaradılmasını tələb etmir. Tələbələrin online tətbiqləri ilə təmin edilməsində müəllimlərə əlavə imkanlar yaradır.

# Mobil Təhsil haqqında nə bilirik?



Praktik iş şəraitində şagird bir əli ilə hansısa bir iş görə bilər, digər əli ilə isə mobil qurğu vasitəsi ilə informasiya mübadiləsi apara bilər. MT daha çox "yüngül" məzmunlu, sadə kontentlə işləməyə imkan yaradır. Məsələn, audio materiallarla işləməyə, mətn mübadiləsinə, müxtəlif sorğularda iştiraka, təlim konspektləri ilə tanış olmağa imkan verir.

**Dinamik siniflər.** MT yeni rabitə vasitələri, birgə iş imkanları təqdim edir. Həmçinin sinif və sinifdənkənar təlimi əlaqələndirir, şagird evə gedərkən yolda və yaxud dərsdə olarkən təhsil ala bilər.

**Qiyabiçi tələbələrlə əlaqə.** MT qiyabiçi tələbələrə informasiya mübadiləsi etməyə, onlara suallar göndərməyə, öz yaşayış yerlərində olarkən yeni vərdişlərin formalaşmasına imkan yaradır.

**Şagird bilik (informasiya) yaradıcısı kimi.** Şagirdlər məlumatları şərh, müzakirə və mübadilə edərkən, müəllimin rolu tədricən dəyişir, o mütləq informasiya daşıyıcısı rolundan məsləhətçi və istiqamətləndirici roluna keçir Müəllim yaradılan informasiyanın həmmüəllifi, tərəfmüqabili olur, şagirdlər arasında belə müzakirələrin nəticəsində yeni, aktual pedaqoj resurs yaranır.

**Yaddaş üçün qeydlər.** Təlim şəraitində informasiyaların qeydiyyatı və konspektləşdirilməsi asanlaşır. Bu amil şagirdin dərsdə fəallığını artırır. Bu şagirdin dərsdə iştirakını, müzakirələrdə fəallığını bir fakt olaraq sübut edir, formal və qeyri-formal təlimi əlaqələndirir.

**Fasiləsiz təhsil.** Müəyyən zamandan sonra şagirdlər daha məsuliyyətli olacaqlar. Nəticədə onların fasiləsiz təhsil vərdişləri inkişaf edəcək. Bunun əsas mənbəyi mobil təhsil vasitəsi ilə sosial şəbəkələrə əlyetərlikdir. Bu təlim məqsədlərə və insanın həyatboyu karyera inkişafına imkan verəcək.

Praktikada bir çox təhsil müəssisələri öz divarları arasında mobil telefondan istifadəyə imkan vermir, amma proses düz qurularsa, MT ideyaları inkişaf edərsə, mobil telefon güclü təlim alətinə çevrilə bilər. Həmçinin MT vasitəsi ilə təhsildə ənənəvi idarəetmə sistemi və virtual təhsil sistemini əlaqələndirmək mümkündür.

**Təhsildə mobil və naqilsiz texnologiyaların üstünlükləri.**

Naqilsiz və simsiz texnologiyaların təhsildə xeyli üstünlükləri var. Bunlar aşağıdakılardır:

**1. Şagirdlər üçün mövcud olan üstünlüklər.** Təhsildə əlyetərliyin genişlənməsi, bahalı olmayan texnologiyalardan gündəlik istifadə.

**2. Öz ritmində öyrənmək imkanı.** Bu fərdi təlimə imkan yaradır. Bu zaman fərdi təhsildə konfedensiallıq (gizli, sirli, xəlvəti) təmin edilə bilər, halbuki məktəb kompüterlərindən istifadə zamanı konfedensiallıq mümkün deyil, məlumatların itməsi və ya yayılması halları ola bilər.

**3. Ünsiyyətin populyar üsullarının dəstəklənməsi.** Məs.: Audio materiallara və sosial şəbəkələrə mobil əlyetərlik imkanı yaranır, konkret təlim ehtiyacları təmin edilir.

**a)** Əlavə resurslara müraciət edərək, məktəb proqramından kənar əlavə mövzulara müraciət edilə bilər, müəyyən idraki maraqlar təmin edilə bilər. Bu imkan əsasən pulsuz öyrədici resurslar vasitəsi ilə həyata keçirilə bilər.

**b)** Kompakt fərdi kompüterlərdən istifadə. Bu zaman təlimdə rəqabət şəraitinin yüksəlməsinə, mühüm həyati bilik və bacarıqların əldə edilməsinə, iş metodlarının təkmilləşdirilməsinə imkan yaranır. Belə ki, kompakt fərdi kompüterlər müasir işgüzar mühitin və tədrisin mühüm alətinə çevrilir.

**4. Ünsiyyətin dəstəklənməsi.**

**a)** Təlim prosesindəki təəssüratların operativ olaraq tələbə yoldaşları ilə bölüşmək imkanı.

**b)** Təlimdə mümkün problemlərin diaqnostikası və qiymətləndirilməsi.

**c)** Risk qrupunda olan şagirdlərin psixoloji dəstəklənməsi. Bu sosial şəbəkə və ya fərdi məsləhətçi, hami müəllim vasitəsi ilə həyata keçirilir.

**5.** Təhsil müəssisəsi üçün mövcud olan üstünlüklər.

Əsas üstünlük əhalinin təhsilə cəlb edilməyən təbəqəsinin təlimə cəlb edilməsindən ibarətdir. Ümumən isə təhsil müəssisəsi üçün aşağıdakı üstünlüklər mövcuddur:

**a)** Öyrədici materiallar mobil tətbiqlər, bloqlar,





elektron kitablar vasitəsi ilə daha əlyetərli olub, geniş auditoriyanı əhatə edir. Bu vasitələr potensial tələbələrin diqqətini cəlb edir.

**b)** Ehtiyacı olan sosial qruplara dəstək. MT bu qrup insanların həyat şəraiti və səviyyəsini yüksəltməyə kömək edir.

**6. Təhsilin keyfiyyətinin yüksəldilməsi.**

**a)** Tədris proqramının canlandırılması, materialların dinamik təqdimatı, animasiya imkanları, təlim metodlarının yenidən qiymətləndirilməsi.

**b)** Coğrafi cəhətdən müxtəlif məkanlarda olan şagirdlər lokal xarakterli yeni təlim resusrları yarada bilər, öz biliklərini, müşahidələrini və tədqiqat mətnlərini bir-biri ilə paylaşa bilərlər.

**7. Fasiləsiz təhsilin dəstəklənməsi.** Təhsilin şagirdlərin dəyişən imkanlarına uyğunlaşması, biliklərin yenilənməsi və genişlənməsi məqsədi ilə təhsilin fasiləsizliyinin təminatı.

**8. MT-nin təhsil sisteminə milli və beynəlxalq səviyyədə verdiyi üstünlüklər.**

**a)** Sosial və iqtisadi səbəblərdən təhsildən təcrid olunmuş insanların təhsildə iştirakına şərait yaradılır.

**b)** Fasiləsiz təhsil mədəniyyəti formalaşır, şagirdlər nəinki sistematik bilik alırlar, həm də fərdi istifadədə olan texnologiya vasitəsi ilə zəruri hallarda əlavə informasiya alır, biliklərini genişləndirirlər.

**c)** Hər şəraitdə təhsil imkanı yaranır. Bu zaman insanlar istənilən şəraitdə təhsilalma imkanları qazanırlar. Öz potensialından maksimum istifadə etməyə çalışırlar.

**d)** Şagirdlərin mobillik imkanlarının artması hesabına, tədris resurslarına və çevik təhsilə məhdudiyyətsiz əlyetərlik hesabına təhsilin qlobal imkanları yaranır.

**MT-nin inkişafında problem və məhdudiyyətlər.**

MT-nin inkişafında aşağıdakı kimi problemlər var: maliyyə problemi, təşkilati problem, səriştənin çatışmazlığı, istifadə çətinlikləri, kənd yerində MT-in tətbiqi məhdudiyyəti, təhsildə mobil texnologiyaların tətbiqinin mümkün neqativ nəticələri. Bu problemlərin hər birinə ayrıca diqqət yetirmək maraqlı olar.

**1. Maliyyə problemi.** MT-in geniş tətbiqi məqsədi ilə mobil qurğuların istehsalçıları bir çox hallarda sponsor qismində çıxış edirlər. Bunun nəticəsində bir sıra ölkələrdə xeyli uşaqlar mobil qurğularla təchiz olunmuşlar. İstehsalçıların bu addımı ümumi prosesə ilkin təkan versə də, mobil qurğunu işlək vəziyyətdə saxlamaq üçün kifayət deyil. Bu səbəbdən şagirdlərin özlərinə məxsus mobil qurğudan da istifadə (ucuz mobil qurğulardan) edilməsi mümkündür.

**2. Təşkilati problemlər.** Bəzən təhsil müəssisələri müəllimləri inandırmağa çalışır ki, MT boş əyləncə deyil, təhsilə ciddi dəstək verə bilən perspektivli bir texnologiyadır. Bəzən təcrübəli müəllimlər hesab edirlər ki, MT tədris prosesini nəzarətdən çıxara bilər. Belə ki, MT-in tətbiqi zamanı uşaq öz təşəbbüsü ilə sinif otağından kənarda da təlim ala bilər. Elektron materialların müəlliflik hüququ hələ də qeyri-müəyyən olduğundan mobil qurğularda istifadə üçün faydalı elektron resurslar kəmiyyət və keyfiyyət baxımından kifayət qədər deyil. Mobil əlavələrin və mobil tətbiqlərin hazırlanması müəllimlərdən daim ixtisaslarının yüksəldilməsini, həmçinin əlavə mütəxəssislərin bu işə cəlb edilməsini tələb edir.

**3. Səriştəliyin azlığı.** Müəllimlər öz şagirdlərinə MT texnologiyalarından istifadə imkanlarını təqdim etməkdə bəzən çətinlik çəkirlər. Bu sahədə müəllimlərin təcrübəsizliyi, biliklərinin azlığı, tədrisin səmərəliliyinin qiymətləndirilməsi üsullarına bir daha yenidən baxmağa ehtiyac yaradır. Belə ki, MT təlim prosesində birqiymətli nəticə verməyə də bilər. Uşaqlar mobil qurğulardan ünsiyyət vasitəsi kimi necə istifadə etmək lazım olduğunu bilsələr də, öyrədici vasitə kimi ondan səmərəli istifadə edə bilmirlər. Müəllimlər şagirdlərin MT dəstək verməkdə, bu işə rəhbərlik etməkdə bəzən çətinlik çəkirlər.

**4. İstifadə çətinlikləri.** Mobil qurğunun qidalanma akkumulyatorunun uzunmüddətli fasiləsiz işləməsi MT üçün müəyyən çətinliklər yaradır. Displeyin kiçik ölçüdə olması, mətnin rahat oxunmasında müəyyən çətinlik yaradır. Bundan başqa mobil



qurğunun İnternetə qoşulması da əlavə xərc tələb edir ki, bu da bir problem yarada bilər. Hava şəraitinin necə olması d (yağışlı, günəşli) açıq havada mobil təhsilin reallaşmasına mane olur.

**5. Kənd yerlərində MT üçün məhdudiyyət.** Geniş zolaqlı İnternet əhalinin az məskunlaşdığı yerlərdə, kiçik yaşayış məntəqələrində geniş yayılmamışdır. İnternet provayderləri naqilsiz geniş zolaqlı xidmətlər təqdim edə bilirlər. Lakin bunun əhatə nöqtələri, əlyetərli nöqtələri azdır (bu məqsədlə bəzən rouminq xidmətindən istifadə etmək zərurəti yaranır). Peyk vasitəsi ilə təqdim edilən İnternet dünyanın istənilən nöqtəsində geniş zolaqlı xidmət təklif edə bilir, lakin bu bahadır. Ehtimal edilir ki, gələcəkdə kənd yerlərində geniş zolaqlı İnternet xidməti WiMax vasitəsi ilə təqdim edilə bilər. Bu halda xidmət daha ucuz olacaq.

**6. Təhsildə mobil texnologiyalardan istifadənin mümkün neqativ nəticələri.** Mobil texnologiyaların fəal tətbiqi insanlar arasında ünsiyyətin azalmasına, qarşılıqlı münasibətlərin zəifləməsinə səbəb ola bilər. Bu isə stres hallarını yüksəldə bilər. Hər yerdə mobil qurğulardan maksimum istifadə insanların şəxsi təhlükəsizliyi üçün də təhdidlər yaradır.

MT xeyli əlavə maliyyə yatırımı və müəllimlərin yenidən hazırlığını tələb edir. Pedaqoji nöqteyi nəzərdən MT həddən ziyadə çox işləndikdə təhsil anlayışını nüfuzdan salar, təhsili özünütəhsillə əvəz edər, təsadüfi, sistemsiz faktların öyrənilməsi, məlumatların səthi mənimsənilməsi nəticəsində biliklərin dərinliyi yox, səthiliyi və genişliyi müşahidə edilə bilər.

**MT-nin tətbiq nümunələri.**

**1. Fərdi və kütləvi təhsil.** MT çox sayda şagirdlərin, cəmiyyət və sosial şəbəkələrin tələb və ehtiyaclarını, iş yerində insanların təhsil ehtiyaclarını ödəmək üçün məqsədəuyğundur. MT şagirdlərin nailiyyətlərini müəyyənləşdirməyə və operativ qeydiyyat aparmağa imkan yaradır. Şagirdlər mobil texnologiyalardan təlim prosesində istifadənin səmərəli yollarını müəllimlərlə müzakirə etməli, daha yaxşı istifadə təcrübəsini öyrənməlidirlər. Bu təhsil texnologiyası fiziki qüsuru olan şagirdlər üçün daha məqsədəuyğundur. Kütləvi təhsilin təşkilində, savadlığın yayılmasında, müəyyən hesabi bacarıq və vərdişlərin inkişaf etdirilməsində, habelə müəllimlərin yenidən hazırlanmasında MT kömək edir. MT vasitəsi ilə sinifdaxili ünsiyyəti təkmilləşdirmək mümkündür. MT şagirdlərə imkan verir ki, öz ideyallarını yoldaşları ilə bölüşsün, mobil sorğularda iştirak etsin. Beləliklə, şagirdlərin utanma kompleksi (hissi) onları narahat etmir, bu amillər tədrisə marağı artırır. MT böyük qrup şagirdlərlə dərs keçərkən fərdi yanaşmağa da imkan yaradır.

Kütləvi qiyabi təhsilin təşkilində də mobil texnologiyanın imkanı böyükdür. Dünyanın istənilən nöqtəsində olan qiyabiçi tələbələr bir-birləri ilə mobil texnologiya vasitəsi ilə rabitə yaradır, məlumat və təcrübə mübadiləsi həyata keçirdirlər.

**2. Müəllimin MT sahəsində metodik və texniki hazırlığı zəruridir.** Müəllimlərın MT texnologiyaları, mobil pedaqogika üzrə hazırlıq keçməsi zəruridir. Onların bu sahədə özlərinə inamını artırmaq üçün müvafiq texniki bilik və bacarıqlara sahib olması zəruridir. Müəllimlər fərdi təhsilin təşkili üçün mobil texnologiyalardan istifadəni bacarmalı, öyrədici material hazırlamağı bilməli, öz tədqiqatlarının nəticələrini və metodik təcrübələrini bir-biri ilə mübadilə etməyi bacarmalıdırlar.

**3. Gender təhsili və şagirdlərin mobil təlimi.** Mobil qurğular vasitəsi ilə hamını- qızları və qadınları, oğlanları və kişiləri təhsilə cəlb etmək mümkündür. Bu, xüsusən ucqar kəndlərdə olan qızların təhsildən yayınması problemini qismən həll etməyə imkan verə bilər. Yazmağı və hesablamağı öyrədən təlim belə insanların digərlərindən asıllığını azaldır. Qadınlar mobil təhsilə cəlb edilərək müəyyən mətnləri oxumağı və yazmağı öyrənə bilərlər. Məsələn, Hindistanın ucqar kəndlərində uşaqlar, qocalar oyun vasitəsi ilə ingilis dilini öyrənirlər.

**4. Əlil insanların təhsilində mobil texnologiyalar.** Mobil qurğular fiziki cəhətdən qüsurlu insanların təhsil almasına, peşə hazırlığında sərbəstlik əldə etməsinə kömək edə bilər. Məsələn, dilin öyrənilməsinə dair audio mətnlər, lüğətlər, səsli kitablar (audio kitablar) kimi resursların mobil qurğulara yüklənməsi, onların sərbəst şəkildə öyrədilməsini təmin edə bilər. Nitqin sintez edilməsi, nit-





qin tanınması əlil insanlara mobil texnologiyalar vasitəsilə daha yaxşı öyrədilə bilər.

**Təhsil müəssisələrinin MT-ə münasibəti. Hüquqi baza.**

Təhsil müəssisələrində MT-ə əsasən elektron təhsilin bir istiqaməti kimi baxılır. Lakin bu yanaşma məhduddur. Ona görə ki, MT-in unikal xüsusiyyətləri nəzərə alınmır. Təhsil müəssisələri yeni texnologiyaları tətbiq edərkən aşağıdakılar nəzərə alınmalıdır:

**1. Normativ əsasnamələr.** İlk növbədə tədris müəssisəsinin ərazisində mobil qurğudan istifadə qaydaları müəyyənləşməlidir. Həmçinin, mülkiyyət hüququ və istifadə hüququnu tənzimləyən normalar müəyyənləşməlidir.

**2. Kompetensiyaların (səriştəliyin) inkişafı.** MT-dən istifadə üçün əməkdaşların yenidənhazırlanması məqsədəuyğundur. Yeni metodikaların və texniki dəstəyin həyata keçməsi üçün müəssisələr işə yeni mütəxəssislər cəlb edə bilər. Bundan əlavə mobil pedaqogika üzrə mütəxəssisin cəlb edilməsi və müəssisə daxilində belə təcrübənin yaradılması əhəmiyyətli ola bilər.

**3. Əməkdaşların mükafatlandırılması.** Təhsil müəssisəsinin əməkdaşlarının fərdi inkişafı, peşə səriştəliyinin yüksəldilməsi məqsədi ilə mobil texnologiyadan istifadə stimullaşdırılmalıdır. Bu texnologiyadan daha səmərəli istifadə edən əməkdaşlar mükafatlandırılmalıdır.

**4. Təşəbbüslərin dəstəklənməsi.** Müəssisədə nüfuz sahibi olan insanlar, innovasiyalara meyilli kadrlar sistematik olaraq MT-nin səmərəliyi haqqında ictimaiyyətdə və kollektivdə müsbət rəy formalaşdıra bilərlər.

**5. Yerli qaydaların müəyyən edilməsi.** Mobil texnologiyaların tətbiqi müəyyən müqavimətlərlə rastlaşa bilər. Bu texnologiyaların tətbiqinin asanlaşdırılması üçün yeni qaydalar hazırlanmalıdır.

**MT-nin perspektivləri.**

Mobil qurğular gələcəkdə də həyatımızın müxtəlif sahələrinə nüfuz etməyə davam edəcəklər. Mobil rabitə vasitəsi ilə qeyri-ənənəvi, innovativ təhsilin böyük potensialı var. Xüsusən tibbi maariflənmədə, sağlamlığa fərdi nəzarətdə, ekoloji maariflənmədə, xarici dillərin öyrənilməsində və s. daha geniş yayılacaqdır. Mobil qurğuların sayının çox olması qlobal səviyyədə məlumatların yığılması, emalı və əyaniləşdirilməsini asanlaşdırır. Bulud hesablamaları personalın distant təhsilinin təşkilini, tədris resurslarının paylanmasını və bu prosesdə MT texnologiyalarının tətbiqini xeyli asanlaşdırır.

Məktəblərdə telefon və digər mobil qurğulardan istifadə bu gün bəzi hallarda qadağan edilir. Lakin bu qadağalar uzun sürə bilməz. Mobil telefonlardan məqsədəuyğun istifadə imkanı (məs.: savadlığın səviyyəsinin yüksəlməsi, hesablama vərdişlərinin formalaşması) və digər qlobal idraki tələbatların təmini mobil qurğular vasitəsi ilə aparılacaq.

Mobil texnologiyanın gələcəyi yüksək texnologiyaların inkişafına əsaslanır. Bu imkan verir ki, tələbələr zəruri resurslara istənilən nöqtədə, istənilən vaxt əlyetərlik qazansınlar.

**MT ilə əlaqəli təkliflər və tövsiyələr.**

MT-in üstünlüyündən tam istifadə BMT-nin "Hamı üçün təhsil" qlobal təşəbbüsü məqsədlərinə cavab verir. MT-in inkişafı üçün aşağıdakı addımların atılması zəruridir:

**1.** Qeyri-ənənəvi, qeyri-formal, gündəlik mühitdə, istənilən şəraitdə təhsil dəyərləri yüksəkdir. Şagirdlərin özlərini reallaşdırmağa can atması, yeni təlim vasitələri ilə daha səmərəli həyata keçirilir. Şagirdlərin belə təşəbbüsləri dəstəklənməlidir.

**2.** Coğrafi cəhətdən müxtəlif məkanda olan şagirdlər mobil texnologiya vasitəsi ilə bilik və təcrübə mübadiləsi apararaq, mühim tədris resurslarına sahib olurlar.

**3.** Elektron təlimin tərkib hissəsi olan, mobil pedaqoji metod və üsulların inkişafı üçün inventisiyanı genişləndirmək zəruridir.

**4.** MT sahəsində gələcək tədqiqatların inkişafı zəruridir. MT-nin hüquqi-normativ bazası yaradılmalıdır. Mobil pedaqogika üzrə müəllimlərin hazırlığına, onların daim məlumatlandırılmasına ehtiyac var. Mobil texnologiya vasitəsi ilə özünütəhsillə məşğul olan müəllimlər mükafatlandırılmalıdır.



# Azərbaycanda multikulturalizm və tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasəti və gənc nəslin bu ruhda tərbiyə olunmasında pedaqoji işçilərin vəzifələri

*"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir."*

*Heydər ƏLİYEV*



**Oqtay MƏMMƏDOV,**
*əməkdar müəllim,*
*pedaqoji elmlər üzrə fəlsəfə doktoru*

Azərbaycan xalqının ümummilli lideri, multikulturalizmin banisi Heydər Əliyev hər zaman multikultural dəyərlərə böyük əhəmiyyət vermişdir. Bu dəyərlər Azərbaycan xalqının bütövlüyünün qorunmasına, inkişafına xidmət edir. Bu baxımdan, ölkəmizdə dövlət siyasəti kimi qəbul edilən, insanların həyat tərzi olan multikulturalizmin gənc nəslə çatdırılması çox vacibdir.

Azərbaycanda multikultural dəyərlər həmişə dövlət tərəfindən qorunmuş və təbliğ olunmuşdur. Öz etnoqrafik rəngarəngliyi ilə seçilən ölkəmizin ərazisində Azərbaycan türkləri ilə bərabər dağ yəhudiləri, tatarlar, talışlar, kürdlər, malakanlar, inqiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlar, buduqlular, qrızlar və başqa azsaylı xalqlar yaşayırlar.

Onlar özünəməxsus fərqli mədəniyyətlərin elementlərini bütün dövrlərdə qoruyub saxlamışlar. Onların mədəniyyətinə, adət-ənənələrinə, dininə yüksək səviyyədə diqqət və qayğı göstərilmiş, həmin dəyərlərin hərtərəfli inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Müasir dünyanın dini və məzhəb zəmində baş verən münaqişələrlə üzləşdiyi bir zamanda Azərbaycan milli həmrəyliyin qurulmasına nail olaraq dünyada tolerantlıq yurdu kimi tanınır. Müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu, şərq və qərbin kəsişməsində yerləşən Azərbaycan dünyanın ən tolerant və multikultural ölkələrindən biridir. Azərbaycan bütün millətlərin, dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığı nadir ölkələrdəndir.

Azərbaycanda tolerantlıq mühitinin daha da möhkəmlənməsində və multikultural dəyərlərin qorunub saxlanmasında əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin böyük rolu vardır. Ulu öndər Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə hörmət və ehtiramla yanaşıb, onların dini bayramlarını təbrik edib, adət-ənənələrinə qayğı göstərib. Ümummilli lider Heydər Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı yüksək fikirlərini bildirib, indiki qloballaşma dövründə dinlərarası, mədəniyyətlərarası dialoqa həmişə üstünlük verib.

Prezident İlham Əliyevin apardığı ardıcıl multikulturalizm siyasətinin təcəssümü kimi son dövrlərdə millətlərarası multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yarandı. Sistemli şəkildə yaradılan bütün bu təsi-





satlar görülən işlərlə bir-birini tamamlayır.

Ümummilli liderin siyası xəttini davam etdirən Prezident İlham Əliyev bu gün Azərbaycan multikulturalizmini dövlət siyasəti səviyyəsinə yüksəltməyə nail olub. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili “Multikulturalizm ili” elan etmişdir.

Artıq Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşıb. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlətimiz respublika ərazisində yayılan bütün ənənəvi dinlərə də qayğı göstərir. Prezident İlham Əliyev ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramları münasibəti ilə təbrik edir.

Son illər Azərbaycanda keçirilən humanitar forum və digər beynəlxalq tədbirlər ölkəmizi dünya multikulturalizminin mərkəzlərindən birinə çevirib. Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq konfranslarda dünyada sülhün, əmin - amanlığın təmin edilməsi, asayişin qorunması üçün mütləq dinlərarası dialoqun gücləndirilməli olduğunu bəyan edir.

2016-cı il 25-27 aprel tarixlərində Bakıda keçirilən BMT sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanın dünyada gündən-günə artan nüfuzunu bir daha təsdiqləyir. Bu həm də ölkəmizin dünya siyasətində, beynəlxalq münasibətlər sistemində yerinə və roluna, habelə multikultural dəyərlərin təşviqinə, sivilizasiyalararası dialoqun inkişafına, töhfələrinə dünya birliyinin verdiyi yüksək qiymətin təzahürüdür.

Beynəlxalq tədbirlərdə iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən gələn qonaqlar müasir Azərbaycanın əldə etdiyi uğurlarla yaxından tanış olur, qədim və zəngin mədəniyyətə malik olan ölkəmizdəki multikultural durumu, tolerantlıq mühitini yüksək qiymətləndirirlər.

Multikulturalizmin prinsip və müddəaları həyatın bütün sahələri ilə bərabər təhsil sahəsinə də nüfuz edir. Məhz multikultural təhsil bütün müəllimlər, etnoslar üçün həyati tələbat kimi qiymətlidir. Azərbaycan cəmiyyətinin indiki inkişaf səviyyəsində multikultural təlim-tərbiyə artıq məktəb təhsilində özünü qabarıq göstərməkdədir. Müdriklər həmişə belə hesab etmişlər ki, insan yalnız təhsil sahəsində həyatda sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və əməkdaşlıq, tolerantlıq münasibətləri qazana bilər.

Təhsilə multikultural yanaşma insanların müxtəlif etnik mədəniyyətlərə yiyələnməsi, tolerantlıq, fərqli şəraitlərə uyğunlaşma, dialoqa girmək bacarığı yaradır. O, bir tərəfdən də təhsilalanların həyata pozitiv köklənmələrinə kömək edir.

Dini dözümlülüyü, tolerantlığı daim dəstəkləyən dahi rəhbər Heydər Əliyev həmişə gənclərimizin bu ruhda tərbiyə olunmasını tövsiyə edirdi. Yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük ruhunda tərbiyə edilməsinin vacib məsələ olduğunu vurğulayan ümummilli lider Heydər Əliyev eyni zamanda bu işin mürəkkəb və çətin olduğunu da qeyd edirdi. Ulu öndər gənclərdə tolerantlıq mədəniyyətinin uşaqlıqdan tərbiyə edilməsini diqqətə çəkərək ünsiyyət mədəniyyətinin formalaşdırılması və Azərbaycan gənclərində bu xüsusiyyətlərin tərbiyə edilməsinin vacib şərt olduğunu bizlərə tövsiyə etmişdir.

Tədris müəssisələrində çalışan pedaqoji işçilərin, ilk növbədə həyat bilgisi, musiqi, tarix, ədəbiyyat tədrisi ilə məşğul olanların üzərinə multikulturalizm haqqında elmi biliklərin dərindən öyrənilməsi və yayılması kimi çox məsuliyyətli vəzifələr düşür.

Azərbaycan multikulturalizmi xalqımızın tarixi kökündə formalaşan və yaşayan möhtəşəm mənəvi, elmi-siyasi qaynaqlara əsaslanmışdır. İstər tarixi mənbələr, istərsə ədəbi-bədii abidələrdə yaşayan bu qaynaqlar xalqımızın daxili aləmini, ruhunu, mənəvi zənginliyini adekvat göstərən etibarlı



mənbədir. Bu gün xalqımıza xas olan tolerant, multikultural dəyərlər əsrlər boyu əcdadlarımızın canında, qanında yaşayıb bizə miras qalan dəyərlərdir.

Azərbaycanda millətlərarası və dinlərarası münasibətlər milli-mənəvi dəyər kimi həm də bəşəri məzmun, bəşəri keyfiyyət daşıyır.

Tədris prosesində, xüsusən humanitar fənlərin tədrisində əsas məqsədlərdən biri qədim ənənələrmizlə bağlı multikultural dəyərləri, tolerantlığı həssas və inandırıcı faktlarla, o cümlədən musiqinin dili ilə çatdırmaqdır.

Təhsil müəssisələrində həyata keçirilən tərbiyə işində dözümlülüklə əlaqədar tədbirlər xüsusi yer tutur. Dözümlülük ruhunda tərbiyə insanın ümumi hüquq və azadlıqlarının nədən ibarət olmasının öyrədilməsindən başlayır. Bununla əlaqədar məktəblərdə xüsusi guşələr yaradılır, orada BMT-nin “Uşaq hüquqları Konvensiyası”nın və “Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu”ndan lazımi maddələr yazılaraq uşaqlara öyrədilir. Məktəblilər arasında “Sənin hüquqların” , “Sən hüquqlarını bilirsənmu?”, “Hansı hüququn və nə səbəbə pozulub?”, “Başqalarının hüquqlarını qoruya bilirsənmi?” və s. mövzularda müzakirələr keçirilir. Bütün bunlara baxmayaraq, aparılan araşdırmalar göstərir ki, məktəbyaşlı uşaqların şəxsiyyətinin inkişafına yönəldilmiş tolerantlıq və multikulturalizm mədəniyyətinin öyrənilməsində aşağıdakılar nəzərə alınmalıdır:

- məktəbəqədər yaş dövründən başlayaraq tolerantlığın tərbiyə olunmasının vacibliyi, yeniyetmə və gənclərə tolerant mədəniyyətin komponentinin nəzəri əsaslarının lazımi qədər aşılanması;
- problemin elmi-metodiki təminatına təcrübi tələbatların ödənilməsi;
- fəaliyyət prosesində başqaları ilə qarşılıqlı əlaqə zamanı lazım olan tolerant mədəniyyətini dəyər kimi qəbul etməyə imkan verən motivasiyanın yaradılması;
- həyati situasiyalarda davranış və ünsiyyət qaydaları haqqında biliklərin əldə olunmasına kömək edən bilik və bacarıqların formalaşdırılması;
- mübahisə, konflikt şəraitində dözüm, özünüidarə edə bilmək qabiliyyətinin inkişafını müəyyənləşdirən emosional iradənin, müxtəlif milli və dini mənsubiyyətə malik insanlara münasibətdə xeyirxahlıq, şəfqət dözümlülüyünü təmin edən davranışın formalaşdırılması;
- digər insanlarla qarşılıqlı ünsiyyət və fəaliyyət zamanı vacib olan tolerant mədəniyyətin dəyər kimi qəbul edilməsi;
- mübahisə, konflikt yaratmaqdan və aqressivlikdən uzaq olmaq və belə xoşagəlməz şərait yarandıqda dözüm və özünü idarəetmə bacarıqlarının formalaşdırılması;
- ətrafdakılara, yaxud müxtəlif millətə və digər mədəniyyətə malik insanlara qarşı münasibətdə sədaqət, xeyirxahlıq və dözüm tərbiyə etmək;
- insan həyatının məzmunu sevgidən, tolerantlıqdan, incəsənətdən, gözəllik və estetikadan zövq almaqdır. Keyfiyyətsiz, estetikadan uzaq həyat tərzi müasir insana əsla yaraşmaz.

Keyfiyyətdən uzaq həyat tərzi insanın düşüncə tərzinə, həyatdan aldığı zövqə, hədəflərindəki gözəllik, estetika və zarafat anlayışına, ədəb-ərkandakı söhbətinə, süfrə davranışına qədər bütün həyatına təsir edir.

Keyfiyyətə əhəmiyyət verilmədikdə və insanların həyatında estetika, gözəllik kimi məfhumlar olmadıqda isə dünya bir növ cəhənnəmə çevrilir. Bu kobud həyat tərzinin tam əksinə, keyfiyyət, təmizlik və etikanın əhəmiyyəti “Quran”da da xüsusi vurğulanmışdır. Uca Allah bir ayəsində: “Libasını təmizlə! Pislikdən uzaqlaş” demişdir. Deməli, davranışın məzmununda yüksək əxlaqi keyfiyyətlər öz yerini tutur. Üstün əxlaq anlayışı həyatın hər sahəsinə, insanların bütün düşüncə və davranışlarına kübarlıq qazandırır.

Beləliklə, usaqların şəxsiyyətinin inkişafına böyük təsir göstərən tolerantlıq mədəniyyətinin bünövrəsinin ailədə, məktəbəqədər müəssisədə qoyulması və bu prosesin sistemli olaraq ümumtəhsil məktəblərində də davam etdirilməsi məsələlərində valideyn və tərbiyəçilərin birgə səyi uğurlu nəticəyə səbəb olur.





# Fizikanın tədrisində inteqrativ ekskursiyaların tətbiqi metodikası



**Aliyə ƏHMƏDOVA,**
*Sumqayıt şəhəri,*
*İ.Qayıbov adına 1 nömrəli tam orta məktəbin fizika müəllimi,*
*«Ən yaxşı müəllim» müsabiqəsinin qalibi*

Müasir dövrdə ümumtəhsil məktəbi hər bir təhsilalana lazımi səviyyədə elmi biliklər verməli, təhsil üçün kifayət qədər şərait yaratmalı,qabiliyyət və istedadları inkişaf etdirməli, özünütəhsil ehtiyacını və vərdişlərini formalaşdırmalıdır. Gəncin və yeniyetmənin özünütərbiyə, özünütəhsil və özünüinkişaf qabiliyyətinin, bacarığının vərdiş halına gətirməsi, biliklərini genişləndirməsi kimi mühüm şəxsi keyfiyyətləri daim diqqətdə saxlamaq müasir məktəbin səriştəli müəllimlərinin qarşısında duran əsas vəzifədir. Sadalanan vəzifələrin həlli üsullarından biri, nəzərdə tutulmuş fənlərin təlimi zamanı diyarşünaslıq elementlərindən yararlanmaqdır. Hələ XVII əsrdə görkəmli pedaqoq Y.A.Komenski özünün “Böyük didaktika” kitabında doğma diyarın öyrənilməsi ideyası əsasında qurulan tədris metodikasının üstünlüklərini kifayət qədər aydın ifadə etmişdir. İlk baxışda fizika fənni və diyarşünaslıq arasında hansı əlaqəni yaratmağın mümkünlüyü maraqlı görünə bilər. Fizika fənninin məzmun xətlərinə nəzər salsaq, aydın olar ki, fizika – təbiəti öyrənən ən əsas elmlərdəndir və müasir texnologiyaların elmi əsasını təşkil edir. Diyarşünaslıq isə müəyyən bölgələrin təbiətinin, əhalisinin, kənd təsərrüfatının, sənaye və istehsal sahələrinin, tarix və mədəniyyətinin əhatəli öyrənilməsidir. Diyarşünaslıq məhz bu gün üçün aktual olan vətənpərvərlik, mənəviyyat, milli özünüdərketmə və təhsilalanın üzləşdiyi reallıqlara düzgün emosional qiymətin verilməsi baxımından effektiv vasitədir. Fizika üzrə diyarşünaslıq işinin məzmunu təbii sərvətlərin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, elmi-tədqiqat mərkəzlərinin fiziki və texniki xüsusiyyətlərini məqsədyönlü və sistemli şəkildə fizikanın tədrisində istifadə etməkdən ibarət olmalıdır. Məktəblərdə fizikanın tədrisi prosesində diyarşünaslıq elementlərinin istifadə olunması təhsilalanlarda ətraf aləmin dərk olunmasına, təbiətə qayğıkeş münasibətin tərbiyə olunmasına, fizika fənninə qarşı marağın artmasına, gələcək peşənin şüurlu olaraq seçilməsinə etibarlı zəmin yaradır.

Son dövrlərdə fiziki elmi biliklərin digər sahələrlə inteqrasiya olunması aşkar şəkildə müşahidə olunur. Diyarşünaslıq elementlərinin araşdırılması zamanı yalnız fiziki biliklərlə əlaqəli olan sahələrə rast gəlmək çox çətindir. Məsələn, kənd təsərrüfatının müxtəlif istehsal proseslərində yalnız fiziki deyil, eyni zamanda bioloji və kimyəvi biliklərə əsaslanmaq lazım gəlir. Təhsilalanların maraq və təhsil imkanlarını nəzərə alaraq bu sistemli biliklərə fənlərarası inteqrasiyanın vasitəsilə nail olmaq mümkündür. Cəmiyyətin tələblərini nəzərə alaraq təhsilə inteqrativ yanaşmanın vacibliyi heç kimdə şübhə yaratmamalıdır. Sənayenin, kənd təsərrüfatının, tibbin mütərəqqi inkişafının həyata keçirilməsinə nail olmaq üçün fizika, riyaziyyat, biologiya, kimya və s. sahəsindəki nai-



liyyətlərin birləşdirilməsi günümüzün tələbidir. Bu baxımdan, inteqrasiyalı dərslərin təşkil olunmasının maraqlı formasını–diyarşünaslıq elementlərinin tətbiq edilməsini nəzərdən keçirmək olar.

Diyarşünaslıq elementlərinin mənimsədilməsini fizika və digər təbiət fənlərinin tədrisi prosesində diyarşünaslıq ekspedisiyaları və ekskursiyaları formasında həyata keçirmək mümkündür. Bu aşağıdakı istiqamətlərdə planlaşdırıla bilər:

- Məktəbə yaxın ərazilərdə istehsalat mühitinin öyrənilməsi, yerli şirkət və elmi-tədqiqat laboratoriyalarına ekskursiyalar;
- Diyarşünaslıq muzeylərinin ziyarət olunması və təbiət fənləri ilə əlaqəli resursların araşdırılması;
- Bölgənin texniki-istehsalat məlumatlarının və ədəbiyyatlarının analiz edilməsi;
- Fizika və digər təbiət elmləri ilə əlaqəsi olan həmyerlilər və ziyalılarla görüş təşkil etmək.

Verilmiş planlaşdırma nümunəsinə öz əlavələrini etməklə səriştəli müəllim və məktəb rəhbərliyi məktəbi əhatə edən region üçün fizika və digər təbiət fənlərinin inteqrasiyalı tədrisini təşkil etmək məqsədi daşıyan ekskursiyalar həyata keçirə bilər. Nümunə olaraq Sumqayıt şəhərinin yaxın ərazilərində hansı diyarşünaslıq ekskursiyalarının həyata keçirilə biləcəyini qısa olaraq nəzərdən keçirək:

-“Sumqayıt Texnologiyalar Parkı”na təşkil olunmuş, geniş fənlərarası təlim imkanlarına malik olan ekskursiya;

Belə ki, “Sumqayıt Texnologiyalar Parkı”nın tərkibinə ölkənin energetika sistemində alternativ enerji mənbələrindən istifadə etməyə imkan yaradan avadanlıqların, o cümlədən külək və kiçik gücə malik su elektrik stansiyalarının avadanlıqları daxildir. Eyni zamanda günəş enerjisindən istifadə məqsədilə layihələndirilən qurğuları, müxtəlif çeşidli plastik kütlə izolyasiyalı müasir, alçaq, orta, yüksək və ifrat yüksək (MDB və Yaxın Şərqdə

analoqu olmayan 500 kV–luq) elektrik güc kabelləri və müasir güc transformatorları istehsal etməyə imkan verən müxtəlif zavodlar da daxildir. Fizika, kimya, texnologiya fənlərindən qazanılmış biliklərin və məlumatların tətbiq olunma sahələrini əyani olaraq görmək və əlavə məlumatlar almaq təhsilalanlar üçün maraqlı olacaq və təlim prosesinin yaddaqalan olmasına xidmət edəcəkdir.

-"Bismak" Qida Sənaye Kompleksinin və "Sağlam qida" Aqrar-Sənaye Kompleksinin laboratoriyalarına təşkil olunmuş ekskursiyalar:

Bu komplekslərdə istehsal olunan qida məhsullarının hansı emal proseslərini keçməsi, laboratoriyalarda hansı göstəricilərinin yoxlanma ehtiyacının olması təhsilalanlar tərəfindən idrak fəallığına səbəb olacaq, yerli istehsal olan qida məhsullarının üstünlükləri müzakirə olunacaq.

-"Azərsun Sənaye Parkı"nın "Kağız və karton istehsalat kombinatı"na təşkil olunmuş maraqlı və maarifləndirici ekskursiya;

Qafqazda yeganə olaraq Azərbaycanda qurulmuş bu kombinatda istehsal prosesi dünya standartları və təcrübəsi əsasında həyata keçirildiyindən təhsilalanlar tam müasir qurğular və avadanlıqların iş prinsipi ilə tanış ola biləcəklər. İstifadə olunmuş kağız və kartonların yenidən dövriyyəsi və emal prosesi ilə tanış olan təhsilalanlar ətraf mühitə və təbii resurslara qayğıkeş münasibətin vacibliyini dərk edəcəklər.

-"Azgüntex" MMC –yə təşkil olunmuş açıq hava ekskursiyası:

Fizika fənnindən "İstilik mühərrikləri, ətraf mühit və alternativ enerji mənbələri" mövzusunun tədrisinin əyani şəkildə tədris edilə biləcəyi bu istehsalat və təcrübə müəssisəsi alternativ və bərpa olunan enerjinin alınması məqsədilə tələb olunan qurğu və avadanlıqlar istehsal edir. Burada günəş panelləri istehsalı sahəsi fəaliyyət göstərir, LED lampaların istehsalı sahəsinin yaradılması ilə bağlı işlər aparılır. Təhsilalanlar bu ekskursiya zamanı çoxsaylı ideya və fikirləri ilə öz müəllimlərini belə təəccübləndirə bilər.

Diyarşünaslıq və inteqrasiyalı təlim məqsədləri ilə təşkil olunmuş müxtəlif ekskursiyaların yekun mərhələsi, təlim məqsədlərinin reallaşması baxımından çox vacib olan, müzakirə, nəticələrin çıxarılması və təhsilalanlar tərəfindən fikir və təəssüratların təqdimatı prosesidir. Təqdimat formaları təhsilalanların bacarıqlarına və istəklərinə görə kifayət qədər müxtəlif ola bilər: məqalə, inşa, fotoqalereya, videoreportaj, sinif qəzeti və s. Xüsusilə qeyd olunmalıdır ki, diyarşünaslıq və inteqrasiyalı təlim məqsədləri ilə təşkil olunmuş müxtəlif ekskursiyaların planının qurulmasında, müxtəlif mərhələlərinin həyata keçirilməsində fizika müəlliminin digər təbiət fənlərini tədris edən həmkarları ilə birgə fəaliyyət göstərməsinin özü belə müəllimlik fəaliyyətində maraqlı bir metodik təcrübə olacaqdır. Həmkarların birgə fəaliyyəti onlara bir-birinin səriştəsindən faydalanmağa imkan yaradacaqdır.

Fizika və digər təbiət fənlərinin tədrisində diyarşünaslıq elementlərinin və mütəmadi olaraq inteqrativ ekskursiyaların tətbiqi metodikası təhsilalanların ümumi və politexnik dünyagörüşünün genişlənməsinə, doğma diyara qarşı sevginin-vətənpərvərlik hissinin düzgün tərbiyəsinə imkan yaradır. Bu ekskursiyalar zamanı həmin ərazinin geniş tarixi, ən yeni istehsalat prosesi, elmi biliklərin texnikaya tətbiqi sahələri və s. əyani olaraq öyrənilir. Eyni zamanda, təhsilalanlarda kollektivçilik, məsuliyyət hissi inkişaf edir, yaradıcılıq və tədqiqatçılıq vərdişləri formalaşmağa başlayır. Beləliklə, fizika və digər təbiət fənlərinin tədrisində diyarşünaslıq elementlərinin və mütəmadi olaraq inteqrativ ekskursiyaların təşkilinin tətbiqi metodikası təhsilalanların geniş dünyagörüşü qazanmasına və peşə seçimi fəaliyyətinə düzgün istiqamət verir.



# Şagird nailiyyətlərinin qiymətləndirmə prinsipləri

Toplanılmış məlumatların keyfiyyəti qəbul edilmiş qərar və fəaliyyətlərin münasibliyinə təminat verir. Qiymətləndirmə məqsədləri real seçilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir. Şagirdin nailiyyətləri ona yaradılmış imkan daxilində müəyyən sahədə yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir.

## Qiymətləndirmənin relevantlığı

Nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşma təmin olunur. Qiymətləndirmə əvvəlcədən planlaşdırılır, onun xidmət edəcəyi məqsədlər müəyyənləşdirilir, şagird haqqında toplanılan zəruri məlumatların mahiyyəti, xüsusiyyətləri göstərilir, məlumatların toplanılması və təhlili üsulları seçilir, veriləcək qərarın mahiyyəti təsvir edilir.

## Diaqnostik və formativ qiymətləndirmə necə aparılır?

Müəllimin fəaliyyəti yalnız summativ qiymətləndirmələrlə məhdudlaşmır, şagird nailiyyətinin monitorinqini diaqnostik və formativ qiymətləndirmə formalarında da aparırlar.

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək məqsədi ilə müəllim tərəfindən aparılır. Nəticələrə uyğun olaraq müəllim təlim strategiyasını və şagirdlərin hər birinə fərdi yanaşma yollarını müəyyənləşdirir. Bu qiymətləndirmənin nəticələri jurnalda qeyd olunmur.

Formativ qiymətləndirmə tədris-təlim fəaliyyətini davamlı olaraq müşayiət edən prosesdir və birbaşa müəllim tərəfindən həyata keçirilir. Formativ qiymətləndirmənin nəticələri məktəbli kitabçası vasitəsilə şagirdlərə və valideynlərə çatdırılır.

Qaydalarda göstərilir ki, formativ qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından çıxan təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə aparılır. Fənn kurikulumları əsasında xüsusi təlim kurslarından keçmiş ibtidai sinif müəllimləri məzmun standartlarına uyğun təlim məqsədlərinin yazılması bacarıqlarına yiyələniblər və standartların reallaşdırılmasına xidmət edən gündəlik təlimi necə təşkil etməyin yolları ilə tanışdırlar.

Formativ qiymətləndirmənin nəticələri məktəbli kitabçasında



**Züleyxa ABBASOVA,**
***Naxçıvan Müəllimlər İnstitutu Kurikulum Mərkəzinin metodisti***

sözlə təsvir edilir. Bəzən müəllimlər məktəbli kitabçasında qeydlərin yazılması üçün yer nəzərdə tutulmamasından şikayətlənirlər. Əslində məktəbli kitabçasında şagirdlərin fəaliyyətinin təsviri qısa ifadələrlə verilməlidir. Məsələn, riyaziyyatdan 10 dairəsində ədədlərin toplanması ilə bağlı izləmələrin nəticəsinin müxtəlif göstəricilərini müəllim şagirdlərin inkişaf xüsusiyyətlərinə uyğun olaraq belə yaza bilər: “10 dairəsində ədədləri tanıyır, lakin yaza bilmir”, yaxud “10 dairəsində ədədləri toplaya bilir” və ya





“10 dairəsində çıxmanı yerinə yetirir” və s. Müəllim elə bu göstəricilərə əsasən də şagirdin ev tapşırıqlarını müəyyən edir. Beləliklə, valideynin tədris prosesinə cəlb olunmasına şərait yaranır.

Nəzərə almaq lazımdır ki, müəllim hər gün bütün şagirdlərin gündəliyinə qeyd yazmır. Bu qeydlər vaxtaşırı və lazım gəldikcə, hər hansı məsələ barədə şagird və valideynin mütləq məlumatlandırılmalı olduğu hallarda edilir.

Bütün bu izləmələr şagirdlərin standartlara uyğun inkişafına kömək edir.

## Summativ qiymətləndirmələrin aparılması necə planlaşdırılır və həyata keçirilir?

Şagirdlərin standartların səviyyələrinə uyğunluğu summativ qiymətləndirmələr vasitəsilə ölçülür. Standartların səviyyələrinə əsasən hazırlanmış sualların cavablandırılmasına verilən faizlər və onların qiymət şkalası üzrə açıqlaması qaydalarda göstərilmişdir. Belə ki, tapşırıqların ümumi sayının 10 faizinə düz cavab verən şagird “1”, 10 faiz daxil olmaqla 20 faizinə qədər düz cavab verən şagird “2”, 20 faiz daxil olmaqla 50 faizinə qədər düz cavab verən şagird “3”, 50 faiz daxil olmaqla 80 faizinə qədər düz cavab verən sagird “4”, 80 faiz daxil olmaqla 100 faizinə qədər düz cavab verən şagird “5”qiymətlə qiymətləndirilir.

Yarımil ərzində tədrisin planlaşdırılmasına uyğun olaraq summativ qiymətləndirmələrin neçə dəfə keçirilməsi də müəllimləri maraqlandıran məsələlərdən biridir. Kiçik summativ qiymətləndirmələr şagirdlərin müəyyən bir müddət ərzində reallaşdırılan standartların səviyyələrinə uyğunluğunu yoxlamaq məqsədi ilə keçirilir.

Məsələn, 1-ci sinifdə “Həyat bilgisi” fənnindən sağlamlıqla bağlı olan mövzular tədris olunarkən reallaşdırmaq üçün seçilən standartlar müəllimə yoxlanılmalı olan bacarıqları diktə edir. Bu bacarıqlar aşağıdakılardır:

**Şagird:**

**- sağlamlığın mühafizəsi haqqında fikir bildirir;**

**- sağlam həyat tərzinin şərtlərini sadalayır;**

**- yoluxucu xəstəlikləri tanıyır və onlardan qorunma yolları haqqında danışır.**

**Müəllim özünün müəyyənləşdirdiyi qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqlara hansı səviyyədə nail olduğunu yoxlayır.**

Kiçik summativ qiymətləndirmələrin sayını isə fənnin planlaşdırılmasına əsasən müəllim müəyyən edir. Belə ki, həftədə 4-5 saat tədris olunan fənlərin arasında kiçik summativ qiymətləndirmələrin sayına görə fərq olacaqdır. Kiçik summativ qiymətləndirmələrin sayına xüsusi bir məhdudiyyətin qoyulması mümkün deyil. Müəllim özü tədrisin planlaşdırılmasına əsasən qərar qəbul etməlidir. Qaydalarda yalnız kiçik summativ qiymətləndirmələrin 6 həftədən gec olmayaraq keçirilməsi qeyd edilib.

Böyük summativ qiymətləndirmələrdə bu şərhə xüsusi ehtiyac yoxdur. Aydındır ki, hər iki yarımilin sonunda şagirdlərin nailiyyət səviyyələrini müəyyən etmək məqsədi ilə böyük summativ qiymətləndirmə keçirilir. Böyük summativ qiymətləndirmənin əhatə etdiyi dövrdə reallaşdırılmalı olan standartlar əsasında ən mühüm bacarıqlar müəyyən olunur və standartların səviyyələrinə uyğun tapşırıqlar verilir. Bu zaman daha çox bilik və bacarıqların tətbiqinə yönələn suallardan istifadə edilir.

Məsələn, 1-ci sinifdə “Həyat bilgisi” fənnindən yarımil ərzində sağlamlıqla yanaşı, təhlükəsizlik, mənəviyyatla bağlı mövzular tədris olunur. Bu mövzular vasitəsilə reallaşdırılan standartların hər birinə ayrılıqda sual hazırlamaq çətindir. Odur ki, müəllim bu standartlar əsasında ən mühüm bacarıqları müəyyən edir və qiymətləndirmə səviyyələrini nəzərə almaqla suallar hazırlayır.



# Bakı təhsili son 1 ildə...

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) 2016-cı ildə tədrisin keyfiyyətinin, şagirdlərin təhsilə marağının və bilik səviyyəsinin yüksəldilməsi, istedadlı şagirdlərin aşkara çıxarılması və təhsilverənlərlə işin təşkili istiqamətində səmərəli fəaliyyət göstərib, çoxsaylı müsabiqələr, tədbirlər təşkil edib, təlimlər keçirib və layihələr reallaşdırıb.**

* BŞTİ-nin tabeliyində 307 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 7 əyani-qiyabi axşam məktəbi olmaqla cəmi 317 məktəb fəaliyyət göstərir.

* BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərində ümumilikdə 27 681 müəllim fəaliyyət göstərir.

* BŞTİ-nin tabeliyində olan ümumi təhsil məktəblərində 387 417, xüsusi ümumi orta məktəblərdə (xüsusi siniflərdə) 3128, əyani-qiyabi axşam məktəblərində (qruplarında) isə 2479 şagird olmaqla, ümumilikdə 393 024 şagird təhsil alır.

* Bakı şəhərinin ümumi təhsil məktəblərinin və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I sinfinə şagird qəbulu 2016-cı ildə də elektron sistem vasitəsilə həyata keçirilib. Paytaxtın ümumi təhsil məktəbləri üzrə I sinfə 44 965 nəfər qəbul edilib. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I siniflərinə isə 2106 nəfər qəbul olunub.

* BŞTİ-nin tabeliyində olan məktəblərdə 6 yaşı cari ilin sentyabrın 16-dan dekabrın 31-dək tamam olan uşaqların I sinfə qəbulu məqsədilə müsahibələr təşkil edilib. Azərbaycan Respublikası təhsil nazirinin "Xüsusi istedada malik uşaqların vaxtından əvvəl I sinfə qəbulu Qaydaları"nın təsdiqi barədə əmrinin tələblərinə uyğun olaraq, keçirilən müsahibələr nəticəsində 6 yaşı tamam olmayan 1545 uşaq vaxtından əvvəl I sinfə qəbul edilib.

* BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərini IX sinif üzrə 26178, XI sinif 19766 nəfər bitirib. Paytaxt məzunlarının əksər hissəsi Azərbaycanın və xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunublar.

* Bakı şəhərindəki dövlət ümumi təhsil məktəblərində ilk dəfə olaraq dövlət hesabına məktəbəhazırlıq qrupları fəaliyyətə başlayıb. Məktəbəhazırlıq qruplarına 5 yaşı tamam olmuş uşaqlar qəbul olunublar. BŞTİ-nin tabeliyindəki 261 məktəbdə fəaliyyət göstərən 838 məktəbəhazırlıq qrupunda 23103 uşaq təhsil alır. Həftədə 4 gün fəaliyyət göstərən məktəbəhazırlıq qruplarının əsas məqsədi uşaqların tədrisə hazırlıqlı başlaması, dərs prosesinə öncədən alışması və onlarda müəyyən bilik, bacarıq vərdişlərin formalaşdırılmasıdır. Qeyd edək ki, məktəbəhazırlıq qruplarına cəlb olunmuş uşaqlar tədris vəsaitləri ilə dövlət hesabına təmin edilib.

* Məktəbəhazırlıq müəllimləri üçün təlimlər keçirilib. Məktəbəhazırlıq qruplarında dərs demək üçün əsasən təcrübəli, intellektual, peşəkar ibtidai sinif müəllimləri seçilib və onlar üçün iki təlim kursu təşkil olunub. Bakının ümumi təhsil məktəblərinin məktəbəhazırlıq qruplarında dərs deyəcək müəllimlər üçün təsdiq olunmuş tədris planı və proqrama uyğun olaraq, keçirilən öyrədici təlimlərə 850 müəllim cəlb edilib. Təhsil nazirinin müvafiq əmrinə əsasən, keçirilən təlim-məşğələlər məktəbəqədər təhsil üzrə ekspertlər və səriştəli psixoloqlar tərəfindən aparılıb.

* 2016-cı ildə ölkə Prezidentinin sərəncamlarına əsasən, paytaxt ümumi təhsil müəssisələrində çalışan müəllimlər təhsilin inkişafında xüsusi xidmətlərinə görə, dövlət təltiflərinə







layiq görülüblər. Belə ki, Bakı məktəblərində çalışan 10 müəllim "Tərəqqi" medalına layiq görülüb, 12 müəllim "Əməkdar müəllim" fəxri adı alıb, 14 müəllim "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, 17 müəllim "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı" ilə təltif olunub.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdində Təlimə Dəstək Mərkəzi yaradılıb. Təlimə Dəstək Mərkəzinin yaradılmasında məqsəd ümumi təhsil müəssisələrində pedaqoji prosesin sistemli idarə olunmasının dəstəklənməsi, yeni yanaşmaların məktəblərdə çevik tətbiqinin təmin olunması, məktəbdaxili və məktəblərarası öyrədici mühitin zənginləşdirilməsi, təlimin keyfiyyətinin artırılması və fənn metodbirləşmələrinin fəaliyyətinin düzgün istiqamətləndirilməsindən ibarətdir. Təlimə Dəstək Mərkəzinə işə qəbul müsabiqə əsasında həyata keçirilir.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsində Hüquq sektoru fəaliyyətə başlayıb. Sektor BŞTİ-nin fəaliyyətinin hüquqi təminatının həyata keçirilməsi, idarənin hüquq və qanuni maraqlarının müdafiə edilməsi məqsədilə yaradılıb.

* Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu və yerdəyişməsi üzrə müsabiqəyə BŞTİ tərəfindən ümumilikdə, 877 vakant yer çıxarılıb. "Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində və peşə liseylərində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları"na uyğun olaraq, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə (daimi əsaslarla) işləyən müəllimlərin yerdəyişməsi üzrə 2016-cı ilin may ayında 3 (üç) mərhələli müsabiqə keçirilib. Müsabiqəyə 628 vakant yer çıxarılıb. Müsabiqənin yekunlarına əsasən, 151 müəllimin iş yerinin dəyişdirilməsi məqsədəuyğun hesab edilib.

* Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu və ölkədaxili yerdəyişməsi müsabiqəsinə isə BŞTİ tərəfindən 726 vakansiya təqdim edilib. Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu müsabiqəsinin I turu üzrə 240 nəfər, II turu üzrə 122 nəfər müəllim vəzifəsinə işə qəbul edilib. Ölkədaxili yerdəyişmə müsabiqəsi nəticəsində digər rayonlardan (şəhərlərdən) 72 nəfər müəllimin iş yeri Bakı şəhərinə dəyişdirilib.

* Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu və yerdəyişməsi üzrə müsabiqədə tutulmayan və sonradan yeni yaranan vakansiyalar üzrə müəllimlərin müddətli müqavilə ilə (sosial məzuniyyət yerinə, əvəzçilik və saathesabı qaydasında) işə qəbulu zamanı namizədlərin mərkəzləşdirilmiş müsabiqədə göstərdiyi nəticələrə istinad edilib. Cari tədris ili çərçivəsində müddətli müqavilə ilə 429 müəllim işə qəbul üçün göndərilib.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinə gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər vəzifəsinə işə qəbul olunmaq üçün müsabiqə keçirilib. Müsabiqə nəticəsində 22 nəfər GÇQH rəhbəri işə qəbul edilib.

* BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində psixoloq, uşaq birliyi təşkilatı rəhbəri



və laborant vəzifələrində çalışmaq istəyən şəxslər üçün müsabiqə keçirilib. İşə qəbulun daha səmərəli və şəffaf həyata keçirilməsi, ümumi təhsil müəssisələrinin yüksək səviyyəli kadrlarla təmin edilməsinə nail olmaq məqsədilə təşkil olunan müsabiqənin birinci mərhələsində 289 nəfər laborant, 45 nəfər psixoloq, 57 nəfər uşaq birliyi təşkilatı rəhbəri vəzifəsinə işə qəbul üçün müraciət etmiş şəxslər müvafiq test suallarını cavablandırıb. Onlardan 143 nəfər laborant, 29 nəfər psixoloq, 28 nəfər uşaq birliyi təşkilatı rəhbəri vəzifələrində çalışmaq istəyən şəxslər ikinci mərhələyə - müsahibə mərhələsinə vəsiqə qazanıb.

* Fənn kurikulumlarının tətbiqi üzrə təlimlərdə iştirak etmiş müəllimlərin qiymətləndirilməsi keçirilib. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən keçirilən qiymətləndirmədə 1400-dən artıq müəllim iştirak edib.

* Məktəbəhazırlıq qruplarında çalışan 800-dən artıq müəllim imtahan verib. BŞTİ-nin təşkilatçılığı ilə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu tərəfindən məktəbəhazırlıq təlimlərində iştirak etmiş və hazırda məktəbəhazırlıq qruplarında məşğələ aparan müəllimlər üçün sertifikatlaşdırma imtahanı keçirilib. İmtahanın nəticələrinə görə, hər bir müəllimə müvafiq sertifikat verilib.

* Ümumi təhsil müəssisələrində strateji idarəetmənin dəstəklənməsi istiqamətində BŞTİ davamlı iş aparır. Bu istiqamətdə direktorlar üçün 5 günlük "Strateji Planlaşdırma" adlı təlim keçirilib.

* Məktəb psixoloqları üçün "Klinik Psixologiya" mövzusunda təlim keçirilib. Təlimlərə 223 nəfər məktəb psixoloqu cəlb olunub. Eyni zamanda 37 məktəbdə 2500 valideyn və şagirdə "Yeniyetməlik böhranı dövründə valideyn-övlad münasibətləri" mövzusunda təlimlər keçirilib.

* Təhsilverənlərlə işin təşkili ilə bağlı işlər davam etdirilib. Belə ki, Türkiyə Cümhuriyyəti İzmir Şəhər Təhsil İdarəsi ilə birlikdə 30 riyaziyyat müəllimi üçün "Riyaziyyat təlimi-Qardaşlıq körpüsü" adlı təlim təşkil edilib.

* İlk dəfə olaraq Lütfi-Zadə adına Bakı I Məntiq Olimpiadası təşkil edilib. BŞTİ və "İstək" liseyinin birgə təşkilatçılığı ilə keçirilən olimpiada V-VI sinif şagirdləri arasında məntiqi biliklərin artmasına təkan vermək, onlara beynəlxalq, yerli olimpiadalarda iştirak təcrübəsi qazandırmaq, istedadlı, xüsusilə məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş məktəbliləri aşkara çıxarmaq məqsədlərinə xidmət edir. Məntiq olimpiadasında paytaxtın 292 məktəbindən 23834 nəfər şagird iştirak edib. Onlardan 2375 nəfəri finalda iştirak hüququ qazanıb. Yekun mərhələdə ən yüksək nəticə göstərmiş 83 şagird mükafatçılar sırasına daxil olub.

* Bakı şəhəri məktəblərinin VII-VIII sinif şagirdləri arasında fizika, kimya, biologiya və informatika fənləri üzrə fənn müsabiqələri keçirilib. Təhsil nazirinin "Beynəlxalq fənn olimpiadalarına hazırlıq işlərinin təşkili barədə" əmrinə əsasən, keçirilən müsabiqələrdə Bakı şəhəri üzrə 315 məktəbdən 2212 şagird iştirak edib. Müsabiqənin respublika mərhələsində 59 paytaxt məktəblisi qalib olub.

* VIII-XI sinif şagirdlərinin iştirakı ilə "Ədəbiyyat biliciləri" müsabiqəsi keçirilib.

* Əvvəlki illərdə ümumi təhsil məktəblərində oxuyub ümumi orta və tam orta təhsilini başa vura bilməyən şəxslər üçün eksternat qaydasında imtahanlar keçirilib. Eksternat qaydasında keçirilən imtahanlarda iştirak etmiş 535 şəxsdən ümumi orta təhsil səviyyəsi üzrə 67 nəfər, tam orta təhsil səviyyəsi üzrə 263 nəfər müvəffəq olub.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsi 2016-2017-ci tədris ili üzrə fəaliyyətini "Təhsili dəyərə çevirək" devizi altında reallaşdırır. Bu məqsədlə il ərzində həyata keçiriləcək 25 yeni layihəni əhatə edən 9 fəaliyyət istiqaməti müəyyənləşdirilib.

Artıq "Məktəb Seminarları", "75 Məktəb", "Uğur üçün tədris" və "Gələcəyini Qur" Gəncliyə Dəstək layihələrinə start verilib. Layihələrin





məqsədi keyfiyyətli tədris, birgə rəhbərlik, məktəblərin təşkilati mədəniyyətinin inkişafı, təhsil sahəsindəki yeniliklərin uğurla icra olunması kimi dəyərləri təbliğ etməkdən ibarətdir.

* "Məktəb seminarları" layihəsi çərçivəsində Bakının hər bir rayonu üzrə keçirilmiş təlim-seminarlarda bütün ümumi təhsil məktəblərinin direktorları, direktor müavinləri, fənn müəllimləri, psixoloqlar, kitabxanaçılar, uşaq birliyi rəhbərləri, valideyn icmaları və şagirdlər qatılıb.

* "75 məktəb" layihəsi çərçivəsində keçirilən "Dəyirmi masa"lara paytaxtın bütün rayonları üzrə 600-dən çox iştirakçı qatılıb.

Layihə çərçivəsində IX sinif şagirdləri üçün seminarlara start verilib. Vaxtın idarə olunması, peşə seçimi, imtahana effektiv hazırlaşmaq kimi mövzuları əhatə edən "Müvəffəq məktəbli" adlı seminarların keçirilməsində məqsəd IX sinif şagirdlərinin imtahana hazırlıq prosesinə və düzgün peşə seçiminə dəstək olmaqdır.

* "Uğur üçün tədris" layihəsi BŞTİ, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu və "British Council"un birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir. "Uğur üçün tədris" (SPEX) layihəsinə 56 pilot məktəb cəlb olunub.

Layihənin ilkin mərhələsində paytaxt məktəbliləri və ingilis dili müəllimləri üçün Beynəlxalq Aptis İmtahanları keçirilib. İmtahanlarda ümumilikdə 400 nəfər VII-VIII sinif şagirdi və 600 nəfər ingilis dili müəllimi iştirak edib.

* "Gələcəyini qur" Gəncliyə Dəstək Layihəsi vasitəsilə məktəblilərin ali məktəblərə qəbul olunmasına və şəxsi inkişafına dəstək verilir. Aztəminatlı ailələrdən seçilən potensiallı gənclərin hərtərəfli fərdi inkişafına dəstək vermək məqsədilə "Gələcəyini qur" Gəncliyə Dəstək Layihəsi əsasında bu il 80 nəfər ali məktəblərə qəbul olunub. Onlardan 64 nəfəri yüksək nəticə göstərmiş, dövlət hesabına təhsil alan tələbələrdir. Artıq 3-cü ilinə start verilən layihəyə 2016-cı ildə 2800-dən çox şagird müraciət edib. Onların arasından 155 məktəbli layihənin iştirakçısı adını qazanıb.

* Bakı şəhərinin 12 rayonu üzrə təhsildə uğurlu nəticələr əldə etmiş qabaqcıl müəllimlərin təcrübələrini digər həmkarları ilə bölüşməsi məqsədi ilə "Açıq dərs" layihəsi həyata keçirilib. "Açıq dərs" layihəsi zamanı riyaziyyat, fizika, kimya, biologiya, informatika fənlərinin tədrisi üzrə təcrübə mübadiləsində 111 "Açıq dərs" keçirilib, "Açıq dərs"lərə 755 müəllim cəlb edilib.

* Təhsil Nazirliyi və AMEA arasında əldə olunmuş razılaşmaya əsasən, "Elmdən təhsilə" adlı məqsədli proqram çərçivəsində Bakı məktəblərində nümunəvi dərslər təşkil edilib. Nümunəvi dərsləri AMEA-da çalışan tanınmış alimlər tədris edib.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə paytaxtdakı ümumi təhsil məktəblərində "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda dərslərə start verilib. Dərslərdə BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 305, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 18 və paytaxtda yerləşən məcburi köçkün məktəblərində təhsil alan 20 741 nəfər XI sinif şagirdinin iştirakı nəzərdə tutulub.

* VI və IX siniflərdə təhsil alan şagirdlər qiymətləndirilib. VI sinifdə qiymətləndirilmədə Azərbaycan dili fənni üzrə 26 891 nəfər, riyaziyyat fənni üzrə isə 31 697 nəfər şagird iştirak edib.

IX sinfində təhsil alan şagirdlərin Ana dili və riyaziyyat fənləri üzrə məktəbdaxili qiymətləndirilməsi təşkil edilib.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 150 məktəbdə həyata keçirilir. Bu il paytaxt məktəblərində "Məktəb icmaları" layihəsi çərçivəsində müxtəlif müsabiqələr və seminarlar təşkil edilib:

* Məktəb icmalarının bütün iştirakçıları üçün Təhsil Nazirliyi və Community.az portalı ilə birlikdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil məktəblərinin iştirakı ilə "Məktəbini tanıt" adlı videoçarx müsabiqəsi keçirilib.



* "Məktəb icmaları" layihəsi çərçivəsində məktəblilər arasında "Mənim ailə hekayəmdən" adlı inşa yazı müsabiqəsi təşkil olunub.

* "Mənim vətənim" fotoşəkil müsabiqəsi keçirilib. Şagirdlər tərəfindən çəkilən şəkillər arasından ən yaxşıları münsiflər heyəti (təcrübəli fotoqraflar) tərəfindən qiymətləndirilib.

* "Kitab Kvest-i" adlı ilk onlayn müsabiqə təşkil edilib. Onlayn formatda keçirilən müsabiqədə uşaqlar, valideynlər və müəllimlər "Məktəb icmasının ən geniş oxu bilgisinə malik iştirakçısı" adı uğrunda mübarizə aparıblar.

* "Məktəb icmaları" layihəsi çərçivəsində "İdeya-2017" müsabiqəsi keçirilib. Valideynlərin məktəblilərin həyatında daha fəal iştirakının təmin edilməsi məqsədilə keçirilən müsabiqədə valideynlər müxtəlif layihələr təqdim ediblər. Təqdim olunan layihələr içərisindən 10 qalib seçilib.

* Təhsil Nazirliyinin "ASAN xidmət"lə birgə reallaşdırdığı "Məktəblinin dostu" layihəsi çərçivəsində Bakı şəhərindəki 30 ümumi təhsil müəssisəsində ilkin olaraq 110 nəfər "Məktəblinin dostu" fəaliyyət göstərir.

* 2016-cı ildə paytaxt məktəblərindəki "Kiçik akademiya"lar fəaliyyətini uğurla davam etdirib. "Kiçik akademiya" üzvləri il ərzində müxtəlif layihə və müsabiqələrdə müvəffəqiyyətlə iştirak edib. Hazırda BŞTİ tabeliyindəki 103 məktəbdə fəaliyyət göstərən "Kiçik akademiya"ların əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub.

* BŞTİ və "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə təhsil müəssisələrində "Vətənpərvərliyin təbliğində ictimai dəstəyin artırılması" layihəsi həyata keçirilib.

* Bakı şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı, Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin təşəbbüsü ilə BŞTİ-nin tabeliyindəki 100 məktəbdə «Milli Qəhrəmanlar güşəsi»nin yaradılmasına başlanılıb.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin əməkdaşları tərəfindən şəhərin təhsil müəssisələrində "Dövlət bayrağının tarixi" mövzusunda mühazirələr keçirilib.

*Məktəblilər arasında "Şahin" hərbi-idman oyunları keçirilib. Oyunlarda Xətai rayonunun komandası I yerə, Nizami rayon komandası II yerə layiq görülüb.

* Məktəblilər arasında "Cəsurlar" hərbi-idman və turizm oyunları keçirilib. Yarışda ümumi təhsil məktəblərinin VII-VIII sinif şagirdləri iştirak ediblər. Respublika final yarışında Xətai rayonunun komandası II yerə layiq görülüb.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının birgə təşkilatçılığı ilə təhsil müəssisələrində "Uşaq hüquqlarının pilləli tədrisi" proqramı çərçivəsində "Açıq dərs"lər təşkil olunub.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsi artıq 3 ildir ki, Könüllülük Proqramı həyata keçirir. 2016-cı ildə 2 dəfə elan olunan Könüllülük Proqramına qoşulmaq üçün 450 müraciət daxil olub.

* Bakı şəhərindəki ümumi təhsil məktəblərində Təhsil Nazirliyinin və "ASAN xidmət"in təşkilatçılığı, Daxili İşlər Nazirliyinin dəstəyi ilə "Sənədsiz məktəbli qalmasın" sosial aksiyası keçirilib. Aksiya çərçivəsində 6 172 şagirdin "ASAN xidmət" mərkəzlərinə getmədən, məktəblərdə şəxsiyyət vəsiqəsi alması təmin olunub.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə "Əsgərə məktub" layihəsi həyata keçirilir. Layihənin əsas məqsədi əsgərlərimizə mənəvi dayaq olmaq, ictimaiyyətin ordu ilə birliyini daha da gücləndirmək və məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsi işinə töhfə verməkdən ibarətdir.

* Məktəblilərin və pedaqoji kollektivlərin Heydər Əliyev Mərkəzinə ekskursiyaları 2016-cı ildə də davam etdirilib.





* Paytaxt məktəbliləri "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici aksiya çərçivəsində ölkənin müxtəlif bölgələrinə səfər ediblər.

* BŞTİ-nin təşkilatçılığı ilə məktəblilərin paytaxtdakı tarixi abidə və muzeylərə ekskursiyaları təşkil edilib.

* BŞTİ-nin Vətəndaşların Qəbulu Mərkəzində 100 000-dən çox vətəndaşa xidmət göstərilib. Vətəndaşların Qəbulu Mərkəzinə daxil olmuş müraciətlərin əksəriyyəti dərhal cavablandırılıb və operativ həll olunub. 1482 vətəndaş sorğularına uyğun olaraq, elektron qaydada Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq məsul şəxslərinin qəbuluna yazılıb.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinə vətəndaşlar tərəfindən və müxtəlif qurumlardan 19 252 məktub və 1516 elektron müraciət (05.01.2016-22.12.2016) daxil olub.

* 2016-cı təqvim ili ərzində hər həftə Bakının 12 inzibati rayonu üzrə keçirilmiş səyyar qəbullar vasitəsilə müəllim və valideynlərin müraciətləri dinlənilib.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 5 təhsil müəssisəsi əsaslı təmir edilib. Bununla yanaşı, 8 məktəb üçün əlavə sinif otaqlarının, 2 məktəb üçün yeməkxananın, 1 məktəb üçün isə yeni binanın tikintisi başa çatdırılıb. Təmir-tikinti işləri yekunlaşan təhsil müəssisələrində ölkə Prezidentinin iştirakı ilə təntənəli açılış mərasimləri keçirilib. Hazırda 1 məktəb üçün əlavə sinif otaqlarının tikintisi və 1 məktəb üçün müasir tipli binanın inşası davam etməkdədir. Əlavə olaraq, məktəblərin təmirə ehtiyacı araşdırılıb, 57 müəssisədə cari təmir və mühəndis kommunikasiya işləri görülüb, 11 məktəbin bufetində təmir işləri başa çatdırılıb.

Təhsil müəssisələri 2015-2016-cı tədris ilində 700 ədəd kompüter və noutbuk, 7200 dəst parta, 300 ədəd printer və surətçıxaranla təmin olunub. Eyni zamanda, 50 məktəbdə yeni müasir tipli gənclərin çağırışaqədərki hazırlığı kabineti və 100 məktəbdə linqafon kabinet quraşdırılıb.

* Paytaxtdakı təhsil müəssisələri dərsliklərlə tam təmin olunub. Təhsil nazirinin müvafiq əmrinə əsasən, sentyabrın 5-dək 2016-2017-ci tədris ili üçün çap edilmiş yeni dərslik və müəllim üçün metodiki vəsaitlərin yerlərə çatdırılması təmin edilib.

* Ümumi təhsil məktəblərində birgə fəaliyyətin təşkil edilməsi Nazirlər Kabinetinin "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" qərarına əsasən, həyata keçirilir.

Artıq bu məqsədlə Bakı məktəblərində əlavə dərnəklər, kurslar təşkil etmək üçün üçtərəfli birgə fəaliyyət müqavilələrinin imzalanmasına başlanılıb. Təhsil müəssisələrinin maddi-texniki bazasından dərsdənkənar və təhsilalanların istifadəsində olmadığı vaxtlardan istifadə edilməklə, məktəblərdə müxtəlif idman növləri, rəqs və digər yaradıcılıq kursları təşkil ediləcək.

* Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ilə əlaqədar ənənələrin qorunub saxlanması və daha da inkişaf etdirilməsi məqsədilə paytaxtın ümumi təhsil müəssisələrində çoxsaylı tədbirlər və "Dəyirmi masa"lar təşkil olunub:

* 2016-cı ildə Bakı məktəbliləri idman sahəsində ciddi nailiyyətlərə imza atıblar. Məktəblilərin idmana olan marağının artırılması, bu sahədə kütləviliyin təmin edilməsi məqsədilə gənc idmançıların şəhər, respublika və beynəlxalq miqyaslı tədbirlərdə iştirakına əlverişli şərait yaradılıb. Məktəblilər XXVIII Spartakiadanın proqramına daxil olan idman oyunlarında, qılıncoynatma, triatlon, atletika, xokkey, karate, üzgüçülük, həndbol və bu kimi digər turnir, yarış, festival və olimpiadalarda, "Mini-futbol üzrə Bakı Şəhər Çempionatı", "Respublika Şahmat Festivalı", "Formula 1" Avropa Qran-Pri yarışlarının təbliğinə həsr olunmuş kütləvi idman tədbirləri, "17 yaşadək yeniyetmələr arasında 15-ci UEFA Avropa Çempionatı", "2000-



ci il təvəllüdlü və daha kiçik yaşlı qızlar arasında voleybol idman növü üzrə festival"da iştirak ediblər.

* Bakı məktəbliləri müxtəlif idman növləri, texniki və bədii yaradıcılıq üzrə beynəlxalq və respublika yarışlarında ümumilikdə 272 qızıl, 187 gümüş, 223 bürünc olmaqla 682 medal əldə edib.

* "Fövqəladə hallar uşaqların gözü ilə" uşaq yaradıcılıq müsabiqəsi keçirilib. Müsabiqənin keçirilməsində məqsəd uşaqlara təhlükəsiz həyat fəaliyyətinin əsaslarının öyrədilməsi, istedadlı uşaqların üzə çıxarılması və onlara dəstək verilməsi, yetişməkdə olan gənc nəslə vətənpərvərlik ruhunun aşılanması, fövqəladə hallara ictimaiyyətin diqqətinin yönəldilməsindən ibarətdir. Bakı şəhəri ilə yanaşı, respublikanın bütün şəhər və rayonlarının ümumi təhsil məktəblərini də əhatə edən müsabiqənin Təşkilat Komitəsinə 498 rəsm, 250 plakat, 222 əl işi, 215 yanğın və qəza-xilasetmə texnikasının modeli və 149 yumşaq oyuncaq təqdim olunub. Müsabiqədə ümumilikdə 144 qalib müəyyən edilib. Qaliblərə Təhsil və Fövqəladə Hallar nazirliklərinin diplom və qiymətli hədiyyələri təqdim olunub.

* Bakı məktəbliləri arasında "Səni tərənnüm edirəm, Azərbaycan!" adlı mahnı və şeir müsabiqəsi, "Hüquqlarımızı tanıyaq və qoruyaq!", "Milli-mənəvi dəyərlər haqqında düşüncələrim", "Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 20 illiyi"nə həsr olunmuş inşa və rəsm müsabiqələri, "Ekoerudit" məktəblilərin ekoloji breyn-rinq və "Ekolab" yarışları təşkil olunub.

* "Uşaq və gənclərin ən yaxşı yaradıcılıq işləri" respublika müsabiqəsinin Bakı şəhər mərhələsi keçirilib.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Bakı şəhər məktəblilərinin əl işlərindən ibarət yaradıcılıq sərgisi keçirilib. Sərgidə istedadlı şagirdlərin təsviri incəsənət, dekorativ tətbiqi sənət, floristika, fauna, elmi texniki və dizayn sahələrində əl işləri, kompozisiyalar nümayiş etdirilib. Bakı şəhərinin ümumi təhsil məktəbləri və məktəbdənkənar təhsil müəssisələri şagirdlərinin 1 334 əl işinin nümayiş olunduğu sərgidə ümummilli lider Heydər Əliyevin həyatını və ictimai-siyasi fəaliyyətini özündə əks etdirən əl işləri üstünlük təşkil edib.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev adına Sarayda "1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü" və "Multikulturalizm ili" münasibətilə "Dostluq dünyamız" adlı ümumşəhər mahnı və rəqs festivalı keçirilib.

* Paytaxt məktəblərində "Beynəlxalq Sülh Günü"nə həsr olunmuş tədbirlər təşkil edilib.

* BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində "Uşaq hüquqları aylığı" çərçivəsində silsilə tədbirlər təşkil edilib.

* Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri və ictimai xadimlərin yubileylərinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

* Bakı məktəblərində sağlam həyat tərzini təbliğ edən profilaktik tədbirlər keçirilib.

* 2016-cı ildə Bakı məktəblilərinin iştirakı ilə müxtəlif ekoloji aksiyalar keçirilib:

* IDEA İctimai Birliyinin təşəbbüsü, Təhsil Nazirliyi və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilati dəstəyi ilə kağız tullantıların toplanmasına həsr olunmuş "Hər kağızı bir yarpağa dəyişək" layihəsi çərçivəsində "Yaşıl dağ" aksiyası təşkil edilib.

* Hazırda Bakı Şəhəri üzrə Təhsil İdarəsi, "ASAN xidmət" və "Azərsun Holdinq"in birgə təşkilatçılığı ilə keçirilən ekoloji maarifləndirici layihə davam edir.





# Təhsil Şurasının beynəlxalq layihəsi böyük maraq doğurur

**Məlum olduğu kimi, Azərbaycan Təhsil Şurası 2015-ci ilin noyabrında Gürcüstanın Kabuleti şəhərində bu şəhərin Təhsil Departamenti və bələdiyyə idarəsi ilə birlikdə "Beynəlxalq təcrübə mübadiləsi təlim keyfiyyətini yüksəldən vasitə kimi" mövzusunda beynəlxalq elmi-təcrübi konfrans keçirdi. Məhz həmin konfransla Təhsil Şurası Azərbaycan müəllimlərinin xarici həmkarlarının dərslərində iştirak etməklə təcrübə mübadiləsi aparmalarına, qabaqcıl iş təcrübəsini öyrənmələrinə, bununla yanaşı öz təcrübələrini bölüşmələrinə şərait yaratdı. Bunun ardınca Təhsil Şurası Ukraynanın Lvov şəhərində Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsi ilə birlikdə analoji konfransı keçirməklə müəllimlərin də təcrübə mübadiləsi aparmasına təkrar şərait yaratdı.**



Bu günlərdə Ukraynanın Lvov Vilayətindən elm və təhsil işçilərinin Bakıda keçirilən "Beynəlxalq təcrübə mübadiləsi təlim keyfiyyətini yüksəldən vasitə kimi" mövzusunda üçüncü beynəlxalq elmi-təcrübi konfransa qoşulmaları ukraynalı həmkarlarımızın Təhsil Şurasının təşəbbüsü ilə reallaşan beynəlxalq təcrübə mübadiləsi layihəsinə önəm vermələrinin bariz nümunəsidir.

## lll Beynəlxalq konfransın məqsədi nə idi?

Qeyd edim ki, hələ 2013-cü ildə Azərbaycan Təhsil Şurasının ümumi hesabat yığıncağından sonra Şurada "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına Dəstək Proqramı" hazırlandı. Təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin yaradılması, müəllimlərin beynəlxalq təcrübə mübadiləsinə qoşulması, bütün bunlara rəğmən Azərbaycan təhsilinin müasir inkişaf tendensiyalarının təbliğ olunması proqramın əsas müddəalarını təşkil etməkdədir. Təsadüfi deyildir ki, istər Gürcüstanda, istərsə də Ukraynada düzənlənən elmi-təcrübi konfranslarda iştirak edən müəllimlərin məruzələrinin əsasını Azərbaycan təhsilində həyata keçirilən yeniliklərin müasir dərsdə praktik tətbiqi və bütün bunların nəticələri üzərində qurulmuşdu. Konfransda Lvov təhsil işçilərində təhsil işçiləri Azərbaycan təhsilinin müasir səviyyəsi haqqında tam təsəvvür formalaşırdı.

# *Beynəlxalq elmi təcrübə konfransı*



Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayevin Lvov telekanalları ilə verdiyi müsahibələr həm konfransın məqsədlərinin açılması, həm də təhsilimizdəki yeniliklərin ötürülməsi baxımından önəmli idi.

13-14 yanvar 2017-ci il tarixində Bakıda keçirilən üçüncü beynəlxalq elmi-təcrübi konfransa Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsinin direktoru, dosent Lyubomira Mandziy, İvan Franko adına Lvov Milli Universitetinin prorektoru, professor Mariya Zubritska, Lvov vilayət Turku rayon Dövlət Departamenti Təhsil idarəsinin müdiri Natalya Hoşvitsa, Mostiska rayon Təhsil idarəsinin müdiri Valentina Çerneha, Lvov Vilayət Dövlət Departamentinin Təhsil Portalının rəhbəri Olqa Parçevska, Ryasne-ruska bələdiyyəsinin katibi Xatsko Svyatoslav, Ryasne-ruska orta məktəbinin direktoru İqor Xorujiy, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu Nəzarət Təftiş Komissiyasının sədri Adgözəl Səfərov, jurnalist, layihənin Ukrayna üzrə koordinatoru Mirfəttah Rəsulov qatılmışdılar.

Konfransın proqramına uyğun olaraq qonaqların Azərbaycan təhsili ilə tanışlığı müəyyən istiqamətlər üzrə aparıldı.

İlk gün dosent Lyubomira Mandziy, professor Mariya Zubritska və jurnalist Mirfəttah Rəsulovun təmsil olunduğu qrup Azərbaycan Texniki Universitetinin rektor əvəzi, iqtisad elmləri namizədi, dosent Xalıq Yahudov, İnşaat və Memarlıq Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova, Bakı Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Aydın Kazımzadə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, eləcə də idarənin digər məsul şəxsləri ilə görüşdülər. Görüşlərdə Azərbaycanın ali və orta təhsil sahəsində aparılan islahatlardan, müəllimlərin elmi-metodiki hazırlıq səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazanın yeniləndirilməsi istiqamətində görülən işlərdən bəhs olundu.

Görüşlərdə Azərbaycanın orta ümumtəhsil məktəblərində həyata keçirilmiş müsabiqələrdən də geniş söhbət açıldı. Qeyd olundu ki, ölkə başçısı cənab İlham Əliyevin sərəncamları ilə reallaşmış müsabiqələrdə ölkənin qabaqcıl müəllimləri iştirak etmiş, mükafatlandırılımışlar. Azərbaycanın orta təhsilində tətbiq olunan kurikulum təlim modeli ukraynalı qonaqların böyük marağına səbəb oldu. Onlar bu model əsasında qurulan dərslərin gedişini izləmək, ümumilikdə bu modelin üstünlükləri haqqında ətraflı məlumat əldə etmək istədiklərini dilə gətiriblər. Qonaqlara məlumat verilib ki, Azərbaycan təhsilində bütün yenilikləri özündə əks etdirən qəzet və jurnallar dərc olunaraq müəllimlərin istifadəsinə verilir.

Lvov Vilayəti Mostiska şəhər Dövlət İdarəsi Təhsil Şöbəsinin müdiri Valentina Çerneha, Turku şəhər Dövlət İdarəsi Təhsil şöbəsinin müdiri Natalya Hoşvitsa, Ukrayna Azərbaycanlıları Diasporunun Nəzarət Təftiş Komissiyasının sədri Adgözəl Səfərov və Bakı şəhəri Sabunçu rayonu 271 nömrəli tam orta məktəbin direktor müavini Ofelya Arazovadan ibarət qrup Bakının Binəqədi rayonundakı 144 nömrəli tam orta məktəbdə oldu. Duz-çöräklə qarşılanan qonaqlar öncə məktəbin foyesində Azərbaycan – Ukrayna dostluq əlaqələrini, məktəbin nailiyyətlərini, Azərbaycan dövlətinin təhsilimizin inkişafı istiqamətində gördüyü işləri əks etdirən fotostendlərlə, eləcə də istedadlı şagirdlərin əl işləri ilə tanış oldular. Məktəbin direktoru Həcər Mahmudova rəhbərlik etdiyi təhsil ocağının əldə etdiyi uğurlardan bəhs etdi. Ümidvar olduğunu bildirdi ki, Lvov məktəbləri ilə əməkdaşlıq məktəbin gələcək fəaliyyəti üçün yeni səhifələr açacaq, müəllimlərin təcrübə mübadiləsi layihəsində iştirakı onların elmi-metodiki hazırlıqlarının yüksəlməsinə kömək edəcək. Məktəbdə qonaqlar şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiyaya tamaşa etdilər. Şagirdlərin ifa etdikləri

Azərbaycan milli musiqilərindən ibarət parçalar, Azərbaycanın mədəniyyətini, incəsənətini, elmi nailiyyətlərini əks etdirən video-süjetlər qonaqlarda vətənimiz haqqında təsəvvürləri genişləndirməyə yardımçı oldu. Şagirdlərin Ukrayna dilində söylədikləri şeirlər, ifa etdikləri Ukrayna milli rəqsləri xalqımızın digər xalqların milli-mənəvi dəyərlərinə ehtiramını ifadə etdi. Bu, qonaqların böyük marağına səbəb oldu.

Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsinin Təhsil Portalının rəhbəri Olqa Parçevskadan, Ryasne – ruska kənd orta məktəbinin direktoru İqor Xorujiy və 286 nömrəli tam orta məktəbin direktoru Samir Mehdizadədən ibarət qrup Bakının Səbail rayonundakı 162 nömrəli tam orta məktəbin fəaliyyəti ilə tanış oldu.

Qonaqlar məktəblə tanışlıqdan sonra rus dili müəllimi Aynurə Hacıyevanın "Taras Şevçenko" mövzusunda dərsini dinlədilər. Qeyd edim ki, 162 nömrəli tam orta məktəb hələ 2016-cı ilin mart ayında Lvovda keçirilən elmi-təcrübi konfransda Lvovun 82 nömrəli orta məktəbi ilə əməkdaşlıq müqaviləsi bağlayıb. Məktəbdə həmin konfransı əks etdirən guşə qonaqların marağına səbəb oldu.

Aynurə Hacıyevanın nümayiş etdirdiyi "açıq dərs", əs-



lində Azərbaycan təhsilinin elmi-metodiki-pedaqoji baxımdan inkişafını səciyyələndirən bir model idi. Bununla yanaşı, bu dərs Azərbaycan pedaqoji ictimaiyyətinin, müəlliminin, şagirdinin Ukrayna xalqına olan dost münasibətini əks etdirən bir örnək idi. Məktəbin akt zalında ukraynalı qonaqlar üçün nümayiş olunan konsert proqramını da bu baxımdan səciyyələndirmək mümkündür. Məktəbin direktoru Sevinc Abbasovanın da dediyi kimi, Ukrayna xalqının milli rəqsləri, Ukrayna dilində ifa olunan şeirlər qonaqları nə qədər təsirləndirmişdisə, məktəbin dil-ədəbiyyat müəllimi Səbinə Səmədovanın ifasında "Sarı gəlin" mahnısı, şagirdlərin ifasında Azərbaycanın milli rəqsləri onları bir o qədər heyran etmişdi.

Ukraynalı qonaqlardan ibarət nümayəndə heyəti yanvarın 13-də günün ikinci yarısı Bakının Səbail rayonundakı 6 nömrəli tam orta məktəbdə də oldular. Qonaqları böyük hərarətlə qarşılayan məktəbin direktoru Gülşən Orucova təhsil ocağının fəaliyyəti haqqında ətraflı məlumat verdi. Qeyd etdi ki, 6 nömrəli tam orta məktəb Bakının ən böyük və nüfuzlu təhsil ocaqlarından biri olaraq, zəngin ənənələrə malikdir. Bu gün bu təhsil ocağı özünün görkəmli məzunları ilə fəxr edir.

Gülşən Orucova vurğuladı ki, bu gün 6 nömrəli tam orta məktəbdə tətbiq olunan yeniliklər məktəbin müasir tələblər səviyyəsində inkişafına, yeni-yeni nailiyyətlərin qazanılmasına yol açır.

Konfransa dəvət olunmuş Lvov vilayəti Ryasne – ruska kənd bələdiyyəsinin katibi Xatsko Svyatoslav Xırdalan bələdiyyəsi ilə tanış oldu, təcrübə mübadiləsi apardı.

# *Beynəlxalq elmi təcrübə konfransı*





Qonaqlara işğal olunmuş torpaqlarımız haqqında ətraflı məlumat verildi. Yanvarın 14-də Bakıda olan ukraynalı qonaqlar, Təhsil Şurasının sədri professor Əjdər Ağayev və Şuranın üzvlərindən bir qrupu Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq – alim Zərifə xanım Əliyevanın, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanını, Ukrayna xalqının böyük şairi Taras Şevçenkonun abidəsini ziyarət etdilər. Qonaqlara torpaqlarımızın ermənilər tərəfindən işğal olunması, sovet ordusunun 20 yanvar 1990-cı ildə Bakıda törətdiyi vəhşiliklər, daşnak ermənilərin Qarabağda törətdikləri soyqırımlar barədə ətraflı məlumat verildi.

Həmin gün Bakının Səbail rayonundakı 132-134 nömrəli Təhsil Kompleksində öz işinə başlayan "Beynəlxalq təcrübə mübadiləsi təlim keyfiyyətini yüksəldən vasitə kimi" mövzusunda elmi-təcrübi konfransda Ukraynadan olan qonaqlar, respublikamızın hər yerindən qabaqcıl müəllimlər, təhsil işçiləri, eləcə də Azərbaycan Respublikası Təhsil Nazirliyindən, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsindən, ali və orta ixtisas təhsili müəssisələrindən nümayəndələr iştirak edirdi. Konfrans Azərbaycanın və Ukraynanın Dövlət himnlərinin səsləndirilməsi ilə öz işinə başladı. Konfransı giriş sözü ilə açan Azərbaycan Təhsil Şurasının sədri professor Əjdər Ağayev Təhsil Şurasının keçirdiyi beynəlxalq elmi-təcrübi konfransların dinamikasına nəzər saldı. Söylədi ki, Gürcüstanda və Azərbaycanda keçirilmiş təcrübə mübadilələrinə azərbaycanlı müəllimlərlə yanaşı, gürcüstanlı, ukraynalı müəllimlər də böyük maraq göstərirlər. Məhz bu marağın nəticəsidir ki, bu gün Ukraynanın Lvov Vilayətinin elm və təhsil sahəsinin ali nümayəndələri azərbaycana təşrif gətiriblər. Əjdər Ağayev vurğuladı ki, müəllimlərin, məktəblərin beynəlxalq təcrübə mübadiləsi layihəsinə qoşulması onların dünya təhsilində gedən prosesləri izləməsinə, öz işlərini müasir dövrün tələbləri səviyyəsində qurmalarına, eləcə də öz təcrübələrini dünya meridianlarına çıxarmasına yardımçıdır. Azərbaycan təhsilində beynəlxalq təcrübə mübadiləsi kimi əhəmiyyətli bir ənənənin yenidən gündəmə gəlməsi çox mühüm bir hadisədir. O dedi ki, Azərbaycan təhsil ictimaiyyətinin Təhsil Şurasının bu layihəsinə yüksək səviyyədə önəm verməsi təqdirəlayiq haldır.





Lvov Vilayət Dövlət Departamenti Elm və Təhsil İdarəsinin direktoru Lyubomira Mandziy Ukraynada orta təhsil sahəsində həyata keçirilən islahatlardan bəhs etdi. Qeyd etdi ki, Ukrayna təhsilində yeniliklərin tətbiq olunmasına, dünya təcrübəsinin mütərəqqi ənənələrinin öyrənilməsinə böyük ehtiyac var. Bildirdi ki, Azərbaycanın orta ümumtəhsil, ali məktəbləri ilə tanışlıq deməyə əsas verir ki, Azərbaycan təhsilinin öyrənilməli işləri çoxdur. O, Lvov məktəblərinin beynəlxalq əlaqələrindən bəhs edərək sevindirici hal kimi vurğuladı ki, bu əlaqələrdə Azərbaycan məktəbləri də önəmli yer tutmağa başlayır. Əlbəttə ki, Azərbaycan məktəbləri ilə əlaqələrin qurulmasının təməlində Azərbaycan Təhsil Şurası və onun "Beynəlxalq təcrübə mübadiləsi" layihəsi dayanır.

İvan Franko adına Lvov Milli Universitetinin prorektoru, professor Mariya Zubritska universitetin fəaliyyət istiqamətlərindən, kadr hazırlığının mövcud vəziyyətindən, pedaqoji kadr potensialından, beynəlxalq əlaqələrindən, yeni texnologiyaların tətbiqi imkanlarından bəhs etdi. Azərbaycanın ali təhsil sferasında öyrənilməli çox məqamların olduğunu diqqətə çatdıran Mariya Zubritska əməkdaşlıqdan məmnun olduqlarını, azərbaycanlıların qonaqpərvərliklərinə heyran qaldıqlarını dilə gətirdi.

Konfransda çıxış edən Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Xumar Qazıyeva fəaliyyət göstərdiyi təhsil ocağının iş prinsiplərindən, təhsil ocağının müasir dövrdə Azərbaycan təhsilində mövqeyindən, məzunların ali məktəblərə qəbul səviyyəsindən, müəllimlərin elmi-metodiki hazırlığından danışdı.

Abşeron rayonu Saray qəsəbə 3 nömrəli tam orta məktəbin müəllimi Təranə İsmayılova "Şagirdlərin mənəvi tərbiyəsində tədris filmlərinin əhəmiyyəti" mövzusunda çıxışında bu sahədə öz təcrübəsindən bəhs etdi.

Konfransda daha sonra çıxış edənlər – Bakı Dövlət Universitetinin professoru, pedaqogika üzrə elmlər doktoru Hikmət Əlizadə, Bakı Musiqi Kollecinin direktoru, professor Nazim Kazımov, 132-134 nömrəli Təhsil Kompleksinin direktoru Sara Xanlarova, Ukrayna Azərbaycanlıları Diasporundan Adgözəl Səfərov, veteran təhsil işçisi, Respublikanın əməkdar müəllimi Həqiqə Məmmədova Azərbaycan təhsilinin müasir inkişaf dinamikasından, zəngin təlim-tərbiyə ənənələrindən, pedaqoji-psixoloji elm sahəsində aparılan tədqiqatlardan, musiqiçi kadrların hazırlanması səviyyəsindən, müəllimin cəmiyyətdəki mövqeyindən, Azərbaycanlı gənclərin xaricdə təhsilinin mövcud vəziyyətindən və s. bəhs etdilər.

Konfransın gedişində Bakının Səbail rayonundakı 162 nömrəli tam orta məktəblə Lvov vilayəti Mostiska şəhər təhsil şöbəsi, 239 nömrəli tam orta məktəb və Binəqədi rayonu 144 nömrəli tam orta məktəblə Turku rayon Təhsil Şöbəsi, Binəqədi rayon 179 nömrəli tam orta məktəblə Ryasne-ruska kənd orta məktəbləri arasında əməkdaşlıq müqaviləsi imzalandı. Nəzərdə tutuldu ki, gələcəkdə beynəlxalq təcrübə mübadiləsi layihəsinə digər ölkələrin də təhsil ocaqları, müəllimləri cəlb edilsin.

Konfransdan sonra Bakı Musiqi Kollecinin tələbələrinin, eləcə də məktəblilərin ifasında milli və multikultural dəyərləri özündə əks etdirən maraqla qarşılanan konsert nümayiş etdirildi. İştirakçılara sertifikatlar, qonaqlara isə hədiyyələr təqdim olundu. Digər ölkələrin də beynəlxalq təcrübə mübadiləsi layihəsinə qoşulması istiqamətində təşkilati işlərin aparılması nəzərdə tutuldu.

**Böyükağa MİKAYILLI,**
**"Təhsil və zaman"**
**qəzetinin redaktoru**



# EŞİTMƏ PROBLEMLİ MƏKTƏBLİLƏRİN İDRAK FƏALİYYƏTİNİN İNKİŞAFINDA DİDAKTİK OYUNLARIN ROLU

**Eşitmə qüsurlu kiçikyaşlı məktəblinin hərtərəfli yetişməsində onun əsas fəaliyyəti olan oyunun əhəmiyyəti vardır. Oyun uşağın şəxsiyyətinin formalaşması, marağının yönəlməsi, həyatı öyrənməsi üçün geniş vasitədir. Yeniliklərlə zəngin olan həyat uşağı maraqlandırır, onu cəlb edir.**



**Dilarə DOSTUZADƏ,**
***ARTİ-nin İnklüziv təhsil şöbəsinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru***

Eşitmə qüsurlu uşaq həyatı yalnız müşahidəçi kimi gözdən keçirmir, o, həyatda fəal iştirak etməyə çalışır, bu imkanı isə ancaq oyunda tapır.

Oyunda uşağın xarakteri tərbiyə edilir, onun tələbi, arzusu və istəyi özünü göstərir. Ona görə də uşaq oyuna ehtiyac hiss edir və ona həvəslə aludə olur.

Oyunun uşağın sağlamlığı və fiziki inkişafında böyük rolu vardır. Uşaq oynayarkən müxtəlif hərəkətlər edir, bu isə onun orqanizminin fəaliyyətini artırır, bununla ümumi həyat fəaliyyəti yüksələrək uşağa böyük təsir edir.

Məktəb təcrübəsində oyun eşitmə qüsurlu uşağın həyatında əsas fəaliyyət olaraq tərbiyə-təlim sistemində mühüm yer tutur. Uşaq oynayarkən fikirləşir, düşünür, yoldaşları, müəllim-tərbiyəçilərlə məsləhətləşir, bu zaman isə nitq onun üçün zəruri əlaqə vasitəsi olur.

Nitqin səs mədəniyyətinin tərbiyəsi zamanı müxtəlif frontal iş formalarından istifadə olunur. Məsələn, səhnələşdirilmiş oyunlardan, hərəkətli oyunlardan, didaktik və tələffüzlə əlaqədar məzəli oyunlardan səs təqlidi ilə olan nağıllardan, bayramlardan və s. növbə ilə istifadə edilir.

Uşağın necə danışmasından asılı olmayaraq həmişə o, düzgün və qüsursuz nitq eşitməlidir. Oyun zamanı yüksək tonlu səs-küyün yaranmasına imkan verməmək, uşaqların bir-birilə sakit danışmasına çalışmaq lazımdır.

Səs və sözləri düzgün tələffüz etməklə uşaq, nitq orqanlarının, dodaqların, dilin, səs tellərinin, çənənin hərəkətinin bir-birilə uzlaşmasına tam yiyələnməli, özünün tələffüzünü tədricən tənzimləməyi öyrənməlidir. Ayrı-ayrı səsləri, səs birləşmələrini (ay, au, eu, oy və s.) tələffüz etməyə alışdırması, uşağın nitq orqanlarının bəsit gimnastikasıdır. Nitq orqanlarının gimnastikası, uşağa danışıq orqanlarının hərəkətlərini uyğunlaşdırmağa tez yiyələn-

məkdə kömək edir. Bu hərəkətlər müntəzəm, dəqiq olarsa, səs və sözlərin tələffüzü də bir o qədər təmiz və aydın olar.

Nitq üzvlərini hərəkətə gətirməklə çıxarılan səslərə aid çalışmalar çox vaxt oyunla əlaqələndirilir. Eyni səs birləşmələrini bir neçə dəfə sadəcə təkrar etmək uşağı yorur. Məsələn, quşların, cücülərin, heyvanların, əşyaların səslərini oyunla əlaqələndirəndə uşaq buna maraq göstərir və deyilən səsləri həvəslə təkrar edir. Bu nədir? «Əks səda», Bu hansı heyvandır? və s. kimi cikkildəyir, cik – cik – cik; qarıldayır, qar – qar – qar – qar; banlayır, quqqulu – qu; qoqqıldayır, qa – qa – qa; heyvan kimi mələyir, məəə; hürür, ham – ham –ham; miyoldayır, myo – myo – myo və s. Bu cür oyunları müəllim təşkil edərkən əvvəlcə uşaqlara əşyalar haqqında qısa izahat verməli və onların necə səslənməsini nümayiş etdirməlidir. Uşaqlar müəllimin göstərdiyi kimi oyunun qaydasına uyğun olaraq bu səsləri təqlid etməlidirlər. Mətni olan hərəkətli oyunlardan nitq üzvlərini hərəkətə gətirməklə çıxarılan səslərə aid çalışmaların aparılması məqsədilə istifadə etmək olar. «Qatar», «Qazlar» mətnli oyunu buna misal göstərmək olar.

## Qatar oyunu

Qatar stansiyadan yola düşür. O, birdən fit verir (u – u - u), sonra parovoz par buraxır, (fış – fış), ondan sonra təkərlərin tıqqıltısı eşidilir (tak – tak), qatar uzaqlaşdıqca səslər zeifləyir və nəhayət kəsilir. Uşaqlar müəllimin göstərdiyi yerə çatır və geriyə qayıdırlar. Onlar səsləri əvvəlcə zəif şəkildə çıxarır və qatar stansiyaya yaxınlaşdıqca səslər qüvvətlənir. Qatar stansiyaya çatıb bərkdən fit verir və yenə par buraxaraq fısıldayıb dayanır.

Şagirdlər sıra ilə bir-birindən tutub yeriyir və qatarın fitini (du – du – du), təkərlərinin səsini (ta – ta, ta – ta, ta - ta), buxarın fışıltısını (şiy – şiy və ya fış – fış – fış) təqlid edirlər.

Burada müəllim – tərbiyəçi loqopedik xarakterli vəzifələrin həyata keçirilməsinə də fikir verməlidir.

1) dilin çevikliyini inkişaf etdirmək;

2) dodaqların çevikliyini təmin etmək;

3) aşağı çənəni müəyyən vəziyyətdə saxlamaq bacarığını inkişaf etdirmək.

Təcrübə göstərir ki, I sinfə gələn eşitmə qüsurlu uşaqların böyük bir qismi bəzi səsləri düzgün tələffüz edə bilmir və yaxud tələffüz edərkən çətinlik çəkirlər. Bu isə nitq orqanının qüsurlu olması, danışıq üzvlərinin lazımınca hərəkət etməməsi, fonematik eşitmənin zəifliyi, qulağın xəstələnməsi, uşağın nöqsanlı nitq mühitində yaşaması ilə bağlı olur.

Kiçikyaşlı eşitmə qüsurlu məktəblilərin nitqini inkişaf etdirmək məqsədilə dərslərdə didaktik oyunlardan geniş istifadə olunur. Bu oyunlar əşyaların adlarını, yaxud keyfiyyətlərini öyrətmək əsası üzərində qurulmuşdur.

Belə oyunlar uşağın nitqini qrammatik cəhətdən formalaşdırır və lüğət ehtiyatını zənginləşdirir. Eşitmə qüsurlu kiçikyaşlı məktəblilərin yaradıcı-rollu oyunları öz süjet və səviyyəsinə görə sadədir.

Yaradıcı-rollu oyun prosesində eşitmə qüsurlu uşaqlar bir-biri ilə ünsiyyətdə olur, danışır, yeni-yeni sözlər eşidir və mənasını öyrənirlər.

Qeyd etmək lazımdır ki, bir çox hallarda kiçikyaşlı məktəbli nə ilə oynadığını,

ondan necə istifadə etdiyini çox tezliklə unudur. Bununla əlaqədar olaraq müəllim-tərbiyəçi uşaqların oyununa rəhbərlik etməli, onlara oyunda tələb olunan qaydaları tez-tez xatırlatmalıdırlar. Oyun bir növ eşitmə qüsurlu uşağın həyat məktəbi hesab olunur. M.Qorki bunu nəzərə alaraq göstərir ki, oyun uşağın yaşadığı və gələcəkdə dəyişdirməli olduğu dünyanı dərketmə yoludur. Uşaq bu fəaliyyət növündə həm fiziki, həm psixi baxımdan çox böyük sürətlə inkişaf edir.

Oyun prosesində eşitmə qüsurlu uşaq üzərinə götürdüyü müəyyən rolu ifa etmək üçün ətrafdakılarla ünsiyyətə girməli, oyunun qaydalarına müvafiq olaraq bir sıra tələbləri yerinə yetirməli olur. Məsələn, mağaza oyununda alıcı rolunda çıxış edən uşaq bilir ki, aldığı hər hansı bir şeyin pulunu vermədən mağazadan uzaqlaşmaq olmaz, yaxud həkim rolunu ifa edən uşaq dərk edir ki, «həkim əlini yumadan xəstəni qətiyyən müayinə etməməlidir və ya iynəni vurmazdan əvvəl onu mütləq qaynatmaq» lazımdır. Belə rollu oyunlarda uşaqlar onları əhatə edən ətraf aləmin reallıqlarını əks etdirir, ailə həyatından bəhs edən «səhnələr» oynayırlar.

Rollu oyunların süjeti ilə yanaşı məzmununu da fərqləndirmək lazım gəlir. Müxtəlif yaş qruplarına aid eşitmə qüsurlu uşaqlar eyni sücetli oyunu tamam başqa məzmunda oynayırlar.

Rollu oyunların süjet və məzmununun inkişafı göstərir ki, eşitməsi qüsurlu uşaqlar onu əhatə edən adamların həyat fəaliyyətinə get-gedə dərindən nüfuz edirlər. Oyun fəaliyyətində uşaqların müəyyən ünsiyyət formaları meydana çıxır. Bu uşaqlar öz yoldaşları ilə ünsiyyətə girmək üçün hərəkətlərini uzlaşdırmaq bacarığına, təşəbbüskarlıq və ünsiyyətcillik kimi keyfiyyətlərə malik olmalıdır. Uşaq oynamağa başladığı ilk anlardan ünsiyyətin onda ilkin ünsürləri təzahür edir, əvvəl öz oyuncaqları ilə ünsiyyətə girir, sonralar yaşıdları ilə daha fəal ünsiyyətə qoşulur, lakin bu qarşılıqlı hərəkətlər o qədər də davamlı olmur.

Ümumiyyətlə, birgə oyun fəaliyyəti prosesində uşaqlar öz hərəkətlərini başqaları ilə uzlaşdırmaq, qarşılıqlı kömək və qarşılıqlı anlama, eyni zamanda ünsiyyətə girmək bacarığına yiyələnirlər. Göründüyü kimi oyun uşağın psixi keyfiyyətləri və fərdi xüsusiyyətlərinin intensiv inkişafını təmin edir, həm də psixi proseslərin qarşıdakı məqsədə müvafiq şəkildə formalaşmasına şərait yaradır.

Rollu oyunlar uşaq təxəyyülünün inkişafına da böyük təsir göstərir. Yuxarı siniflərdə uşaqlar oyun prosesində artıq «əvəzedici» əşyalara ehtiyac duymur, onlarsız çox asanlıqla keçinir, istənilən cismi və ya şəraiti çətinlik çəkmədən öz təxəyyüllərində əyani canlandıra bilirlər. Oyun prosesində kiçikyaşlı məktəblilərdə dözümlülük, işi axıra kimi davam etdirmək, cəldlik kimi iradi keyfiyyətlərin inkişafına şərait yaranır.

Didaktik oyunlar eşitmə qüsurlu kiçikyaşlı məktəbli uşaqların təlim-tərbiyə işində böyük yer tutur. Belə oyunlar vasitəsilə uşaqlara bilik və lazımi vərdişlər vermək mümkündür. Didaktik oyun əşyanın xüsusiyyəti, kəmiyyət və keyfiyyəti haqqında uşaqlarda olan təsəvvürü dəqiqləşdirir, yeni təsəvvür yaradır və dünyagörüşünü genişləndirir.

Oyunların köməyi ilə





uşaqlarda ətraf mühit haqqında təsəvvür genişlənir və diqqət, hafizə, müşahidəçilik qabiliyyəti inkişaf edir. Oyun zamanı bu uşaqlarda məsuliyyət, yoldaşlıq, dostluq hissləri təkmilləşir.

Uşaq oyunları öz məzmununa və mürəkkəbliyinə görə müxtəlif olur. Uşaqların ən çox istifadə etdikləri oyunlar «quraşdırıcı, didaktik, hərəkətli və stolüstü» oyunlardır.

1. Quraşdırıcı oyunlar - Quraşdırıcı oyunlar uşaqlarda təxəyyülün inkişafına geniş imkan yaradır. Şagirdlər dəmir və taxta parçalarından müxtəlif modellər-maşın, qaldırıcı kran, təyyarə, ev, bəzəkli qutular düzəldirlər.

Belə oyunlar bir çox şagirdlərdə texniki təfəkkürün inkişafına səbəb olur, onlarda quraşdırma qabiliyyəti və nitq inkişafı üçün imkan yaradır. Məsələn, maşın nədən düzəlir? Maşının hansı hissələri var? Maşın nə ilə işləyir? və s.

2. Yaradıcı oyunlar - Yaradıcı oyunlar uşaqların ən çox sevdikləri oyunlardandır. Uşaqlar həyatdan aldıqları təəssüratları bu oyunda əks etdirir və cümlə qurub öz fikirlərini bir-birinə çatdırırlar. Yaradıcı oyunlar çox vaxt rollu olur. Burada hər kəs özünə rol seçir, müşahidə etdikləri obyektlərə uyğun olaraq fikirlər söyləyirlər. Uşaqlar bu sözlərə daktil vasitəsilə şifahi və yazılı surətdə yiyələnirlər. Beləliklə, şagirdlər öyrəndikləri yeni sözləri cümlə içərisində işlətməyi bacarırlar.

3. Didaktik oyunlar - Didaktik oyunlar vasitəsilə uşaqlara müəyyən bilik, bacarıq və vərdişlər vermək mümkündür.

Didaktik oyunlar zamanı uşaqların ayrı-ayrı cisimlər, onların xassələri, quruluşu haqqında görüş dairəsi genişlənir və nitqləri inkişaf edir. (Evcikdə kim var? Qəribə torbacıq. Kim çox tapar? və s.).

Eşitmə qüsurlu uşaq öz danışıq orqanlarından istifadə etməyi bacarmır, o əvvəlcə sözü eşitməyi, sonra isə onu tələffüz etməyi öyrənir. Əvvəlcə sözün «əzələ» duyğusu qeyri – dəqiq olsa da, səs obrazı ilə eyni vaxtda yaranır.

Dil-dodaq əzələlərinin inkişafında yamsılama üzrə rəngarəng oyunlardan istifadə etmək faydalıdır. Belə oyunlarda müəllim səsin düzgün tələffüzünü göstərir, uşaqlar onu təqlid etməklə nitq orqanlarını məşq etdirirlər. Səs təqlidi üzrə iş aparırkən heyvanın səsini olduğu kimi çıxarmağa ehtiyac yoxdur. Belə oyun zamanı nitq orqanının hərəkətlərinin çətinlik dərəcəsinin tədricən artırılması məsləhət görülür: maşın, bi – bi – bi; saat çıq – çıq – çıq; inək moo – moo; quzu məəə; qaz qa – qa – qa; it ham – ham və s.

Oyuna başlamazdan əvvəl heyvan, quş və s. əşyanın səsini uşaqlara tanış olub-olmaması öyrənilməlidir.

Tap görüm, bu nədir? Bu oyun I sinif şagirdlərini daha çox maraqlandırır.

Müəllim: - nə məə – məə edir?

Şagird –qoyun (quzu).

M. – nə ham–ham edir?

Ş. –it.

M. – nə qa edir?

Ş. – qaz.

Sonra müəllim torbadan bir neçə oyuncaq çıxarıb soruşur, şagirdlər onların səslərini tapmağa çalışırlar. Beləliklə, oyun davam edir.

Evcikdə kim yaşayır? Müəllim – tərbiyəçi uşaqları 3-4 qrupa ayırır. Onlar tanış heyvan və quşları təsvir edirlər. Hər qrup stullarda özü üçün evcik qurur. Onlar evciyə girib təsvir etdikləri heyvan və ya quş kimi səs çıxarırlar. Müəllim hər bir qrup üçün onların tələffüz et-



məli olduqları səsi təkrarlayır. Sonra şagirdlərdən biri növbə ilə evciklərə yaxınlaşır, «qapını» döyüb deyir:

Evcikdə kim yaşayır?

Evcikdən səs gəlir;

-Ham – ham – ham.

- Moo – moo- moo.

- Məə – məə – məə.

- Qa – qa – qa     və s.

Uşaqlar yoldaşlarının çıxardığı səsə görə evcikdə kimin yaşadığını tapır.

Şagirdlər səsləri yaxşı tələffüz etməsələr, o zaman müəllim onu təkrar etdirməlidir.

Eşitmə qüsurlu uşaqların inkişafında kəsmə şəkillər, coğrafi loto, rəngli şəkillər, kubiklər üzrə aparılan didaktik oyunlar da böyük rola malikdir. Siniflərdə və qruplarda bu cür oyunların maraqlı qurulması səmərəli nəticə verir.

4. Hərəkətli oyunlar. –Hərəkətli oyunlar uşaq orqanizminin düzgün inkişafında, müsbət keyfiyyətlərin aşılanmasında müstəsna rol oynayır və uşağın sağlamlığına kömək edir. Hərəkətli oyunlara misal olaraq «cəld uşaqlar», «qaz və qu quşları», «beş yer» və s. oyunları göstərmək olar. Hərəkətli oyunlar eşitmə qüsurlu uşaqların fiziki inkişafına böyük təsir göstərdiyi kimi, onlarda əqli və əxlaqi keyfiyyətlərin inkişafına da kömək edir.

Eşitmə qüsurlu kiçikyaşlı məktəblilər oyundan sonra bu prosesdəki müvəffəqiyyət və nöqsanları müəllim-tərbiyəçinin iştirakı ilə özləri təhlil edərək müəyyən nəticələrə gəlirlər.

5. Stolüstü oyunlar – Stolüstü oyunlar uşaqların ən çox istifadə etdikləri oyunlardandır.Bu oyunlardan ən çox yayılanı şahmat, bilyard, dama, domino, loto və s - dir. Bu oyunlar 2 nəfər arasında gedir və həmişə fikirləşməyi, şəraitin dəyişmə imkanını müəyyənləşdirə bilməyi tələb edir. Məsələn, şahmat oyunu zamanı uşağın yaradıcı təfəkkürü fəaliyyət göstərir, əqli inkişaf edir. Eşitmə qüsurlu uşaqlar üçün bu oyunların əhəmiyyəti çoxdur. Onlar bu oyunlarla yanaşı, bir sıra başqa oyunlarda da iştirak edirlər.

Oyun zamanı müəllim-tərbiyəçidən diqqət tələb olunur. Uşaq oyunlarının düzgün təşkilində müəllim-tərbiyəçinin oyuna münasibəti uşağın fərdi xüsusiyyətlərinin nəzərə alınması və ona rəhbərlik etməyin böyük əhəmiyyəti vardır.

Müəllim-tərbiyəçi uşaq oyunlarının sönük keçməsinə yol verməməlidir. Onlar öz sual və məsləhətləri ilə oyunun şən və canlı keçməsinə şərait yaratmalıdır ki, kiçikyaşlı məktəblilər oyun zamanı yeni sözlər öyrənib yoldaşları ilə ünsiyyət saxlaya bilsinlər. Oyun zamanı yaranmış şən əhvali-ruhiyyə uşağın inkişafında oyunların müsbət rolunu artırmaqla bərabər əsəb sisteminə müsbət təsir göstərir, ürəyin və tənəffüs orqanının fəaliyyətini yüksəldir, hərəkətlərin sürətli və cəld olmasına kömək edir.

Müəllim-tərbiyəçinin oyunda iştirak etməsi, eşitmə qüsurlu kiçikyaşlı məktəblilərdə onlara məhəbbət, hörmət tərbiyə edir. Müəllim-tərbiyəçi nəzərə almalıdır ki, kiçikyaşlı məktəbli uşaqların maraqları eyni deyildir, onlar çalışmalıdırlar ki, uşaqların maraqları yalnız bir oyunla məhdudlaşmasın, oyunlar maraqlı və rəngarəng olmaqla bərabər, kiçikyaşlı məktəblilərin yaşına uyğun olsun.

Oyunu seçməzdən əvvəl mütləq onun məqsədi şagirdlərin tərkibi, bacarığı, yaşı, cinsi inkişafı və hazırlığı, oyunun aparılacağı yer, həmçinin şagirdlərin marağı nəzərə alınmalıdır. Şagirdlərin marağı olan oyunlarda nitq daha tez inkişaf edir.

# Nərminənin ən böyük arzusu Azərbaycan musiqisini dünyada tanıtmaqdır

**Nərminə Zaid qızı İsmayılova bu il avqustun 25-də 17 yaşını qeyd edəcək. Nərminə Bakıda ziyalı ailəsində doğulub. Hələ 5 yaşında pianino çalmağa başlayıb. 7 yaşında isə artıq notu və çoxlu mahnı ifa etməyi öyrənib. 7 yaşında valideynləri onu Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin fortepiano şöbəsinə qoyurlar. Fortepiano müəllimi tanınmış pianoçu, dosent Kəmalə Mehmanova Nərminənin musiqi duyumundan, işgüzarlığından, zəhmətsevərliyindən razı qalır, ondan heç bir köməyini əsirgəmir.**



Nərminə hələ aşağı siniflərdə oxuyarkən respublikada keçirilən müxtəlif tədbirlərə qatılır, gənc pianoçu kimi tamaşaçıların və pərəstişkarlarının diqqətini cəlb edir. Belə ki II kursun (2009-cu il) şagirdi olan Nərminə Nazim Əliverdibəyovun şərəfinə gənc ifaçıların V Respublika müsabiqəsinə qatılır və ilk çıxışı ona uğur qazandırır. Gənc pianoçu müsabiqənin laureatı adına layiq görülür.

2013-cü il də Nərminə üçün ən uğurlu il kimi yadda qalır. Belə ki o, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə keçirilən gənc ifaçıların I Respublika müsabiqəsində I yeri özü üçün təmin edir. Bundan sonra müxtəlif musiqi kollektivləri Nərminə İsmayılovanı öz kollektivlərinə dəvət edirlər. İstedadlı gənc pianoçu 2 il – 2013-2015-ci illərdə Teymur Göyçayevin bədii rəhbəri və baş dirijoru olduğu Azərbaycan Dövlət Simfonik Orkestrində pianoçu kimi çalışmışdır.

2015-ci ildən sonra isə Nərminənin xarici ölkələrə səfərləri başlanır. Belə ki Qazaxıstanın Astana şəhərində düzənlənən «Astana piano passion» beynəlxalq müsabiqəsinə dəvət alan Nərminə oradan Vətənə diplomla qayıdır. Həmyerlimiz müsabiqədə Listin əsərini ifa edir.

Növbəti il - 2016-cı ildə Polşa Respublikasına səfər edir. Bu respublikanın Torun şəhərində keçirilən XXIV Beynəlxalq Şopen müsabiqəsində Bethovenin 7-ci sonatasını ifa edən həmyerlimiz müsabiqənin diplomunu qazanır. Yenə həmin ildə Estoniyanın Narva şəhərində keçirilən Şopenə həsr olunmuş XI Beynəlxalq müsabiqənin laureatı adına layiq görülür.

Ümumiyyətlə, 2016-cı ildə Nərminə İsmayılovanın pianoçu kimi istedadı üzə çıxır və onun əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Belə ki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə musiqi sahəsində xüsusi istedadı olan Nərminə İsmayılovanın adı Azərbaycanın gənc istedadlarının





«Qızıl kitabı»na yazılır və xüsusi aylıq təqaüdə layiq görülür.

Bu günlərdə Nərminə İsmayılova ilə görüşüb, ondan eksklüziv müsahibə aldım.

**- Nərminə xanım, niyə başqa musiqi alətlərini deyil, məhz pianonu seçdin?**

- Mən gözümü açandan evdə pianonun səsini eşitmişəm. Nənəm də pianoçudur. Valideynlərim də musiqiçidirlər. Mən də 5 yaşından piano çalmağa başlamışam.

**- Bəs ilk musiqi müəllimin kim olub?**

- İrina müəllim olub. O, mənə hələ 5 yaşında notları öyrədib və musiqi məktəbinə hazırlayıb.

**- Repertuarında hansı Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri yer tutur?**

- Azərbaycanın klassik bəstəkarlarından Üzeyir bəyin, Qara Qarayevin, Fikrət Əmirovun, eləcə də Sərdar Fərəcovun, xarici ölkə bəstəkarlarından isə Bethovenin, Motsartın, Haydnın, Raxmaninovun, Şostakoviçin əsərləri repertuarımın əsasını təşkil edir.

**- Bəs özün necə, mahnı bəstələməyə cəhd göstərmisənmi?**

- Etiraf edim ki, bu, hələlik məndə alınmır. Sonrasına baxarıq.

**- Azərbaycanın hansı pianoçusuna pərəstiş edirsən?**

- Əlbəttə, dünyaşöhrətli pianoçumuz, Azərbaycanı sənəti ilə dünyada tanıdan Fərhad Bədəlbəyli mənim idealımdır. Bu əvəzsiz pianoçu həm də gənc pianoçuların yaxın dostu, o cümlədən də mənim himayədarımdır. O, gənc ifaçıların bütün konsertlərində iştirak etməyə vaxt tapır.

**- Gündə neçə saat piano arxasında əyləşirsən?**

- Ən azı 8 saat. Piano çalmaqdan yorulmuram. Belim ağrımasa, sutkanın yarısını pianino arxasında əyləşirəm.

**- Bəs orta təhsili başa çatdırdıqdan sonra?**

- Musiqi sahəsində xarici ölkələrin birində ali musiqi təhsili almaq, ümumilikdə peşəkar pianoçu olub, Azərbaycan musiqisini dünyada tanıtmaq arzusundayam. Hazırda Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin X sinif şagirdiyəm.

**- Bəs hazırkı uğurlarına görə kimə borclusan?**

- Mənim üzərimdə xeyli əmək sərf edən, hər çıxışımı həyəcanla izləyən əziz valideynlərimə, qayğıkeş müəllimlərimə, o cümlədən biz gənclərin istedadını üzə çıxarıb onlara atalıq qayğısı göstərən təhsil aldığım musiqi məktəbinin direktoru, xalq artisti Teymur Göyçayevə dərin minnətdarlığımı bildirirəm.

**- Nərminə xanım, biz də «Təhsil» jurnalının çoxsaylı oxucuları və yaradıcı kollektivi adından qazandığın uğurlara – adının «Qızıl kitab»a yazılması və ölkə Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülməyin münasibətilə səni ürəkdən təbrik edir, bütün istəklərinin çin olmasını arzulayırıq!**

**İdris HACIZADƏ**





# Elinə həsr edilən ziyalı ömrü

**Hər hansı insanın bir şəxsiyyət kimi qiyməti onun mənəvi-əxlaqi keyfiyyətləri, ətrafdakılara, xalqına, doğma yurda sonsuz məhəbbəti, xeyirxahlığı, əməksevərliyi və peşəsinə vurğunluğu ilə ölçülür. Onlar əməlləri, real həyata obyektiv münasibətləri, geniş dünyagörüşləri, dərin ziyalılıqları və zəngin həyat təcrübələri ilə hamıya nümunə olublar.**

Belə ziyalılardan biri də Şamaxı rayonunda sayılıb-seçilən qabaqcıl təhsil işçisi, tədqiqatçı-filoloq, ali kateqoriyalı müəllim Məmmədov Ədalət Ağagül oğludur. O, 1952-ci ilin 1 yanvarında Şamaxı rayonunun Adnalı kəndində anadan olmuşdur. Orta təhsilini C.Cəbrayılbəyli adına 5 nömrəli məktəbdə almışdır. 1969-1974-cü illərdə indiki Bakı Dövlət Universitetinin filologiya fakültəsini müvəffəqiyyətlə bitirdikdən sonra doğma kəndlərindəki məktəbdə 12 il təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır. Həmin illərdə Ədalət müəllimin qabaqcıl iş təcrübəsi öyrənilib yayılmışdır. Eyni zamanda o müntəzəm olaraq mətbuat səhifələrində bir-birindən maraqlı yazılarla çıxış etmişdir. Onun çəkdiyi əmək hədər



getməmiş, müxtəlif mükafatlara və Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Şamaxı Rayon İcra Hakimiyyətinin, Şamaxı Rayon Təhsil Şöbəsinin fəxri fərmanlarına layiq görülmüşdür. Ədalət müəllim 1986-cı ildən 2014-cü ilin yanvar ayına kimi Şamaxı Rayon Təhsil Şöbəsində məktəb inspektoru vəzifəsində çalışmışdır. 2014-cü il yanvarın 7-dən Şamaxı RTŞ Metodkabinetinin müdiridir. Bildiyimiz kimi, metodkabinet hər bir rayon təhsil şöbəsində mühüm yer tutur. Ölkəmiz müstəqillik qazandıqdan sonra yeni təhsil sisteminə keçməsi və təhsil islahatının aparılması ilə paralel olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyində metodik kabinet haqqında Əsasnamənin təsdiq edilməsi rayon (şəhər) təhsil şöbəsində Metodkabinetin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha sübuta yetirir. Onu da diqqətə çatdıraq ki, metodik kabinet bütün tədris və tərbiyə müəssisələrində metodik işlərə və metodbirləşmələrin fəaliyyətinə rəhbərliyi həyata keçirir. Metodik kabinet öz işini müvafiq təhsil şöbələrinin planına uyğun planlaşdırır və təşkil edir. Eləcə də öz fəaliyyətində təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi və humanitarlaşdırılması prinsiplərini əsas götürür. Onu da qeyd edək ki, metodkabinetlər fəaliyyət metodlarının forma və vasitələrini seçməkdə sərbəst hərəkət edirlər.

Artıq dördüncü ildir ki, Ədalət Məmmədov Şamaxı Rayon Təhsil Şöbəsində Metodkabinetə rəhbərlik edir. Bu kabinet də təlim-tərbiyə müəssisələrinin fəaliyyətinin yeni pedaqoji texnologiyalar əsasında qurulmasına istiqamət verir, metodik işləri istiqamətləndirir, onların təkmilləşdirilməsi, ixtisasın artırılması və yenidən hazırlanması işini təşkil edir. Yeni pedaqoji texnologiyaların öyrənilməsinə və tətbiqinə istiqamət kimi yanaşır, məktəb və metodbirləşmə rəhbərini peda-



qoji texnologiyaların inkişafına yönəldir, məlumatları kollektivlərə çatdırır, təşkilati-metodik tədbirləri həyata keçirir. Psixoloji xidmətin təşkili, istedadlı uşaqların aşkara çıxarılması, onlarla işin təşkilində əməli köməklik göstərir. Eyni zamanda onu da qeyd edək ki, o işlədiyi müddətdə 200-dən çox elmi-metodik, publisistik yazıları ilə geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Təhsil işçiləri və pedaqoji kollektiv Ə.Məmmədovu həm də yazıçı-publisist, tədqiqatçı kimi tanıyır. O, 1979-cu ildən Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü kimi respublika mətbuatında çıxış edir.

Ə.Məmmədov öz işinin öhdəsindən layiqincə gələn bir dəyərli təhsil işçisi kimi 60 illik yubileyi ərəfəsində Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Qabaqcıl təhsil işçisi» döş nişanına layiq görülmüşdür.

Eyni zamanda dövri mətbuatda elmi-metodiki və digər səpgili yazılarına görə o, «Qızıl qələm», «Məmməd Araz» və «El ziyalısı» media mükafatlarına layiq görülmüşdür.

Ədalət müəllim həm də respublikada qabaqcıl tədqiqatçı-filoloq kimi tanınmış bir ziyalıdır. Onun «Qabilin sənət dünyası» (Bakı, «Şur» nəşriyyatı, 2007) adlı ilk monoqrafiya kitabı görkəmli və maraqlı şəxsiyyət olan xalq şairinin həyat və yaradıcılıq yoluna həsr olunmuşdur. Bundan sonra onun 2009-cu ildə nəşr edilən «Şamaxı-təhsil tarixi» (Bakı, "Zərdabi" LTD MMC) monoqrafiyası müəllifə böyük şöhrət qazandırmışdır.

Daha sonra onun ardıcıl olaraq bir neçə kitabı işıq üzü görmüşdür. Ə.Ağagül oğlunun Şamaxının görkəmli pedaqoqları Əbdürrəhman Osmanov, Suliddin Mirzəliyev və Şamaxı Rayon Təhsil Şöbəsinin sabiq müdiri Şahvələd Hüseynov barədə də maraqlı kitabları geniş oxucu kütləsinə çatdırıldı.

Ədalət Məmmədovun 2014-cü ildə pedaqoji sahə ilə bağlı daha 3 kitabı da böyük zəhmət sayəsində ərsəyə gəldi. Bunlar «Qabusnamə – böyük tərbiyə məktəbi», «İstedadın ünvanı», «Yeni zirvələrə doğru» kitabları idi.

2015-ci ildə isə çapdan çıxmış «Qabil - Azərbaycan əsgəri», «Ədəbi düşüncələr» və 704 səhifəlik «Şamaxı tarixində 100 qızıl imza» adlı kitabları da Ədalət müəllimin vətən sevgisindən, əsl ziyalılıq aləmindən xəbər verən əsərlərdir. Onu da qeyd edək ki, Ədalət Məmmədov 25 ildən çoxdur ki, Şamaxı Rayon Təhsil Şurasının fəal üzvü, onun katibidir. Bu şuranın 22 nəfər üzvü və çox böyük səlahiyyətləri var. Şura «Dayaq məntəqələri»nin fəaliyyəti, qabaqcıl təcrübənin öyrənilib yayılması, təhsil strategiyası ilə bağlı bütün istiqamətlərin müzakirə olunması və optimal qərarların qəbul edilməsi sahəsində RTŞ-nin ən etibarlı bazalarından biri, bəlkə də birincisidir. Şura həm də Şamaxı Rayon Təhsil Şöbəsi kimi çox böyük bir fəaliyyət sahəsində aşkarlığın qarantıdır.

Göründüyü kimi, Ə.Məmmədov çalışdığı Şamaxı Rayon Təhsil Şurasında da özünü yüksək səviyyədə doğruldaraq rəhbərliyin və kollektivin hörmətini qazanmışdır. O, həm də Azərbaycan müəllimlərinin VII qurultayının nümayəndəsi olmuşdur.

Yorulmaz tədqiqatçı-filoloq olan Ə.Məmmədov 14 kitabın müəllifidir. Bu kitablar Azərbaycan ədəbiyyatı, təhsil tarixi, görkəmli ziyalıları ilə maraqlanan oxucular üçün böyük töhfədir.

Ə.Məmmədov fəal bir ictimaiyyətçi kimi də rayonun bütün tədbirlərində yaxından iştirak edir, xeyirxah işləri ilə ictimai-siyasi həyatda fəal vətəndaş mövqeyi tutmaqla böyük nüfuza malikdir.

Ədalət müəllim həm də gözəl ailə başçısıdır. Xalqımıza, dövlətimizə layiq övladlar böyüdüb boya-başa çatdırmışdır.

Sonda onu da qeyd edək ki, ömrünü xalqına həsr edən bir təhsil fədaisi kimi əsl ziyalı ömrü yaşayan Ədalət Məmmədovun 2017-ci ilin ilk günü 65 yaşı tamam olub. Bu münasibətlə yubilyarı çoxminli təhsil işçiləri adından səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları diləyirik.

**Ədalət DAŞDƏMİRLİ,**
**«Təhsil»**





# F.Köçərli adına kitabxana da uşaqların zəka mənbəyi, bilik xəzinəsidir

**Bu, danılmaz bir həqiqətdir ki, kitabxanalar uşaqların dünyagörüşünün formalaşmasında, bilik səviyyəsinin artmasında, nitq mədəniyyətinin yüksəldilməsində müstəsna rol oynayır.**

Ümummilli lider Heydər Əliyevin dediyi kimi, «Kitabxana – xalq, millət, cəmiyyət üçün müqəddəs bir yerdir».

F.Köçərli adına Respublika Uşaq Kitabxanası da belə bir zəngin bilik xəzinəsidir. Bu mədəniyyət və zəka mənbəyi 50 ildən çoxdur ki, öz maarifçilik fəaliyyətini davam etdirir. Kitabxananın kollektivi şərəfli bir iş görür. Kollektivə tanınmış maarifçi, kitabxanaşünas qadın, əməkdar mədəniyyət işçisi Şəhla Qənbərova başçılıq edir.

Biz də bu günlərdə kitabxanada olduq, Şəhla xanımla görüşüb ondan müsahibə aldıq. Həmin müsahibəni oxucularımıza təqdim edirik.

**- Şəhla xanım, ilkin olaraq rəhbərlik etdiyiniz uşaq kitabxanasının keçdiyi yola bir ekskurs etməyinizi xahiş edirik.**

- F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kütləvi kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (§22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antalogiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyır.

Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Belə ki görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi yarandı, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının



yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq elminin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 60-cı illərin sonu və 70-ci illərin əvvəlində zəngin metodik nəşrlər fondu yaradıldı. Fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən zəngin ədəbiyyat toplandı. 60-cı illərin əvvəllərində Azərbaycanda 88, Bakı şəhərində 22 müstəqil uşaq kitabxanası fəaliyyət gös-



tərirdi.

Etiraf edim ki, bu illərdə uşaq kitabxanalarına metodik rəhbərlik mahiyyət etibarı ilə vahid və bütöv sistem kimi təşəkkül tapmamışdı. Respublikada uşaq kitabxanalarının fəaliyyətini metodik cəhətdən tənzimləyən mərkəzin yaradılması uşaqlara xidmət edən kitabxanaların təşkilati-metodik problemlərinin vahid qaydada həllini təmin etməkdən, eyni zamanda ayrı-ayrı kitabxanaların qabaqcıllar səviyyəsinə qaldırılmasına kömək etməkdən ibarət idi.

**- İlk əvvəl kitabxanada neçə nüsxə kitab var idi, indi onların sayı nə qədərdir?**

- Kitabxana yarandığı dövrdə fondunda cəmi 43.000 nüsxə ədəbiyyat var idi ki, onun da 27337 nüsxəsini uşaq ədəbiyyatı təşkil edirdi. 1999-cu ildə qüvvəyə minmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü il 27 dekabr tarixli "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları və 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı kitabxana işinin inkişafında yeni bir mərhələ olmuşdur. Kitabxana 1999-cu ildən Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin üzvüdür. 2010-cu ildə kitabxananın müasir tələblərə cavab verən yeni kitabxana binasına köçməsi həm uşaqları, həm də valideynləri razı saldı. Belə ki uşaqlar ən müasir texnologiya və metodlardan istifadə edir, Nağıl otağında təşkil olunan Nağıl saatlarında təkcə öz nağıllarımızı deyil, dünya nağıllarını dinləyir, müzakirə edir, dünyagörüşlərini təkmilləşdirirlər.

**- Kitabxanada əsasən hansı tədbirlər həyata keçirilir?**

- Milli dəyərlərimizin qorunması və təbliği işində kitabxana bir sıra tədbirlər həyata keçirir. Hər il kitabxanada 2

aprel Beynəlxalq Uşaq Kitabı Günü ilə əlaqədar Milli Uşaq Kitabı Sərgisi təşkil olunur. Hazırda kitabxananın 9 şöbəsi, 5 bölməsi, 2 oxu zalı var. 3 filialı isə Bakının müxtəlif rayonlarında (Yasamal, Binəqədi və Yeni Günəşli) fəaliyyət göstərir. Az.TV-nin "Çıraq", "Sərbəst düşüncə" uşaq verilişləri kitabxananın oxu zalında müntəzəm olaraq uşaq şair və yazıçılarının yaradıcılığına müraciət edərək çəkilişlər aparmışdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları 2001- 2003-cü illərdə Açıq Cəmiyyət İnstitutunun kitabxana proqramında iştirak etmiş, 3 layihəsi qrant qazanmışdır. Bu layihələr əsasında kitabxanada "İnternet sinif otağı", "Biləyən" multimedia zalı açılaraq uşaqların istifadəsinə verilmişdir. İki il ərzində 1500-dən çox uşaq "Kompüter savadlılığının əsasları", "Mətnlərin sürətlə yığılması" kurslarında fəal iştirak etmiş, internetdən faydalanmaqla geniş informasiya imkanlarına yiyələnmişdir. "Gələcəyin dialoqu: Uşaqlar və kitablar" adlı üçüncü layihə əsasında əksəriyyəti məcburi köçkün ailələrindən olan uşaqlar layihəyə cəlb olunaraq, 800-dən çox kitabın cildlənməsində iştirak ediblər. 2004-cü ildə "Mədəni-Maarif " jurnalında kitabxanamızın təklifi ilə "Uşaq kitabxanalarına kömək" rubrikası açılmış, elmi-metodika şöbəsi tərəfindən tərtib edilmiş metodiki vəsaitlər jurnalın hər nömrəsində işıqlandırılmışdır. Kitabxana respublikanın bir sıra uşaq kitabxanalarına əməli və metodiki köməklik göstərmiş, İsmayıllı Uşaq kitabxanasını hamiliyə götürmüş, Böyük Britaniyanın OXFAM humanitar təşkilatı tərəfindən "Danışan Kitablar"-ın 120 audio kaseti və audiomaqnitofon, yazıçı və şairlərin A3 formatda şəkilləri çərçivəyə salınaraq kitabxanaya hədiyyə edilmişdir. Mədəniyyət və Turizm Nazirliyinin Avropa Şurası ilə birgə STAGE layihəsi üzrə keçirdiyi debatlarda iştirak etmiş, uşaq kitabxanalarının gələcək inkişafı ilə bağlı təkliflər vermişdir.



Kitabxanamız ABŞ səfirliyi nəzdində Təlim Mərkəzinin regionlarda kitabxana işi ilə bağlı keçirdikləri görüşlərdə iştirak etmişdir. Uşaq ədəbiyyatının nəşri problemləri ilə bağlı "dəyirmi masa" keçirmiş, nəşriyyatlar, uşaq yazarları ilə müzakirələr aparmışdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2005-ci ildən fondun bütövlükdə elek-

tron informasiya daşıyıcılarına köçürülməsi və elektron kataloqun yaradılması proseslərinin müvəffəqiyyətlə həyata keçirilməsində böyük işlər görmüşdür. Belə bir layihəni gerçəkləşdirmək üçün kitabxana AKİS proqram təminatından istifadə etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc oldu. 2009-cu il Uşaq ili ilə əlaqədar "Dünya uşaq ədəbiyyatının inciləri" adlı beynəlxalq kitab sərgisi açılmış, ölkəmizdə fəaliyyət göstərən iyirmi dövlətin səfirliklərinin nümayəndəlikləri sərgidə iştirak etmiş və fondumuza 1500-dən çox kitab hədiyyə edilmişdir. Dövlət Proqramında oxucuların informasiya tələbatının ödənilməsi ilə bağlı Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisini - "Uşaq Kitab Karvanı" layihəsini uğurla həyata keçirdi.

**- Hansı xarici ölkələrin kitabxanaları ilə əlaqə saxlayırsınız?**

- 2011-ci ildən fəaliyyətə başlayan "Uşaq Kitab Karvanı" layihəsi çərçivəsində artıq 22 rayona Kitab Karvanı yola salınmış, həmin ünvanlara 17270 nüsxə kitab hədiyyə edilmişdir. İsveçrə, Rusiya və Türkiyənin 9 bölgəsi, Ukrayna, Almaniya, Bosniya və Herseqovina, Sloveniya, Moldova, Serbiya, Gürcüstan, Baltikyanı ölkələrin kitabxanaları ilə əlaqə yaranmış, həmin ölkələrin uşaq kitabxanalarına Azərbaycan uşaq ədəbiyyatı göndərilmişdir. 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Bosniya və Herseqovinyanın "Dervis Susic" Kütləvi və Universitet kitabxanası ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası "Qardaşlaşmış Kitabxanalar" elan olunmuşdur. Bu elm ocaqlarının birgə əlaqəsi nəticəsində beynəlxalq Kitabxanalararası abonement bölməsi Qasprinski adına Krım Tatar Kitabxanası, İon Kryange adına Moldova Milli Uşaq Kitabxanası, Ukrayna Milli Uşaq Kitabxanası, Serbiya kitabxanası və Türkiyənin bir çox kitabxanaları ilə,







eləcə də İsveçin Göteborq şəhər Kitabxanası və Stokholm Beynəlxalq Kitabxanası ilə beynəlxalq əlaqələr yaratmış, beynəlxalq sərgilərin iştirakçısı olmuşlar. 2012-ci ildə 57-ci Avroviziya mahnı müsabiqəsinin ölkəmizdə keçirilməsi ilə əlaqədar olaraq kitabxanada "Eurochildbook-2012" adlı beynəlxalq uşaq ədəbiyyatı sərgisi keçirildi. Sərgidə 42 dövlətin uşaq ədəbiyyatı nümayiş olundu.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2012-ci ildən mötəbər bir təşkilatın- Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Kitabxanamız 2013-cü ildən "Uşaq ədəbiyyatı xəzinəsindən" seriyası altında "Firidun bəy Köçərli. Biblioqrafiya", "İlyas Tapdıq", "Abdulla Şaiq" kimi uşaq şairləri və yazıçıları haqqında göstəriciləri nəşr etmişdir.

**- Uşaqların maarifləndirilməsində kitabxananın rolu barədə nə deyərdiniz?**

- 2014-cü ildə Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi və TİKA-nın Bakı Ofisinin əməkdaşlığı çərçivəsində görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün kitabxanamızda Dil kursları və İnformasiya mərkəzi açıldı. Bu layihənin həyata keçməsi görmə qabiliyyəti zəif və məhdud uşaqların da sağlam uşaqlarla birgə informasiya almaq hüququnu reallaşdırdı. 2015-ci ildən Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Bərpanəşr" layihəsi çərçivəsində 50-dən çox kitab təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmaqla nəşr olunmuşdur. Bu layihə üzrə işlər hələ də davam edir. 2015-ci ildən kitabxanada dünya uşaq ədəbiyyatı həftələrinin keçirilməsi layihəsinə start verilib. Kitabxananın elmi şurası metodik və biblioqrafik vəsaitlərin, xarici ölkə kitabxanalarında elmi tədqiqat işi ilə bağlı elmi araşdırmaların hazırlanması, BDU-nun və Mədəni Maarif Kollecinin tələbələri üçün elmi mərkəz kimi diplom və dissertasiyaların yazılması və eləcə də uşaq ədəbiyyatının inkişafı ilə bağlı nəşriyyatlar və yazıçılarla "dəyirmi masa" və elmi konfransların keçirilməsi məqsədilə hər il yeni proqramla çıxış edir.

**- Kitabxana kollektivinin fəaliyyətinə dövlət tərəfindən göstərilən qayğı barədə də fikirlərinizi bilmək oxucularımız üçün maraqlı olardı.**

- F.Köçərli adına Respublika Uşaq Kitabxanasının iş təcrübəsi beynəlxalq aləmdə tanınmış nüfuzlu dərgilərdə "BAE" və "Bookbird" kimi işıqlanmışdır.

2015-ci ildə isə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə Azərbaycanda kitabxana işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə aşağıdakı şəxslərə fəxri adlar verilmişdir:

Dadaşova Zahirə Cabir qızı, Qəmbərova Şəhla Əliheydər qızı, Musazadə Rəfiqə Mirzə qızı, Tahirova Nazilə Rəhman qızı "Əməkdar mədəniyyət işçisi", Ağamirzəyeva Vəfa Əliağa qızı, Əhmədova Sevil Əliabas qızı, Qafarova Leyla Hacı Ağa qızı, Məmmədli Ruhiyyə Mikayıl qızı isə "Tərəqqi" medalı.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 2016-cı il oktyabrın 1-nə olan rəqəm göstəriciləri belədir:

Kitab fondu – 265000

Dövri mətbuat fondu – 65280

Qəzet və jurnal məqalələri fondu- 120350

Elektron resurslar- 3790

Elektron kitablar- 12700

Elektron kataloqun həcmi 261600

Elektron kartoteka -96900

**-Şəhla xanım, məzmunlu müsahibəyə görə çox sağ olun! Şərəfli fəaliyyətinizdə sizə və rəhbərlik etdiyiniz kollektivə yeni-yeni müvəffəqiyyətlər diləyirik.**

**Söhbətləşdi:**
**İdris HACIZADƏ**



# Zəmanəmizin vunderkindləri

**Əksər insanlar üçün ali məktəblərdə təhsil yetkin həyata hazırlıq deməkdir. Lakin həyatda bəzən universitet astanasına ayaq basan elə insanlara rast gəlmək olur ki, onları yeniyetmə adlandırmaq belə olmaz. Ali məktəblərin tədris proqramları hətta yaşlı insanlar üçün belə kifayət qədər çətindir. Əgər 10 yaşlı uşaq bu proqramı mənimsəyə bilirsə, onda o, doğrudan da çox təəccüb doğuracaq qabiliyyətlərə malik olmalıdır.**

## Ceykob Barnet (1998-ci il təvəllüdlü)



Həkimlər 2 yaşı tamam olanda Ceykoba "autizm" diaqnozu qoyublar. Bildiriblər ki, çətin ki, o, normal danışmağı, yazmağı və oxumağı öyrənə bilsin. Onu xüsusi inkişaf xüsusiyyətləri olan uşaqlar üçün nəzərdə tutulmuş tədris mərkəzinə göndəriblər, daha sonra isə məktəbin korreksiyaedici sinfinə qəbul ediblər. Lakin valideynləri hiss ediblər ki, sadələşdirilmiş proqramlar uşağı qıcıqlandırır, buna görə də onun evdə təhsil almasına qərar veriblər. 8 yaşı tamam olanda anası Ceykobu universitetə riyaziyyat, astronomiya və fizika üzrə mühazirələrə aparıb. Məktəb riyaziyyat kursunu cəmi 2 həftəyə öyrənən Ceykob 10 yaşında İndiana Universitetinə daxil olaraq kondensasiya olunmuş mühit fizikasını öyrənməyə başlayıb. Universitetə daxil olana qədər isə Ceykob 9 yaşında özünün, nisbilik nəzəriyyəsinin genişlənmiş variantı elmi işi üzərində tədqiqata başlayıb. 13 yaşında tədqiqat işini jurnalda çap etdirib və mütəxəssislər tərəfindən yüksək qiymət alıb. 15 yaşında olarkən Ceykob Kanadada yerləşən Nəzəri Fizika İnstitutuna daxil olaraq burada namizədlik dissertasiyasını müdafiə edib. Onun intellekt göstəricisi 170-dən yuxarıdır və o, riyaziyyat, astrofizika və nəzəri fizika sahəsində ağlagəlməz qabiliyyət nümayiş etdirir. Onu hətta Nobel mükafatına namizəd irəli sürürlər. Bu isə Asperger sindromlu və bu vaxta qədər ayaqqabılarının qaytanlarını belə çətinliklə bağlayan bir insan üçün heç də pis nəticə deyil.

## Akrit Vasval (1993-cü il təvəllüdlü)





Akrit ayaq açıb yeriməyə və danışmağa eyni vaxtda - 10 aylığında başlayıb. 2 yaşda isə oxumağa və yazmağa başlayıb, 5 yaşında artıq Şekspirin əsərlərini səhifələyib. O, 4 yaşında tibb, kimya və fizika ilə maraqlanıb, ciddi elmi məqalələr oxuyub. Akrit bütün dünyada 7 yaşında qonşuluğunda yaşayan qızcığaza üzərində keçirdiyi cərrahi əməliyyatla səs salaraq məşhurlaşıb. Güclü yanğın nəticəsində qızın əl barmaqları hərəkət qabiliyyətini itirmişdi. Akrit isə onları ayıraraq cərrahi işin öhdəsindən çox məharətlə gələ bilib. 12 yaşında gənc dahini tibb kollecinə qəbul ediblər, hazırda o biokimya mövzusunda dissertasiya üzərində işləyir. Akritin arzusu var, o, xərçəngə qarşı dərman kəşf etmək istəyir. O bu arzusuna çatmaq üçün səylə çalışır. Onun intellekt əmsalı (IQ) 146 baldır.

## Maykl Kirni
## (1984-cü il təvəllüdlü)



Maykl vaxtından əvvəl doğulmuşdu, həkimlər onun öz inkişafında həmyaşıdlarından geri qalacağına dair valideynlərini xəbərdar etmişdilər. Lakin onlar səhv etmişdilər. Həkimlər ona diqqət çatışmazlığı və hiperaktivlik sindromu (ADHD) diaqnozu qoyublar. Valideynləri həkimlərin Mayklı psixostimulyatorlarla müalicə etmək təklifini qəti rədd ediblər. Uşaq 4 aylığında tez-tez "Nahara nə bişirmiziniz" sualını verərdi, valideynləri isə artıq başa düşmüşdülər ki, Maykl xüsusi uşaqdır. Maykl 8 aylığında oxumağı öyrənmişdi və tezliklə televiziyada yayımlanan intellektual şouların əsl fanatına çevrilmişdi. 4 yaşında olarkən Maykl riyaziyyat proqramı üzrə diaqnostik testdən keçmiş və ən yüksək bal toplamışdır. Orta məktəbin tədris proqramını bir ilə mənimsəyən uşaq 6 yaşında məktəbi bitirmiş və geologiya ixtisası üzrə kollecə daxil olaraq oranı 8 yaşında başa vurmuşdur. 10 yaşında Maykl Cənubi Alabama Universitetində antropologiya üzrə bakalavr dərəcəsi almış və dünyada ən gənc universitet məzunu olaraq Ginnesin Rekordlar Kitabına daxil edilmişdir. 14 yaşında isə biokimya üzrə magistr dərəcəsini Tennessi Universitetində almışdır. Onun televiziya intellekt şousuna məhəbbəti ona gətirib çıxarmışdır ki, bir neçə dəfə "Kim milyoner olmaq istəyir? oyunlarında iştirak etmiş və hər dəfə də böyük məbləğdə pul uduşları qazanmışdır. Onun IQ - sı 200 baldan çoxdur.

## Moşe Kay Kavalin
## (1998-ci il təvəllüdlü)



Moşenin anası çinli, atası ABŞ-a mühacirət etmiş yəhudidir. Moşe 2 yaşda oxumağa başlayıb. Dörd yaşda artıq sadə riyazi əməlləri bilirdi, 7 yaşında isə triqonometriyanı öyrənib, 8 yaşında kollecə daxil olaraq 11 yaşda oranı bitirib. Sonra, Los-Anceles Kaliforniya Universitetində (UCLA) təhsilini davam etdirib, riyaziyyat üzrə bakalavr diplomu alıb. O, əv-



vəlcə astrofizikanı öyrənmək istəyirdi, amma sonra ciddi olaraq kriptoqrafiya və informatika ilə maraqlanmışdır. Kibertəhlükəsizlik üzrə magistr diplom işini yazdıqdan sonra onu NASA-da işləməyə dəvət ediblər. Moşe çox təvazökardır, öz IQ-ni müzakirə etməyi və dahi adlandırılmasını sevmir. O deyir ki, sadəcə inadkarlıqla işləmək və nəyəsə nail olmaq lazımdır. Onun hədəfi – kibertəhlükəsizlik sahəsində şəxsi şirkətinin əsasını qoymaqdır.

## Aliyə Sabur (1989-cu il təvəllüdlü)




Aliyə artıq 8 aylığında oxumağı öyrənmişdi. Məktəbdən əvvəl Aliyə IQ balının müəyyən olunması üzrə testdən keçdikdə onun nəticələri hamını heyrətləndirmişdi. Dördüncü sinifdə oxuyarkən təhsil göstəriciləri o qədər parlaq idi ki, onu ibtidai məktəbi bitirdikdən dərhal sonra 10 yaşında Nyu-York ştatında yerləşən Stouin-Bruk Universitetinin riyaziyyat fakültəsinə qəbul ediblər. Aliyə universiteti 14 yaşında əla qiymətlərlə bitirərək bakalavr dərəcəsi alıb. Sonra Filadelfiya ştatındakı Dreksel Universitetinə daxil olaraq orada elmi -mühəndislik ixtisası üzrə doktor elmi dərəcəsini alıb. 19 yaşında Aliyə Seuldakı (Cənubi Koreya) Konkuk Universitetinin dünyada ən gənc professoru olub. O, musiqi alətlərindən klarnetdə virtuoz ifa edir və taekvondo üzrə qara kəmər ustasıdır.

## Kolin Karlson (1996-cı il təvəllüdlü)




Kolinin anası psixoloq, atası musiqiçidir. O, 2011-ci ildə Motsart, Pikasso və Bobbi Fişerlə yanaşı "Tarixdə 16 ən ağıllı uşaq" Business Insider reytinqinə daxil edilmiş vunderkinddir. İki yaşında Kolin artıq kitabları oxuyurdu, 9 yaşında UCONN kollecində təhsilə başlamışdı. 15 yaşında Konnektikut Universitetini təkamül biologiyası və ekoloji tədqiqatlar üzrə bakalavr və magistr diplomları ilə bitirmişdir. Hazırda Berkli Universitetində oxuyan Kolin doktorluq elmi dərəcəsini almağa hazırlaşır.

## Talsaqat Avatar Tulsi (1987-ci il təvəllüdlü)



Talsaqat Hindistanın şimalında, aşağı təbəqədən olan ailədə anadan olub. Onun inanılmaz ri-

yazi qabiliyyətləri erkən uşaqlıq illərindən özünü göstərib, o, beşrəqəmli saylardan mürəkkəb nümunələri beynində asanlıqla hesablayırdı. Valideynləri oğlanın istedadını vaxtında müəyyən ediblər və ona hər cür köməklik göstəriblər. Orta məktəbi o, doqquz yaşında bitirib. Ötən əsrin 90-cı illərinin ortalarında 10 yaşında Patna Universitetini bakalavr diplomu ilə bitirəndə bütün dünyada məşhurlaşmışdır. 12 yaşında Talsaqat dünyada ən gənc magistr olub. Təhsilini Hindistan Elmlər İnstitutunda davam etdirən Talsaqat 21 yaşında ən gənc elmlər doktoru olub. 2003-cü ildə "Time " jurnalı onu dünyanın ən istedadlı yeddi alimindən biri adlandırıb. Hazırda o, Mumbaydakı Hindistan Texnologiya İnstitutunda dərs deyir və kvant axtarış alqoritmlərinin öyrənilməsi üzərində çalışır.

## Ketlin Holts
## (1989-cu il təvəllüdlü)



Ketlin Xols məktəbdə oxuyarkən çox asanlıqla bir neçə sinfi birdən keçirdi. Birinci sinifdə, o cəmi üç həftə oxuyub, onu dərhal 3-cü sinfə, daha sonra isə 5-ci sinfə keçiriblər. V sinfi bitirdikdən sonra onu kollecə qəbul ediblər. O, burada əyani-qiyabi şöbədə oxuyub. 11 yaşında əyani şöbəyə keçən Ketlin kolleci fərqlənmə ilə bitirərək fəlsəfə üzrə diplom alıb. Sonra, 15 yaşında Los-Anceles Kaliforniya Universitetinin (UCLA) hüquq məktəbinə daxil olub. Tələbə yoldaşları onu o qədər də mehriban qarşılamayıblar. Buna görə də Ketlin öz yaşını gizlədirdi. 2007-ci ildə, 18 yaşında Ketlin Kaliforniyanın ən gənc məhkəmə vəkili olub və öz birinci işini müdafiə edərək qələbə qazanıb.

## Şo Yano
## (1990-cı il təvəllüdlü)



Şo Yanonun intellekt əmsalı (IQ) 200 baldır. İki yaşında oxumağı, 3 yaşında yazmağı, 5 yaşında musiqi bəstələməyi öyrənib. 8 yaşında isə Amerikanın ali məktəblərinə daxil olmaq üçün standart SAT test imtahanlarından keçib, 1600 mümkün baldan 1500 bal toplayıb. 9 yaşında Şo orta məktəbi bitirib və Çikaqo Universitetinə daxil olub. 12 yaşında universiteti əla qiymətlərlə bitirən Şo təhsilini Çikaqo Universitetinin Pritsker Tibbi məktəbində davam etdirib. 18 yaşında molekulyar genetika və sitologiya üzrə namizədlik dərəcəsini, 21 yaşında isə doktorluq elmi dərəcəsini alıb. O, elm sahəsində əldə etdiyi nailiyyətlərdən başqa həm də çox gözəl pianoçu və taekvando üzrə qara kəmər sahibidir.



## Ancela və Diana Knyazevalar (1986 və 1987-ci il təvəllüdlü)



Öz anaları sayəsində bu qızların bəxti gətirib. Anaları Yuliya Knyazeva pedaqoji elmlər namizədidir, ailə təhsili, uşaqların istedadını artıran, innovasiyanı inkişaf etdirən metodlar sahəsində mütəxəssisdir. O, qızların qabiliyyətini effektiv surətdə aşkara çıxarmağı bacarıb ki, onlar onbirillik təhsili 5 ilə (10 -11 yaşda) başa vura biliblər (Yeri gəlmişkən, onlar hətta məşhur alim, 14 yaşda tələbə olan Lev Landaunu qabaqlayıblar). Sonra qızlar Moskvada Maliyyə Akademiyasının (MEO) beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olublar və oranı 5 il əvəzinə 3 il ərzində, həm də hər ikisi qırmızı diplomla bitiriblər. Yəni, onlar 13, 14 yaşda ali məktəb diplomu alıblar. Bir il sonra isə qızlar Rusiya Yeni Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirərək beynəlxalq siyasi iqtisadiyyat ixtisası üzrə ABŞ-ın Stenford Universitetinə daxil olublar. Proqramı isə 2 il əvəzinə 1 ilə başa vurublar. Beləliklə, Anjela və Diana Stenford Universitetinin magistr dərəcəsinin müvafiq olaraq – 16 və 15 yaşda ən gənc sahibi olublar. Sonra onlar Nyu-York Universitetinin "Stern" Biznes-məktəbinin doktoranturasına daxil olublar. Burada isə maliyyə və beynəlxalq biznes üzrə doktorluq elmi dərəcəsi alıblar. Bu gün onlar qiymətli kağızlar və ABŞ-ın birjaları üzrə Komissiyada maliyyə iqtisadçısı vəzifəsində işləyirlər. Bacılar ingilis, fransız, ispan, alman və italyan dillərində sərbəst danışırlar.

## Kim Un En (1963-cü il təvəllüdlü)





Kim – Cənubi Koreyadan olan vunderkinddir. 4 yaşında 4 dildə danışır və riyazi inteqralları həll edirdi. Kim şeirlər yazır və ingilis, alman dillərində 2000 söz əzbər bilirdi. 4 yaşlı azyaşlı vunderkindi Fuji TV televiziya verilişində bütün tamaşaçıların gözü qarşısında mürəkkəb inteqral tənlikləri həll etməsindən sonra bütün dünya tanıyıb. İntellekt əmsalı 210 olan Kim dünyanın ən ağıllı insanı kimi Ginnesin Rekordlar Kitabına daxil edilib. Üç yaşdan 6 yaşa kimi Kim Xanyanq Universitetinin fizika fakültəsinin tələbəsi olub. 7 yaşında isə Amerikanın Kolorado Universitetində təhsil alması üçün NASA-dan dəvət alıb. 15 yaşında fizika üzrə doktorluq dərəcəsi alan Kim vətənə dönüb. 2007-ci ilə qədər Çunğbuk Milli Universitetində işləyib.

**Hazırladı:**
**O.İSAOĞLU**





# Sağlam həyatın düşməni olan stress nədir?

*Azərbaycanda elmi psixologiya XIX əsrin sonu XX əsrin əvvəllərində inkişaf etməyə başlayıb. Hazırda psixologiya elminin 100-ə yaxın sahəsi mövcuddur. Həyatımızın bir parçasına çevrilmiş stress və onun törətdiyi fəsadlar bu gün ən aktual mövzulardan biridir. Streslə bağlı yazılan bu yazımız nə ilk, nə də sonuncu mövzudur. Çünki həyat öz axarıyla davam edir. Bu axarda uğursuzluq, səbrsizlik, maddi, mənəvi və s. bu kimi stressə gətirib çıxaran problemlər də var. Bu problemlərin həllində psixoloqların köməyi ilə düzgün qərarlar qəbul edərək çıxış yolları tapmaq olar. Sağlam həyatın düşməni olan streslə necə mübarizə aparmağın yolları barədə Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri, AMEA-nın elmi işçisi, psixoloq Elnur Rüstəmova müraciət etdik:*



**- Həkim, tez-tez rastlaşdığımız, lakin haqqında çox da məlumatımız olmayan stress nədir? Stressin hansı növləri var?**

- Öncə qeyd edim ki, stress sözü, latınca "estrictia" sözündən götürülüb XVII əsrə qədər fəlakət, bəla, dərd, kədər kimi mənaları ifadə edib. XVIII və XIX əsrlərdə isə anlayışın mənası dəyişdi və güc, təzyiq kimi mənalarda obyektlərə, insanlara, orqanlara və ruhi struktura yönəlmiş bir hal kimi istifadə olunmağa başlandı. Stressin yaranması üçün müəyyən faktorlar olmalıdır. Öz növbəsində stress bir çox fəaliyyət növlərinə təsir göstərir. Buraya biz, şəxsi hansı ki, əsəbilik, yorğunluq, gərginlik və s. halları, eyni zamanda davranış, zehni, psixoloji, tibbi, təşkilati kimi təsir formalarını göstərə bilərik.

**– İnsan orqanizmi çox mürəkkəbdir. Bədəndə, zehində həddən artıq stress və sıfır stress – hər ikisi ölümə gətirib çıxarır. Bu hal necə baş verir?**

- Sualınız mənə dahi Nizami Gəncəvinin bir şerindəki misranı xatırlatdı.

**Bir inci saflığı varsada suda,**
**Artıq içiləndə dərd verir o da.**

İndi insanda stress çox olanda da fəsad yaranır, az olanda da. Həyatımızı stres-



siz təsəvvür etmək qeyri-mümkündür. Sadəcə, günümüzdə stress halları əvvəlki illərlə müqayisədə daha çoxdur. Bunun da əsas səbəbi kimi texnogen əsrdə, sürət əsrində yaşamağımızdır. Hər iki qeyd etdiyimiz faktor özü ilə bərabər çoxlu törəmə problemlərə, psixoloji narahatlıqlara yol açır. Zamanın ruhunu tutmaq, ona uyğun davranmaq vacib məqamdır. Qərb bu mərhələni keçdi. Düşünürəm, biz də yaxın gələcəkdə bunu uğurla keçərik.

**- Stressə səbəb olan amillər hansılardır?**

- Yuxarıda da qeyd etdik, günümüzdə stressə təsir göstərən amillər çoxdu. Həyatımız sürətlə keçir, insanlar arasında yadlaşma, özgələşmə problemi genişlənir. Ailədaxili konfliktlər, boşanmalar, bütün bunlar stress yaradan faktorlardı. Qloballaşma özü böyük stress yaradan faktordur. Bunun fəlsəfəsini insan anlamadıqca stress qaçılmazdır.

**- Stress nələrə səbəb olur?**

- Stressin iş həyatına neqativ təsiri böyükdür. Eyni zamanda, ailə həyatına, ailədaxili münasibətlərə xüsusən stressin böyük neqativ təsirləri var. Stress yuxu pozuntularına təsir göstərir. Bilirsiz ki, yuxusuzluq günümüzdə ən böyük psixoloji problemlərdən biridir ki, onun da kökündə stress dayanır.

**- Həkimə, psixoloqa müraciət etmədən stresli vəziyyətdən çıxmaq olarmı?**

- Əlbəttə mümkündü. Bunun üçün ilkin psixoloji bazanın olması vacibdi. Buraya biz psixi sağlamlıq və təhlükəsizliyin qorunmasını əlavə etməliyik. Çox təəssüf ki, internet əsrində yaşadığımızdan bunu qorumaq bir qədər çətindi. Müəyyən inzibati tədbirlərin həyata keçirilməsi vacibdi. Digər tərəfdən, insan maariflənməklə özünü stressdən qismən sığortalaya bilər. Söhbət burada stressin yox edilməsindən deyil, onun idarə edilməsindən gedir. Bu, eyni zamanda, fərdə bağlı bir problemdi. Bütün hallarda kəskin stress hallarında psixoloji dəstək vacibdi. Bu, problemi tez bir zamanda, doğru şəkildə aradan qaldırmağa kömək edir.

**- Stress bütün orqanizmə təsir edir və bir sıra xəstəliklərin başlanğıcı deməkdir. Həqiqətənmi stress bədxassəli şişlərin yaranmasına da səbəb olur?**

- Bəli, stressin yaratdığı fiziki problemlər çoxdu - boğazda gərginlik, kürək və boyun ağrıları, təngnəfəslik, ürək döyüntüsünün artması (taxikardiya), soyuq, lakin tərləyən əl və ayaqlar, ayaq əzələlərinin gərginləşməsi və hiddətlə baxan göz mimikalarını bura aid edə bilərik. Eyni zamanda, ürək xəstəliklərində qeydə alınan ani ölümlər bir çox hallarda stress, hədsiz gərginlik və depressiv epizodlarla paralel şəkildə görülür. Son tədqiqatlara əsasən, ümumi əhalinin 80-90%-i baş ağrılarından əziyyət çəkir. Səbəblər arasında əsas faktor kimi stress göstərilir. Tədqiqatlar, stressin şəkər xəstələrində qandakı qlükozanın miqdarını artırdığını və bunun da göz, böyrək və sinir sistemində fəsadlar yaratdığını göstərir. Eyni zamanda, sizin də qeyd etdiyiniz kimi onkoloji problemlərin böyük bir qismi məhz stress nəticəsində baş verir.

**- Stress halları zamanı ağlamaqla qismən də olsa sakitləşmək olur. Sevincli və kədərli olarkən insandan asılı olmadan axan göz yaşının stresli orqanizmə mənfi və müsbət təsirləri?**

- Qədimdən ağlamağın in-





sanın mənəvi sakitliyinə müəyyən dərəcədə müsbət təsir göstərdiyi qeyd edilib. Sadəcə, bizdə daha çox xanımların ağlamaqla, belə deyək, "ürəklərini boşaltdığı" qəbul edilib. Kişilərə isə "erkəklər ağlamaz" formasında yasaqlanıb. Ancaq söhbət insandan gedir. Ağlamağın da bir dərəcəsi olmalıdı. O dərəcədə insana mənfi yox, müsbət təsir göstərir.

**- Orta məktəb şagirdlərinin və ali məktəb tələbələrinin dərs tapşırıqlarının çox olması stress yaradırmı? Və bu stress hansı problemlərə gətirib cıxarır?**

- Əlbəttə, bu gün dərs prosesi əvvəlki illərlə müqayisədə çox ağırdı. Bilik tez yenilənir. Bu yenilikləri qəbul etmək, onunla uyğunlaşmaq günümüzdə çox çətindi. Dərs yükü ağırdı. Bu da şübhəsiz ki, psixoloji dayanıqlılığı qorumağı tələb edir. Bu gün həm orta məktəblərdə, həm də ali məktəblərdə psixoloqlar bu istiqamətdə şagird və tələbələrə yardımçı olurlar.

**- Uşaqlarda, şagirdlərdə qorxu, həyəcan, gərginlik hallarına tez-tez rast gəlinir. Bu hal onların davranışlarında bəzi pozuntular yaradır, hətta ünsiyyət qurmaqda belə çətinlik çəkirlər. Psixoloq bu halları necə aradan qaldırır?**

- Qeyd etdiyiniz problemlər günümüzdə aktualdı. Bu gün nevroloji problemlə doğulan uşaqlarımız da var. Bunun da əsasında hamiləlik depressiyası, ailədaxili konfliktlər, ekologiya, qidalar və s. təsir göstərir. Bu gün uşaqlarımızda diqqət dağınıqlığı, hiperaktivlik, autizim, mutizm, əqli gerilik və s. problemlər də müşahidə edilir. Demirik ki, çoxdu, ancaq etiraf etməliyik ki, artan sürətlə gedir. Psixoloqlar işini daha yüksək səviyyədə qurmalıdırlar. Hər bir psixoloji problemin özünün aradan qaldırmaq metodikaları var ki, uşaq psixoloqları bunu bilməli və peşəkar fəaliyyətlərində tətbiq etməlidirlər.

**- Məktəbyaşlı uşaqlar və yeniyetmələr ətraf mühitdən, ailədən, şagird-müəllim münasibətinin gərginləşməsindən və s. bu kimi hallardan daha çox stressin hansı növünü qazanaraq ondan əziyyət çəkirlər?**

- Bu müxtəlif aspektli bir problemdi. Konkret hansısa stressə dayandığını qeyd etməkdə çətinlik çəkirəm. Bütün hallarda valideynlə müəllim, məktəb arasında əməkdaşlıq bu gün əvvəlki illərlə müqayisədə daha çox olmalıdı. Bu gün valideyn uşağının psixi sağlamlığının qeydinə fiziki sağlamlıqdan daha çox qalmalıdı. Günümüz bunu tələb edir.

**- Daha çox ibtidai sinifdə təhsil alan şagirdlər arasında məktəb qorxusu, müəllimlə anlaşa bilməmək kimi stresli problemlər ortaya çıxır. Bu kimi problemlərin yaranmasına nədənsə, həmişə şagirdlərin səbəb olduğu bildirilir. Bu həqiqətənmi belədir?**

- Xeyr, buna şagird səbəb olmur. Şagird ailənin güzgüsüdü. İbtidai siniflərdə bu cür problemlər olur. Zamanında psixoloji dəstək göstərildiyi təqdirdə şagird həm məktəbə, həm də dərsə bağlı ola bilir. Əks təqdirdə, biz şagirdin dərsdən uzaqlaşdığının, oxumaqdan yayındığının şahidi oluruq. Uşaq məktəbə bağçadan gəlməlidi, nənə-babanın yanından yox.

**- Həkim, suallarımızı ətraflı cavablandırdığınız üçün sizə təşəkkür edir, işlərinizdə uğurlar arzulayıram.**

**Günel ŞİRVANLI**



## Əsədov Əsəd Soltan oğlu



1956-cı il martın 22-də Zəngilan rayonunun Turabad kəndində anadan olmuşdu. 1975-ci ildə Mincivan qəsəbə orta məktəbini bitirdikdən sonra sovet ordusu sıralarına xidmətə çağırılmışdı. O, hərbi xidmətini başa çatdırdıqdan sonra Saratov vilayətinin Krasnokutsk şəhərindəki təyyarəçilik məktəbinin mülki aviasiya şöbəsinə daxil olmuşdu.

Əsəd 1991-ci il oktyabrın 29-da doqquz nəfər döyüşçü ilə birlikdə Qarabağ istiqamətində səmaya qalxmışdı. Xocalı aeroportunu erməni işğalçılarından müdafiə etməyə can atan döyüşçülər Xanabad kəndi üzərindən uçarkən düşmən tərəfindən güclü atəşə tutulmuşdu. Azərbaycanın mərd, mübariz oğlu, cəsur komandir Ə.Əsədov elə həmin uçuş zamanı heyət üzvləri ilə birlikdə həlak olub.

Ailəli idi. Dörd övladı var.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 nömrəli Fərmanı ilə Əsədov Əsəd Soltan oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Zəngilan rayonunda dəfn olunub. Təhsil aldığı Turabad kənd orta məktəbi və Mincivan qəsəbəsindəki mərkəzi küçələrdən biri onun adını daşıyır.

## Əmirov Faiq İsfəndiyar oğlu



1975-ci il iyunun 22-də Zaqatala rayonunun Bəhmədli kəndində anadan olmuşdu. 1992-ci ildə doğma kəndlərindəki orta məktəbi bitirmişdi. Hələ orta məktəbdə oxuyarkən, 1988-ci ildən başlayaraq baş vermiş hadisələr onun psixoloji durumuna hədsiz təsir etmiş, onu vətənpərvər övlad kimi yetişdirmişdi. 1993-cü ildə Milli Ordu sıralarına çağırılmışdı. O, həmin dövrdə erməni təcavüzkarlarına qarşı doğma Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın Füzuli, Tərtər, Ağdərə bölgələri uğrunda gedən ağır döyüşlərdə böyük fədakarlıqla iştirak etmişdi.

1995-ci ilin martında dövlət çevrilişinə cəhdin qarşısının alınmasında Faiqin xidmət etdiyi batalyon da iştirak etmişdi.

F.Əmirov 17 mart 1995-ci ildə Azərbaycan Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 nömrəli Fərmanı ilə Əmirov Faiq İsfəndiyar oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Bəhmədli kənd qəbiristanlığında dəfn olunub. Zaqatala şəhərindəki küçələrdən biri onun adını daşıyır.

## Əsədov Malik Hamil oğlu



1962-ci il iyunun 27-də Yevlax rayonunun Havarlı kəndində anadan olmuşdu. 1979-cu ildə kəndlərindəki orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağırılmışdı. Hərbi xidmətini Qazaxıstanda başa çatdırmışdı. O, Mingəçevir şəhər 45 nömrəli Müstəqil Hərbiləşdirilmiş Yanğından Mühafizə hissəsində əmək fəaliyyətinə başlamışdı. Erməni işğalçılarına qarşı Xocalı, Əsgəran, Ağdam uğrunda gedən döyüşlərdə iştirak etmişdi. Malik 1992-ci il yanvarın 12-də silahlı döyüşçülərlə birlikdə Şuşanın müdafiəsinə yollanmışdı. Yanvarın 18-də ermənilər Şuşanın Nəbilər kəndinə hər tərəfdən hücuma keçmişdi. Azərbaycanın bu cəsur oğlu həmin hücum zamanı ağır yaralanmasına baxmayaraq, işğalçı düşmənin bir neçə canlı qüvvəsini məhv etmişdi.

M.Əsədov elə həmin döyüşdə qəhrəmancasına həlak olub.

Ailəli idi. Üç övladı var.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 nömrəli Fərmanı ilə Əsədov Malik Hamil oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Doğulduğu Havarlı kəndində dəfn olunub. Təhsil aldığı kənd orta məktəb onun adını daşıyır. Həmin məktəbdə və Mingəçevir şəhərində — işlədiyi idarənin önündə büstü qoyulub.

## Əsədov Rəfael Əvəz oğlu



1952-ci il oktyabrın 27-də Gəncə şəhərində anadan olmuşdu. 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Tbilisi Ali Artilleriya Məktəbinə daxil olmuşdu. Rəfael 1973-cü ildə hərbi məktəbi bitirərək, təhsilini Leninqrad Hərbi Artilleriya Akademiyasında davam etdirmişdi. O, burada təhsilini başa çatdırdıqdan sonra SSRİ Silahlı Qüvvələrinin tərkibində Macarıstan, Vyetnam və Əfqanıstanda qulluq etmişdi.

R.Əsədov 1991-ci ildən Ağdam, Goranboy, Tovuz və Gədəbəy bölgələrində erməni işğalçılarına qarşı hazırlanmış hərbi əməliyyatların fəal iştirakçısı olmuşdu. Cəsur komandir 1992-ci il noyabrın 12-də Ağstafa bölgəsində növbəti əməliyyata hazırlıq zamanı döyüş bölgəsinə nəzarət edərkən, yaxınlıqda partlayan mərmi qəlpələrindən həlak olub.

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 nömrəli Fərmanı ilə Əsədov Rəfael Əvəz oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Bakıda Şəhidlər xiyabanında dəfn olunub.

Milli Qəhrəmanlar
Beynəlxalq İnformasiya
Mərkəzinin materialları əsasında
hazırladı: Ədalət DAŞDƏMİRLİ



# HƏZRƏT ƏLİ ƏLEYHİSSALAM



Elm və hikmət qütbü Həzrət Əli Əleyhissalam atına minməyə hazırlaşarkən, bir ayağı yerdə, o biri ayağı üzəngidə olduğu halda bir yəhudi riyaziyyatçı ona sual verir:

-Ya Əli, mənə elə bir ədəd de ki, 1-dən 10-a qədər bütün rəqəmlərə qalıqsız bölünsün.

Həzrət Əli üzünü yəhudi aliminə çevirərək:

- İstədiyin ədədi tapa bilsəm, müsəlman olarsanmı?

-Bəli, olaram!

- Onda həftənin günlərini vur çevrənin tam dərəcəsinə! – deyib atına minir.

Yəhudi 7-ni 360-a vurub, 2520 ədədini alıb, sonra onu növbə ilə, 2,3,4,5,6,7,8,9,10-a bölüb qalıqsız qismət alıb.

Yəhudi alimi İslamı qəbul edib.

***

Bir gün Rəsuli-Əkrəmin səhabələrindən 10 nəfər şərtləşirlər:

- Elmin maldan üstün olduğunun səbəbini hər birimiz ayrı-ayrılıqda Həzrət Əlidən soruşaq. Görək hər birimizə ayrı-ayrı cavab verə biləcəkmi?

Şərtləşdikləri kimi hər biri Həzrət Əlinin hüzuruna varıb soruşdular:

-Ya Əmirəlmöminin! Elmin maldan nə üçün üstün olduğunu bizə izah edə bilərsənmi?

Elm və hikmət qütbü belə cavab verir:

- Elm peyğəmbərlərdən, mal isə Harun və Faraonlardan qalıb!

İkinciyə:

- Elm sahibini, malı isə sahibi qoruyar!

Üçüncüyə:

- Elm sahibinin dostu, mal sahibinin isə düşməni çox olar!

Dördüncüyə:

- Xərclədikcə elm artar, mal isə azalar!

Beşinciyə:

- Elm sahibi tərifli ünvanlar, mal sahibi isə simic və xəsis kimi ad qazanar!

Altıncıya:

- Elmin oğrudan qorunmasına lüzum yoxdur, malı isə qorumaq vacibdir!

Yeddinciyə:

- Zaman keçdikcə elm cilalanar, mal isə çürüyüb məhv olar!

Səkkizinciyə:

-Elm qəlbi qüvvətləndirər, mal isə zəiflədər!

Doqquzuncuya:-Elm təvazökarlıq, mal isə





lovğalıq yaradar!

Onuncuya:

- Elm insanlarda mərhəmət, mal isə xəbislik doğurar!

Və əlavə etdi:

- Nə qədər ki, ömrüm var, gəlib elm haqqında nə soruşsanız hər birinizə hər gəlişinizdə başqa-başqa cavablar verəcəyəm, inşallah!

***

Bir gün başqa səhabələr dəstəsi yenə də şərtləşərək Həzrət Əlidən soruşurlar:

- Ya Əli, göydən daha ağır, yerdən daha geniş, dənizdən daha zəngin, daşdan daha sərt, atəşdən daha isti, buzdan daha soyuq, zəhərdən daha acı nə var?

Əli Əleyhissalam bu cavabı verdi:

- Təmiz və namuslu adama böhtan atmaq göydən daha ağırdır, haqq yerdən daha genişdir, qənaətkar adamın qəlbi dənizdən daha zəngindir, yalançının ürəyi daşdan daha sərtdir, zalım və ədalətsiz hökmdar atəşdən daha artıq yandırıb yaxar, səbr buzdan daha soyuqdur, ikiüzlülük zəhərdən də acıdır.

***

Yenə bir gün Əlinin xəlifəliyi dövründə onun hüzuruna iki kişi gəlir və nisbətən gənc olanı deyir:

-Ya Əli, bu adam röyada mənim anamı görərək, qüsl etməyə möhtac halına düşmüşdür. Haqqında islamiyyət baxımından nə kimi cəza lazımsa, icra buyurun.

Həzrət Əli dərhal belə bir əmr verdi:

- Şikayət olunanı üzü günəşə qarşı tutun və kölgəsinə yüz qılınc vurun. Bundan sonra yuxuda hər gördüyünü hər adama danışmasın.

...Şikayətçinin heyrətdən ağzı açıq qalır. «Filankəs filankəsin kölgəsini qılınclayır» misalı oradan qalıb.

***

Bir dəfə Həzrət Əli minbərdə xütbə icra edirdi. Məclisdəkilərdən biri nə isə soruşdu. Həzrət Əli cavab verdi:

- Bu haqda mən heç nə eşitməmişəm və heç nə bilmirəm.

Həmin adam qəzəblə dedi:

- Qalxdığın minbər cahillərin yeri deyil!

Əli xoş təbəssümlə:

- Minbər bir şeyi bilən və bir şeyi də bilməyənlərin yeridir. «Hər şeyi bilirəm», deyənlərin yeri deyil.

***

Bir gün şəhər kənarında bir qatıra süvar olmuş Həzrət Əliyə sırtığın biri rişxəndlə:

-Ya Əli, sən ki, Allahın Aslanısan, belə bir qatıra minmək sənə yaraşarmı?

Həzrət Əli:

- Hücum edənin qabağından qaçmayacaq qədər, qabağından qaçana hücum etməyəcək qədər alicənab olduqdan sonra Allahın bəndəsinə belə qatır da yetər.

***

Həzrət Əli adamlar haqqında deyirdi:

- Adam var ki, bilmir, bilmədiyini bilmir. Adam var ki, bilmir, bilmədiyini bilir. Adam var ki, bilir, bildiyini bilmir. Adam var ki, bilir, bildiyini bilir...

Bunu riyazi işarə kimi yazsaq, təqribən belə yazılar:

«-; -» «-;+» «+; -» «+;+»



Açması: Birincilər nadan adamlardır, onlardan uzaq olun. İkincilər yaxşı adamlardır, onlara kömək edin. Üçüncülər yuxudadırlar, onları oyatmaq lazımdır. Dördüncülər böyük adamlardır, onları qoruyun.

***

Din uğrundakı döyüşlərin birində adlısanlı düşməninə qalib gələn Həzrət Əli onun başını kəsmək istəyərkən düşməni onun üzünə tüpürür. Böyük ürək sahibi Həzrət Əli ayağa durub qılıncını qınına qoyur və deyir:

- Dur, rədd ol burdan. Əgər mən səni indi öldürsəm, xalq elə bilər ki, mənim üzümə tüpürdüyün üçün səni öldürürəm.

***

Həzrət Ömər bu sözləri təkrar etməyi sevərdi: «Əgər birinci dəfə sən məni aldatsan, Allah sənə lənət etsin, ikinci dəfə aldatsan, Allah mənə lənət etsin».

***

Həzrət Ömər xəlifə olduğu dövrdə günah işlətmiş ruhi xəstə olan bir qadının qətlinə fərman vermək istəyərkən, Həzrət Əli xəlifənin bu əmrinə qarşı çıxaraq mehribanlıqla:

-Ya Ömər, Allah yuxuda olanı, uşağı, bir də ruhi xəstəni əməllərinə görə sorğusuala tutmaz.

Həzrət Ömər:

-Əgər Əli olmasaydı, Ömər həlak olardı, - dedi və sonra ağlayaraq əlavə etdi:

- Əli bizim ən böyük qazimizdir!

## Həzrət Əlinin kəlamlarından:

Həzrət Əlinin yazdığı şeirlər, söylədiyi xütbələr ərəb ədəbiyyatının ən gözəl nümunələridir. Onlardan bir neçə misal:

...Elmsiz ibadətə, təfəkkürsüz quran oxuyanlara fayda yoxdur.

...Batilin hökmü bir saat, haqqın hökmü qiyamətə qədərdir.

...Qəlbin şəfası Quran oxumaqdır.

...Ümidsiz olmaq, günahların ən böyüyüdür.

...Allah kəlamı qəlbin dərmanıdır.

...Nəfsindən qaç, bu aslan hücumundan qaçmaqdan daha faydalıdır.

...Nəfsinə düşmən ol, rahat olarsan.

...Xoşbəxt insan başqasından ibrət alandır.

...Yetim atası olmayan deyil, elmi və ağlı olmayandır.

...Mənə bir hərf öyrədənin köləsiyəm.

...Elmli gənc, nadan ağsaqqaldan xeyirlidir.

...Elm məclisləri cənnət bağçalarıdır.

...Ataların övladları üçün qoyduqları mirasın ən şərəflisi elm və ədəbdir.

...Elm dünyanın ən zəngin xəzinələrindən qiymətli olduğu halda havayı alınır və havayı satılır.

...Bilməklə bərabər bilmədiyini də bilməyib, özünü alim sayanlardan həzər.

...Ən gözəl ədəb - əxlaq, ən şiddətli yoxsulluq -axmaqlıq, ən vəhşi — vəhşət - özünü bəyənmək, ən zəngin dövlət isə elm və ağıldır.

...Ağıl kimi dövlət, gözəl xasiyyət kimi dost, ədəb kimi miras, əxlaq kimi rəhbər, elm kimi şərəf yoxdur.







***Oxucularımızın arzusunu nəzərə alaraq yazıçı-publisist Nizami Mirzənin ümumilikdə Qarabağ hadisələrinin başlanma səbəbini açıqlayan, erməni təcavüzkarları tərəfindən xalqımızın başına gətirilən müsibətlərdən söz açan, qəhrəman Azərbaycan əsgərinin vətənpərvərliyini ön plana çəkən, Azərbaycanın qara tarixi kimi heç vaxt unudulmayacaq Xocalı soyqırımında vəhşicəsinə qətlə yetirilmiş soydaşlarımızın xatirəsinə ithaf etdiyi «Sarıca» povestini jurnalımızın bu nömrəsindən başlayaraq hissə-hissə dərc edib oxucularımıza çatdıracağıq.***

# SARICA

## Povest

*Xocalı soyqırımında vəhşicəsinə qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsinə ithaf edirəm*

Fevral ayının axırları idi. Axşamın düşməsinə az qalırdı. Qüruba enməyə hazırlaşan günəşin qırmızımtıl şüaları altında təbiət miskin bir görkəm almışdı. Dünən axşamdan sübhə qədər atılan güllələrin, partlayan mərmilərin səs-küyündən başı açıq, ayağı yalın qaçan adamların hay-harayından gecənin yuxusuna haram qatılmışdı. Sübhə qədər "çimir" etməyən, gecə törədilmiş misli görünməyən vəhşiliklərdən bezmiş, təngə gəlmiş, yorulmuş təbiət sanki, şirin yuxuya getmişdi. Hər tərəfdə dərin bir sükut hökm sürürdü. Yalnız, yaxınlıqdan axan dağ çayının şırıltısı, bir də ara-sıra budaqdan-budağa qonan qaratoyuqların, sərçələrin cikkiltisi eşidilirdi. Aradan xeyli vaxt keçsə də, hələ barıt qoxusu çəkilib getməmişdi. Bir həftə bundan qabaq yağmış qalın qar ötən vaxt ərzində tam əriməmiş, bəzi yerlərdə ala-tala qalmışdı. Qarın əridiyi yerlərdə qalmış nəmişlik isə şaxtadan donub buz bağlamışdı. Yaxınlıqdakı talada qılınc kimi kəsən şaxtadan qrov bağlamış şirgil, qaratikan, böyürtkən kolları batmağa hazırlaşan günəşin şüaları altında bərq vurur, ətrafa səpələnmiş iri büllur vazalara bənzəyirdi.

Düşmən gülləsinə tuş gəldiyindən yaralanmış Azərbaycan əsgəri talanın qırağındakı yamacda, dağətəyi meşədə, iri, qollu-budaqlı palıd ağacının altında, qaratikan kolunun yanında arxasıüstə yerə uzanmışdı. Güllə onun sol qıçını budundan yaralamış, qabaqdan girib arxadan çıxmışdı. Açılmış güllə yarasından qan fışqırır, dayanmaq bilmirdi. Boynundakı yun şərflə qıçını sıxıb bağlasa da, bir fayda verməmişdi. Şalvarının belindəki ensiz, dəri kəməri çıxarıb yaralı qıçını dibdən gücü gəldikcə sıxıb bağlamışdı. Bundan sonra qanaxma tədricən dayanmışdı. Bir də qanaxmanın səngiməsinə havada olan şaxta, sazaq da kömək etmişdi. Hava isti olsaydı bəlkə də axan qanın qarşısını almaq mümkün olmayacaqdı. Havadakı şaxta axan qanın donub laxtalanmasına kömək etmişdi. Tanımadığı, bələd olmadığı bu qərib yerdə tənha qalmış yaralı əsgər ümidini təkcə Allaha bağlayır, ondan kömək diləyirdi. Uzandığı meşəlik hündürdə olduğu üçün sağ tərəfdə, aşağıda yerləşən tala açıq-aydın görünür və həmin talada bir ins-cins gözə dəymirdi. Onu əsgər yoldaşları mütləq axtarmalı, tapmalı idilər. Lakin bu vaxta kimi heç kəs gəlib çıxmamışdı. Bəlkə onu unutmuş, yaddan çıxarmışdılar. Və bəlkə onlar da yaralanmış yoldaşlarını hissəyə



apararkən yolda düşmən gülləsinə tuş gəliblər?! Bütün bunları düşündükcə, həyatın müdhiş sınaqlarından təzəcə keçməyə başlayan, hələ ki bərkdən-boşdan çıxmayan gənc yaralı əsgər dəhşətə gəlirdi. Yaralı ayağı ona yeriməyə imkan vermirdi. Sürünə-sürünə gedib hissəyə çatmaq mümkün deyildi. Bir də yaralı, şişib kötüyə dönmüş qıçına xırda bir şey toxunanda belə, ona olmazın ağrı verirdi. Hər yerdən əli üzülən əsgər ümidini ilahi tərəfindən ona "pay" göndərilmiş, səhərdən onun keşiyini çəkən, ona qahmar çıxan, onu qurd-quşdan qoruyan yanındakı itə bağlamışdı. Ömrü boyu qorxduğu şey tənhalıq olub. Harada olmasından asılı olmayaraq, istər evdə, istərsə də çöldə, ancaq tənhalıqdan qorxmuş, tənhalıqdan bezmiş, həmişə insanlar arasında olmağı sevmiş və buna vərdiş etmişdi. Əgər indi bu it onun yanında olmasaydı, ən azı başına hava gələr, dəli ola bilərdi. Özü də bu it başqa itlərə bənzəmirdi, istiqanlığı, "ağıllı" hərəkətləri ilə əsgəri valeh etmişdi. Qızılı, sarı, qəhvəyi rəngli ipək kimi yumşaq tükü ona çox yaraşır, qara gözlərindən bir məyusluq yağır, sir-sifətində mehribançılıq görünürdü.

Bugünkü soyuğu nəzərə alan əsgər atasının bir həftə bundan qabaq ona gətirdiyi kürkü əyninə geyinmişdi. Əyninə dar gəldiyi üçün kürkün düymələrini bağlaya bilmədiyindən sinəsi açıq qalmışdı. Lakin arxadan böyrəklərini, belini, kürəyini yerin nəmişindən, soyuğundan qoruyan bu kürk indi onun dadına çatmışdı. Həmin kürkü bir neçə il bundan qabaq atası ona hədiyyə etmişdi. Böyüyüb ətə-qana dolandan sonra bu kürk ona dar gəldiyi üçün geyinmirdi.

Şaxta qılınc kimi kəsirdi. Daldanacaq yer seçsə də, əsən mülayim meh bura da sirayət edirdi. Altdan paltar geyinsə də, düymələri açıq qalmış kürkün yaxalığından sinəsinə soyuq işləyirdi. Bayaq yaranın üstünə sarıdığı yun şərfi açıb boynuna dolamaq istədi, lakin yaranın soyuq çəkəcəyindən ehtiyat edib, bu fikrindən vaz keçdi. Onsuz da laxtalanmış, qaysaq bağlamış yarası ona olmazın əziyyət verirdi. Çoxlu qan itirdiyi üçün qüvvədən düşmüşdü. Sol qolu sözünə baxmırdı, tamam keyimişdi. Elə buna görə də əlini işlədə bilmirdi. Sözünə baxan təkcə sağ əli idi. Əlini qaldırıb sinəsini ovuşdurmaq, qızdırmaq istədi. Altdan geyindiyi paltarın düymələrini yoxladı, hamısı yerində, bağlı idi. Əlini alnına apardı, alnı od tutub yanırdı. Deməli, hərarəti qalxmışdı. Ümidi hər yerdən üzülməyə başladı. Aradan beş-altı saat keçsə də onu hələ arayıb axtaran yox idi. Ya gələn olmamışdı, ya da yerini tapa bilmirdilər. Hər halda ins-cins hənirtisi duyulmur, səsi eşidilmirdi. Başını yana çevirdi, bir az aşağıda aydınca görünən talaya diqqət yetirdi. Kimsə gözə görünmürdü. Qəhərləndi, kimsəsizliyini, tənhalığını, köməksizliyini dərk etdi. Burada ölüb, qalacağından üşərgələndi. İmdad diləyən baxışlarla onu bir an tək buraxmayan yanındakı itə baxdı. İt əsgərin üşüdüyünü hiss edirmiş kimi ona yaxınlaşdı. Qalxıb onun sinəsi üstə uzandı, qabaq ayaqlarını əsgəri qucaqlayırmış kimi boynuna doladı, üz-gözünü yalamağa başladı. İtin qarnının altından, sinəsindən əsgərin bədəninə bir hərarət yayıldı, qızınmağa başladı. Boyun-boğazında, yanaqlarında, sifətində dolanan itin isti nəfəsi, dilinin hərarəti onu dirçəltdi, onda yaşamaq ümidi, yaşamaq həvəsi oyatdı. Bu qeyri-adi heyvanın boynunu qucaqladı. Əsgər sağ qalarsa, bu ağır günündə, ölümlə-həyat arasında çarpışdığı bir zamanda ona qahmar çıxan, onu tək qoyub getməyən, tanımadığı bir əsgəri, qurd-quşdan qoruyan bu itin "borcundan" çıxacağına and içdi. Və yenidən itin boynunu qucaqladı.

Şıqqıltı eşidildi. İt başını qaldırdı, qulaqlarını şəkləyib ətrafı dinşədi. Sağa-sola boylansa da, gözünə heç kim, heç nə dəymədi. Yenidən şıqqıltı səsi gəldi. Əsgərin üstündən cəld bir hərəkətlə yerə düşən it yaxınlıqdakı kol topasının arxasına keçdi, yerə sinərək ətrafa göz gəzdirdi. Və birdən on-on beş metrlik məsafədə, ağacın dibini eşələyən vəhşi qabanı gördü. Bir-iki ağız hürdü. İtin səsindən hürküyə

düşmüş qaban sürətlə qaçaraq oradan uzaqlaşdı. İt yenidən əsgərin yanına qayıtdı, ona yaxınlaşaraq əlini yaladı. Bayaqdan bu mənzərəni seyr edən əsgər riqqətə gəlmiş, bu dilsiz, ağızsız heyvanın etibarına məəttəl qalmışdı. Sağ əli ilə itin başına sığal çəkdi:

- Məni qoruyursan, qayğıma qalırsan, qurda-quşa yem olmağıma imkan vermirsən, - dedi: - Sən bilirsən - deyə əlavə etdi - çöl donuzu da, özü də vəhşi qaban ola, insanı didib parçalayır, yeyir. Bəlkə elə o qabana yem olacaqdım. Ancaq elə bircə hürüşünə qaçıb rədd oldu.

Əsgər yenidən itin başını sığalladı. İt mehribanlıqla zingildəyib onun boyun-boğazını yaladı. Üşüdüyünü hiss edib, əli ilə sinəsini itə işarə verdi. Onu çağırdı. İt yenidən əsgərin sinəsi üstə uzanıb bədəninin hərarəti ilə onu qızdırmağa başladı. Hərarəti getdikcə qalxır, şişib kötüyə dönmüş yaralı qıçının zoqqultusu ona olmazın əzab verirdi. Hər keçən saniyə və dəqiqə günə, aya, ilə dönürdü. Artıq səbri tükənmiş, gözləməyə, dözməyə taqəti qalmamışdı. Lakin heç kimin hənirtisi gəlmir, kimsə gözə görünmürdü. Taleyi ilə barışmağa məcbur olmuşdu, mehrini yeganə ümid yeri olan bu itə salmışdı. Az-çox bu heyvana arxalanır, onu qoruyacağına ümid edirdi.

Aradan xeyli vaxt keçmişdi. Ayaq altında qalaraq sınan çör-çöpün şıqqıltısı eşidildi. İt dərhal başını qaldırıb qulaqlarını şəklədi, ətrafı dinşəməyə başladı. Bir an keçmiş hənirti, boğuq danışıq səsləri gəldi. Arxaya boylandı, xeyli aralıdan gələn qaraltını görüncə əsgərin sinəsi üstündən yerə sıçrayıb bir metr aralıqdakı palıd ağacının yoğun gövdəsi arxasında gizləndi.

Başını zorla qaldırıb qabağa baxan əsgər insan qaraltısını görüb sevindi. İti səslədi:

- Qorxma -dedi -Bizimkilər olacaq, yəqin məni axtarırlar. Ağacın gövdəsi arxasından, yerə sinmiş vəziyyətdə başını əsgərə göstərən it zingildədi, yenidən geri çəkilərək görünməz oldu.

İki nəfər saqqallı, əli avtomatlı erməni əsgəri yaxınlaşmaqda idi. Biri qabaqda, digəri isə onu mühafizə etmək üçün 10-15 metr arxadan gəlirdi. Hər ikisi avtomatını hazır vəziyyətdə tutaraq, kimisə axtarırdılar. Qabaqda gələn erməni arxası üstə yerə uzanmış Azərbaycan əsgərini gördü. Ehtiyatlı addımlarla ona yaxınlaşdı. Azərbaycan əsgəri başını yana çevirib bura sürünərkən lazımsız bir şey kimi yerə atdığı xəzinəsi boş, içi gülləsiz avtomatına baxdı. Düşmənlə üz-üzə gəlməyə, döyüşməyə nə atılacaq gülləsi, nə də taqəti vardı. Ömür payının burada bitdiyini düşünən əsgər son ümidini kürkünün döş cibində gəzdirdiyi fin bıçağına bağladı. Əsgər əsir aparılarsa, həmin bıçağı ürəyinin başına soxmalı, özünü məhv etməli idi. Erməni ona yaxınlaşıb:

-Ara, kopak oğlu, düz altı nafarımızı oldurdun. Sonra sani yaraladıq, yaralandığını yıxıldığından bildıx. Düz dörd saatdır sani axtarırıx. Axır ki, tapdıq. Ara, gic musrman, sanin bu yerlarda na ölimin var ki, indi bu guna duşmusan. Ara, bilmirsan ki Qarabax bizimdı. Bilmirsan ki, ela Azarbaycan da bizim olacax. Maşallax yaxşı boyunbuxunun var. Yaxşı da sağlam əzaların olar. İndi bilirsan, üraxın, böyraxın biri neçayadır. Sani aparıb sağaldacayıq. Sonra hər əzanı, badaninin uzvularını xarici kapitalistlara, milyonlara satacağıq -dedi və rişxəndlə bərkdən güldü.

Azərbaycan əsgəri sağ əlini qaldırdı, baş barmağını şəhadət barmağı ilə orta barmağının arasına keçirib əlini yumdu, yumruğunu ona göstərib: -Ala, -dedi, -bunu yeyirsiz.

Ağacın gövdəsi arxasından başını azacıq çıxararaq bu mənzərəni bayaqdan izləyən itin hirsdən ipək kimi yumşaq tükləri qabarmış, biz-biz durmuşdu, burun pərələri geniş açılmış, səyrimiş dodaqları arasından görünən qılınc kimi iti dişləri kimisə didib parçalamağa hazır idi. Və arxada olduğu üçün gözlərini erməni əsgərinin kürəyinə dikmişdi. Görən gücü çatacaqmı?

-Yaxşı, ara, it oqlu it, özün gedacaxsan, yoxsa sani it leşi kimi surumalı olaçağıq -deyən erməni əsgəri yaxınlaşıb yerdə



uzanmış əsgərin yaralı qıçına bir təpik vurdu. Ağrıdan az qala bayılacaq Azərbaycan əsgəri özünü tox tutmağa çalışdı. Dilini dişinə tutub:

-Mənim ancaq meyitimi apara bilərsiz. Çörəyi tapdayan nankor it uşağı -dedi. Və özünü bıçaqla vurmaq üçün əlini döş cibinə apardı. Onun cibindən silah çıxaracağını yəqinləşdirən erməni onu vurmaq üçün barmağını bayaqdan ona tuşladığı avtomatının tətiyinə apardı.

Elə bu an arxadan kürəyinə atılan it ağzını geniş açaraq iti dişlərini ermənininin boyun əzələlərinə keçirib gücü gəldikcə sıxmağa başladı. Müvazinətini saxlaya bilməyən saqqallı pəzəvəng arxası üstə yerə, itin üstünə yıxıldı. Tətiyi çəkməsi ilə yıxılması eyni anda baş verdiyi üçün avtomatın od saçan lüləyi arxadan gələn yoldaşına tuşlandığından, aramsız açılan güllələr ikinci saqqallını ermənini cəhənnəmə vasil etmişdi. Yerə yıxılmış erməni boynunu heç vəchlə bu vəhşiləşmiş heyvanın ağzından qurtara bilmirdi. Boynuna batmış diş yerlərindən qan fışqırır, ətrafa tökülərək şaxtadan donub ət parçalarına oxşayan laxtalar əmələ gətirirdi. Yıxılanda qolu nəyəsə dəydiyindən əlindən çıxaraq kənara sürüşmüş avtomata can atsa da, əli ona çatmırdı. Boyun damarlarına yerimiş iti dişlər onda qan qoymamışdı. Nə qədər çabalasa, əl-qol atsa da, itdən canını qurtara bilmədi. Taqətdən düşdüyü üçün süstləşdi. Sakit uzanaraq canını tapşırmağa, həyatla vidalaşmağa məcbur oldu. Onun süstləşdiyini görən it boynunu buraxaraq qarşıya keçdi. Üz-üzə, göz-gözə gəldilər. Erməni iti görüncə tanıdı. Tanıdı və dəhşətə gəldi. Dörd-beş il bundan qabaq təpiyi ilə vurub ot tayasının altına atdığı həmin küçük idi. İt də onu bura yaxınlaşarkən tanımışdı. Düşmənindən intiqam almaq, Azərbaycan əsgərini xilas etmək üçün bütün gücünü toplamış və buna nail olmuşdu.

Erməni əsgəri əlini qaldırıb qan dolmuş gözlərini ona zilləmiş iti boğmaq istədi. Lakin heyi çatmadı. Bunu duyan it onun qana boyanmış boğazını ağzına keçirib çeynəməyə başladı. Yenidən asta hərəkətlə əl-ayaq tərpədən saqqallı xırıldayaraq son nəfəsini verdi. Canını tapşırdı.

Düşmənini cəhənnəmə vasil edəndən sonra hirslə, hikkə ilə "alışıb yanan" it Azərbaycan əsgərinə yaxınlaşıb onun ayaqları önündə dayandı. Bayaqdan itin hərəkətlərini izləyən və gözlərinə inanmaq istəməyən əsgər bu qeyri-adi heyvana diqqətlə baxdı. Durub onu bağrına basmaq, qucaqlamaq, üzgözündən öpmək, əzizləyərək minnətdarlığını bildirmək istədi. Yerindən tərpənməyə heyi çatmadı. Və bir də bayaq mehribanlıq yağan bu itin siması tamam dəyişmiş, ipək kimi yumşaq, hamar tükləri qabararaq biz-biz durmuş, böyürərək az qala hədəqəsindən çıxacaq gözləri qızarmış, hirsdən, hikkədən səyrimiş dodaqları arasından görünən qılınc kimi iti dişləri, qana bulaşmış cəhəngləri adamı vahiməyə salırdı. Hələ də heyvanın ağzından, cəhənglərindən düşmən qanı damcılayaraq yerə tökülürdü.

Şəhərdə doğulub boya-başa çatsa da, hərdən rayona, qohumlarıgilə gedirdi. Və bir dəfə kənddə ahıl bir kişinin quduzlaşmış it haqqındakı söhbətini xatırladı. "Dişi qana batmış it quduzlaşar, sonra kimisə didib parçalamaq istəyir və kimi dişləsə o da quduz olar, vaxtında müalicə olunmasa vəziyyəti ağırlaşar, bu hal ölümlə nəticələnə bilər". Bunları düşündükcə qorxdu.

İtin hirsi-hikkəsi soyumaq bilmirdi, Azərbaycan əsgərinə və onun yanında yerə atılmış avtomat silaha nifrətlə baxırdı. İmkanı olsaydı yer üzündəki bütün silahları məhv edər, əlinə silah alıb başqalarını qanına qəltan edənləri didib parçalayardı.

İtin son hərəkətlərindən, nifrət dolu baxışlarından əsgər üşərgələndi. "Yağışdan çıxdıq, yağmura düşdük" deyə fikirləşdi. Bayaq həyatını təhlükə qarşısına qoyaraq onu xilas etmək üçün düşməni məhv edən bu heyvan indi onun özünü parçalamaq istəyir?!

Həyatından çox istədiyi sevgilisinin son, "səni oralarda qurdquş yeyəcək" sözlərini xatırladı. Xəyal onu doğma şəhəri Bakıya, evlərinə, ata-anasının və bir də sevgilisinin yanına apardı...

***(Ardı gələn nömrəmizdə)***





# Tiflopedaqogika

**Dilarə Əlimuxtarqızı Dostuzadə 1946-cı ildə Bakının qədim Türkan qəsəbəsində doğulub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur. 100-dən artıq elmi əsərin, proqram, dərslik, dərs vəsaiti, metodik tövsiyə, monoqrafiya və məqalənin müəllifidir. «Əməkdə fərqlənməyə görə» medalına layiq görülüb. 1979-cu ildən indiki sağlamlıq imkanları məhdud respublika 3 nömrəli karlar internat məktəbində müəllim işləmişdir. 1990-cı ildən ETPEY-də «Əmək təlimi və peşəyönümü» şöbəsində elmi işçi, böyük elmi işçi vəzifəsində çalışmışdır.**

2001-ci ildən Təhsil Problemləri İnstitutunun (Təhsil İnstitutu) Xüsusi təhsil şöbəsinin, 2008-ci ildən İnklüziv təhsil şöbəsinin böyük elmi işçiçi, 2011-ci ildən isə aparıcı elmi işçi kimi fəaliyyət göstərir. 1993-2003-cü illərdə BPKU və UHJ-də defektoloq-metodist işləmişdir. 2011-ci ildən pedaqogika üzrə fəlsəfə doktoru, dosentdir. Hazırda elmlər doktoru proqramı üzrə tədqiqatlar üzərində işləyir.




«Tiflopedaqogika» - Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) mətbəəsində işıq üzü görmüş yeni dərs vəsaiti belə adlanır. Bəri başdan onu da qeyd edim ki, dərslik 5 nömrəli Respublika tam orta təhsil internat məktəbində (gözdən əlil) pedaqoji şurada müzakirə edilmiş, 8 sentyabr 2013-cü il tarixli iclasının qərarı ilə təsdiq olunmuş və nəşri məsləhət bilinmişdir. Kitabın müəllifləri Dilarə Dostuzadə və İradə Quliyevadır. İxtisas redaktoru pedaqogika üzrə fəlsəfə doktoru, defektoloq Nailə Hüseynova; rəyçilər professor, ATİ-nin elmi məsləhətçisi Yəhya Kərimov; İbrahim Bayramov professor, ADPU-nin magistratura və doktorantura şöbəsinin müdiri; Fuad Abbasov tibb elmləri doktoru, dosent, Z.Əliyeva adına Göz İnstitutunun oftalmoloqu.

Kitab sağlamlıq imkanları məhdud uşaqlar üçün ali məktəblərdə tədris olunan dərs vəsaitidir. Dərs vəsaiti müasir elmin, pedaqoji-psixoloji və tibbi praktikanın nailiyyətləri nəzərə alınaraq tərtib edilmişdir. «Tiflopedaqogika» girişdən və 9 fəsildən ibarət olub, tiflopedaqogikanın tarixindən, görmə orqanlarının anatomik-fizioloji xüsusiyyətlərindən, görmə analizatoru, göz almasının anatomiyasından, görmə xəstəliklərindən və təlim prosesində onların nəzərə alınması metodlarından bəhs olunur.

«Tiflopedaqogika» vəsaitinin ilk səhifəsində korların istifadə etdiyi Brayl əlifbası, arxa səhifədə isə Azərbaycan əlifbası dərc edilmişdir.

Kitabın girişində müəllif qeyd edir ki, dünyanın bir çox ölkələrində, o cümlədən respublikamızda göz xəstəlikləri olan uşaqların sayının get-gedə artması müşahidə olunur. Buna səbəb irsi xəstəliklər və valideynlərin spirtli içkilər, narkomaniya ilə məşğul olmaları, ətraf mühitin çirklənməsi və s. hallardır. Əsas səbəblərdən biri və bəlkə də başlıcası isə ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri ağlasığmaz faciələr, məcburi köçkünlük, gərginlik, uşaqların öz valideynlərini itir-



məlşəri, çadır şəhərciklərində qeyri-normal həyat yaşamaları kimi amillərdir.

Qeyd etdiyim kimi, dərs vəsaiti 9 fəsildən ibarətdir. I fəsildə “Tiflopedaqogika nədir?” sualına belə cavab verilir:

Tiflopedaqogika – görmə qüsurlu uşaqların təlim-tərbiyəsi ilə məşğul olan elmdir. Tiflopedaqogika defektologiyanın bölmələrindən biridir, dialektik materialist fəlsəfi əsaslarla inkişaf edir.

Tiflopedaqogikanın təbii elmi əsasını İ.M.Seçenovun və İ.P.Pavlovun ideyaları təşkil edir. Bu elm bir sıra mühüm problemləri: kor və zəif görən uşaqların hərtərəfli inkişaf sistemini, xüsusi məktəb şagirdlərinin təliminin əməklə bağlamaq prinsipləri, belə şagirdlərin tərbiyəsi, həyata və əməyə bağlılığı, fiziki və estetik tərbiyəsi və s. araşdırır. Bu fəsildə tiflopedaqogikanın məqsəd və vəzifələrindən, bu elmin tibb elmləri ilə əlaqəsindən söhbət açılır.

II fəsil oftalmologiyaya (göz xəstəlikləri) həsr olunub. Burada müəllif vurğulayır ki, oftalmologiya tibb sahəsi olub, elmin müxtəlif sahələrini birləşdirən, görmə orqanlarının müalicə və profilaktikalarına aid olan, onun aparatları ilə anatomiya, qistalogiya, görmə analizatorlarının fiziologiyası ilə, fiziki optika ilə bağlı olan görmə orqanı funksiyasının öyrədilməsi, göz xəstəliklərinin diaqnostikası və müalicəsi nazik elektronoptik aparatın köməyilə aparılır. Bu fəsildə həmçinin görmə analizatoru haqqında məlumat verilir, görmə orqanının inkişaf mərhələləri təhlil olunur. Göz almasının embriogenezindən geniş söhbət açılır, nəhayət müəllif belə nəticəyə gəlir ki, uşaqlarda gözün tam inkişafı 23 yaşlarına qədər davam edir.

Görmə analizatorunun funksiyası. III fəsil bu məsələyə həsr olunmuşdur.

IV fəsildə çəpgözlükdən söhbət gedir, çəpgözlüyün aşağıdakı növləri: qeyri-həqiqi çəpgözlük, gizli çəpgözlük, aydın çəpgözlük kimi növləri sadalanır, hər biri haqqında məlumat verilir, eyni zamanda bütövlükdə, çəpgözlüyü törədən səbəblər göstərilir, çəpgözlüyü izah edən müxtəlif elmi-nəzəri dəyərlər sadalanır. Müəllif məlumat verir ki, çəpgözlüyün geniş yayılmış ortoptik müalicəsində əvvəlcə gözlə refraksiya pozğunluğuna uyğun korreksiyaedici eynəklər təyin edilir, sonra isə ambliopiyanın müalicəsi və nəhayət, vahid binokulyar görmənin bərpa edilməsi üçün vacib olan məşğələlər aparılır.

Görmə siniri (V fəsil) fəslində göstərilir ki, beyin sinirlərinin II cütü görmə siniri adlanır. Görmə qabiliyyətini müəyyənləşdirmək üçün görmə itiliyini, rəng duyğusunu, görmə sahəsini və göz dibini müəyyən etmək lazımdır.

«Korreksiya işi» adlanan VI fəsildə görmə qavrayışının inkişafından danışılır. Burada müəllif uşağa fəal aləmdəki əşyalara tamaşa etməyi, onun formasını, rəngini yadda saxlamağı, görmə qabiliyyəti zəif olan uşaqlarda real aləm haqqında təsəvvürləri formalaşdırmaqdan (paltar, mebel, qab-qacaq, tikinti və s.) onlara müayinə üsullarından, eşitmə, dadbilməni öyrənməkdən söhbət açılır. Qeyd olunur ki, görməni inkişaf etdirmək üçün görmə qavrayışının inkişafını məşğələlərdə qarşılıqlı şəkildə həyata keçirmək, görmə funksiyasının hərəkətvericilərini fəallaşdırmaq üçün görmənin müalicəsinə vizual çalışmalar aparmaq lazımdır.

VII fəsildə görmə qabiliyyəti pozulmuş uşaqların inkişaf etdirilməsi yollarından bəhs olunur. Göstərilir ki, tiflopedaqoqların bir qismi kor uşaqlarda lamisə həssaslığı ilə bağlı təcrübəyə əsaslanaraq, onlarda qavrama, hissetmə, bələdolma və idarəetmə ilə əlaqədar nitqin inkişafına geniş yer vermişlər. Dünyanın bir çox pedaqoqları, o cümlədən alman alimləri A.Ştimpara, R.Dyifo və K.Byurklen öz elmi əsərlərində qeyd etmişlər ki, gözdən əlil olan uşaqlarda yaxşı nitq mədəniyyəti yaratmaq nəinki





mümkündür, eyni zamanda bu, çox vacibdir, çünki görmə qabiliyyəti olmayan uşaqlar eşitdikləri hadisə, oxuduqları mətn, yaxud lamisə duyğuları vasitəsilə nəzərdən keçirdikləri əşyanın əlamətləri haqqında təəssüratını emosional söz və ifadələr vasitəsilə başqalarına çatdırmalıdırlar. Görkəmli rus tiflopedaqoqları A.Skrebitski, A.Kroqyis və başqaları alman tiflopedaqoqlarının həmin fikrini müdafiə etmiş və təcrübədə onu sübut etməyə başlamışlar.

Görməsi qüsurlu uşaqlar üçün təhsil. VIII fəsildə bu mühüm məsələdən danışılır. Qeyd olunur ki, görməsi qüsurlu olan uşaqlar üçün nəzərdə tutulmuş məktəblərin şagirdləri ümumtəhsil məktəblərinin tədris proqramları həcmində biliklərlə silahlandırılır. Həmin məktəblərdə uşaqlara müxtəlif ixtisaslar üzrə peşə hazırlığı keçirilir. Belə ki onlar gələcək həyatda əmək fəaliyyətində iştirak etməyə hazırlanırlar. Açıqlanır ki, görmə qabiliyyəti olmayan uşaqlara oxumaq və yazmaq öyrədərkən, relyef şəraitində Brayl əlifbasından (kor uşaqlara) istifadə edilir. Belə uşaqların xüsusi uşaq bağçalarında və məktəblərdə təlim-tərbiyə aldıqları dövrdə fiziki və əqli qabiliyyəti hərtərəfli inkişaf etdirilir.

Görməsi problemli uşaqların əxlaqi tərbiyəsinin şərtləri aşağıdakılardır:

Mehriban, məqsədyönlü uşaq kollektivi yaratmaq; ətraf aləmlə, məktəb və şagird kollektivləri ilə əlaqə yaratmaq; uşaqların öhdəsindən gələ biləcəkləri ictimai-faydalı işlərdə iştirakı; kollektiv əmək tələbatı yaratmaq; mütəşəkkillik, müstəqillik, dözümlülük, çətinlikləri dəf etmək bacarığı və s. başqa mənəvi keyfiyyətlər formalaşdırmaq.

Bu fəsildə eyni zamanda görmə qüsurlu uşaqların inkişaf xüsusiyyətlərindən, onlara diqqət və qayğıdan, onların davranışından geniş söhbət açılır.

Dərs vəsaitinin sonuncu IX bölməsi görməsi qüsurlu uşaqlara əlifbanın öyrədilməsinə həsr olunub. Bu fəsildə izah edildiyi kimi, görməsi qüsurlu uşaqlarla məktəbdə aparılan iş təcrübəsi göstərir ki, görməyən uşaqların həyata uyğunlaşdırılması görməmənin təsirindən, korluğun dərəcəsindən asılı olur. Normal inkişaf edən sağlam uşaqların öyrənilməsində olduğu kimi, proqrama verbal yoxlamalarla yanaşı, məkan formaları materialına əsaslanan əqli tapşırıqlar da daxil edilmişdir. Bu fəsildə nəzərə çatdırılır ki, görmə qabiliyyətini itirmiş uşaqların əmək təlimində, davranışında, nitqində olan nöqsanlı cəhətləri fərdi yanaşma yolu ilə aradan qaldırmaqla və onları ictimai tapşırıqlara cəlb etməklə də öyrənilir. Belə uşaqlara ictimai tapşırıq verdikdə, onlara mənəvi cəhətdən müsbət təsir göstərir. Burada belə bir məsələ də qeyd olunur ki, anadangəlmə görməyən sağlam uşaqlarla işləmək müəllimlər üçün asan olur, çünki belə uşaqlarda hafizə, dərketmə, hiss üzvləri daha tez inkişaf edir və onlara deyilənlər tez qavranılır. Amma xəstəlik nəticəsində görmə üzvünü itirmiş şagirdlərlə işləmək daha çətindir. Ona görə də beyin üzvlərinin xəstəliyi səbəbindən uşaq əsəbi, dərketmə, hafizə, hissetmə dağınıq şəkildə olur. Belə şagird öyrəndiyini tez unudur və beynində tormozlanma əmələ gəlir. Bu zaman müəllim şagirdə fasilə verməlidir.

Bu fəsildə xüsusi internat məktəblərində belə şagirdlərlə işin əsasları, eləcə də əlifbanın hərflər üzrə öyrədilməsi və hərflərin yazılışı qaydaları, eyni zamanda əlifbanın öyrədilməsində istifadə olunan əyani vasitələr əyani şəkildə, nümunə kimi göstərilir.

Sonda onu da qeyd edək ki, respublikamızda ilk dəfə olaraq oxuculara belə bir sanballı dərs vəsaitinin təqdim olunması təqdirəlayiq hadisədir və bu baxımdan uzun müddət ərzində araya-ərsəyə gətirdikləri «Tiflopedaqogika» kitabına görə müəllifləri təbrik edir və onlara xeyirxah işlərində daha böyük yaradıcılıq uğurları arzulayırıq!

**İdris HACIZADƏ**

## “Olimpiya Hərəkatı” layihəsi çərçivəsində respublika birinciliyinin məktəbdaxili yarışları



# “Olimpiya Hərəkatı” proqramı çərçivəsində yarışlara start verilib




Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə “Olimpiya Hərəkatı” layihəsi çərçivəsində respublika birinciliyinin məktəbdaxili yarışlarına start verilib.

İlkin olaraq Bakı şəhəri üzrə yarışlarda iştirak etmək üçün idman zalı olmayan məktəblər seçilib. Bu məqsədlə 8 ümumtəhsil məktəbinin komandası 96 və 234 nömrəli tam orta məktəblərdə məktəbdaxili yarış keçirib. Sumqayıt, Gəncə şəhərləri və Göygöl rayonu üzrə idman zalı olmayan məktəblərin seçilməsi və yarışların keçirilməsi planlaşdırılır.

Birinciliyin keçirilməsində əsas məqsəd məktəblilər arasında ümumtəhsil müəssisələrində fiziki tərbiyə fənninə marağı daha da artırmaq, idman federasiyaları və idman məktəbləri arasındakı əməkdaşlığı genişləndirmək, olimpiya idman komplekslərindən səmərəli istifadəni təmin etməkdən ibarətdir.

*Sizin maraq dünyanız*

# Əlifbanı kim icad edib?

Belə hesab edirlər ki, ilk əlifbanı finikiyalılar icad etmişdir və bu hadisə bizim eradan əvvəl II minilliyin birinci yarısında, yəni təqribən 3600-3800 il bundan əvvəl baş vermişdir. O vaxta qədər yazıda bütöv sözləri və ya anlayışları göstərən heroqliflərdən istifadə edirdilər. Ayrı-ayrı səslərin, özü də yalnız samit səslərin «şəklini» birinci olaraq çəkənlər finikiyalılar idi. O vaxt yazı işarələrinin sayı kəskin şəkildə azalaraq 500-600 heroqlifdən 22 hərfə çatmışdı. Hərfləri daha asanlıqla yadda saxlamaq üçün onları müəyyən ardıcıllıqla düzmüşlər və beləliklə, əlifba yaranmışdır. Lakin konsonant (yalnız samit səslərdən ibarət) yazı o qədər də münasib deyildi. Məsələn, «qş» hərf birləşməsi «qaş», «qış», «quş», «qoş» və s. mənalar verə bilər. B.e.ə. IX-VIII əsrlərdə əlifbanı finikiyalılardan əxz etmiş yunanlar bu nöqsanı aradan qaldırmaq üçün sait səslərə uyğun hərflər əlavə etmişlər. Hərflərin sayı artaraq 27-yə çatmışdı, amma əvəzində sözlərin yazılışı çaşqınlıq yaratmırdı. B.e.ə. VII əsrdə əlifba yunanlardan romalılara keçmişdir, fərasətli latınlar hərflərin sayını azaldaraq 25-ə endirmiş, «artıq» hərflərdən isə yalnız alınma sözlərin yazılışında istifadə etməyə başlamışdılar.

IX əsrdə iki rahib qardaş - Kiril və Mefodi yunan əlifbası əsasında Cənub slavyanları üçün «Kiril əlifbası» deyilən yazı sistemini yaratdılar. Onlar slavyanların nitqinə xas olan səsləri ifadə etmək üçün yunan hərflərinə bir neçə yeni hərf əlavə etdilər. Ruslar Cənub slavyanlarının əlifbasını «azbuka» adlandıraraq həmin əlifbaya daha bir neçə hərf artırmış və hərflərin sayını 44-ə çatdırmışdılar.

Yeri gəlmişkən, əlifba finikiyalılardan qədim yəhudilərə də keçərək onlar üçün «kvadrat» yazının əsası olmuş, qədim yəhudilərdən isə koptlara və kiçik Asiyanın digər xalqlarına keçmişdir. Sonrakı dövrdə ərəblər bu əlifbanı əhəmiyyətli dərəcədə dəyişdirərək öz dillərinə uyğunlaşdırmışlar. Beləliklə, müasir əlifbaların əksəriyyəti yalnız bir əlifbadan -Finikiya əlifbasından əmələ gəlmişdir.

**Hazırladı:**
**ƏDALƏT**

# 20 Yanvar faciəsindən 27 il ötür

